**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Azərbaycan sülh gündəliyini dəstəkləyir, Ermənistanla sülh müqaviləsi üzrə danışıqlara başlamağın və münasibətlərin normallaşdırılmasının təşəbbüskarı məhz Azərbaycan olub. Bu xüsusda da Azərbaycan tərəfindən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq 5 prinsip Ermənistana təklif edilib.**

Səhifə ⇨ 4



## Yol ver türkün bayrağına...

## Formula 1 Bakı yarışı yaddaşlarda dərin iz buraxdı



Səhifə ⇨ 12


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 89 (30205) 2 may 2023-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

veb-sayt: www.xalqqazeti.az


## Bakıda Formula 1 Azərbaycan Qran-Prisinin əsas yarışı keçirilib

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yarışa baxıblar

**Aprelin 30-da Bakı şəhər halqasında Formula 1 üzrə dünya çempionatının dördüncü – Azərbaycan Qran-Prisinin əsas yarışı keçirilib.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri yarışa baxıblar.

Əvvəlcə Qran-Prinin açılış mərasimi keçirilib.

Açılış mərasimində Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub. Dövlət Himnini "Eurovision-2018" müsabiqəsində Azərbaycanı təmsil edən Aysel Məmmədova səsləndirib.

Açılış mərasimindən sonra Formula 1 Azərbaycan Qran-Prisinin əsas yarışı başlayıb.

Formula 1 yarışında hər biri iki pilotdan ibarət 10 komanda mübarizə aparıb. Pilotlar qalibi müəyyənləşdirmək üçün Bakı şəhər halqasında iki saat ərzində 51 dövrə vurublar. "Mercedes" komandasının heyətində Luis Hamilton və Corc Rassel, "Ferrari" komandasında Karlos Sayns və Şarls Lekler, "Williams"ın heyətində Aleksander Albon və Loqan Sarjent yarışıblar. "Red Bull Racing" komandasında Serxio Peres, Maks Ferstappen, "Alpha Tauri"də Nik de Vris və Yuki Tsunoda, "Alpine"da isə Pyer Qasli ilə Esteban Okon mübarizə aparıblar. Bundan başqa, "Alfa Romeo"nun heyətində Valtteri Bottas və Cou Quanju, "McLaren"də Oskar Piastri və Lando Norris yürüşdə iştirak ediblər. Pilotlar Niko Hulkenberq və Kevin Maqnussen "Haas", Fernando Alonso və Lans Stroll "Aston Martin" komandasının idman şərəfini qoruyublar.

*(ardı 2-ci səhifədə)*

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

**Aprelin 30-da ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon danışığı əsnasında Antoni Blinken Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların əhəmiyyətini vurğulayıb, bu xüsusda ABŞ-ın dəstəyinin davam edəcəyini bildirib. ABŞ Dövlət katibi sülhün əldə edilməsinin mümkünlüyünə inandığını deyib və Azərbaycan–Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsinin qurulmasına toxunub.

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan sülh gündəliyini dəstəkləyir, Ermənistanla sülh müqaviləsi üzrə danışıqlara başlamağın və münasibətlərin normallaşdırılmasının təşəbbüskarı məhz Azərbaycan olub. Bu xüsusda da Azərbaycan tərəfindən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq 5 prinsip Ermənistana təklif edilib.

Azərbaycan–Ermənistan sərhədində "Laçın" sərhəd-buraxılış məntəqəsinin qurulması ilə əlaqədar Prezident İlham Əliyev bildirib ki, bu məntəqənin qurulması Azərbaycanın suveren hüquqları çərçivəsində və bütün beynəlxalq qaydalara uyğun olaraq təmin edilib.

Azərbaycan Prezidenti vurğulayıb ki, məqsəd hərəkətin məhdudlaşdırılması deyil, əksinə nəzarətin təmin edilməsidir və artıq bu məntəqə vasitəsilə gediş-gəliş həyata keçirilir.

Telefon danışığı zamanı Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalisinin hüquqlarının Azərbaycanın Konstitusiyası və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq sənədlər çərçivəsində təmin olunacağı qeyd edilib.

## Laçınlılar doğma yurda qayıdışa hazırlaşırlar



Səhifə ⇨ 8

## Azərbaycanın sərhəd məsələsində mövqeyi qətidir



Səhifə ⇨ 7

## Qərbi Azərbaycanda aparılmış etnik təmizləmə cinayəti

Səhifə ⇨ 11

## Türkiyə və Azərbaycan beynəlxalq terrorizmə qarşı mübarizədə həmrəydir

Səhifə ⇨ 4

## 3 ayda ölkəmizdə 7,7 milyon ton neft və 12, 2 milyard kubmetr qaz hasil olunub



Səhifə ⇨ 9

## Erməni separatizmi etnik-psixoloji xəstəlikdir

Səhifə ⇨ 11

## Əhali Sudanı kütləvi surətdə tərk edir



Səhifə ⇨ 4

## Tərtərdə və Goranboyda selin fəsadları aradan qaldırılır

Səhifə ⇨ 15

## Ukrayna hər dəqiqə əks-hücuma başlaya bilər



Səhifə ⇨ 4

## Bir həftədə ikinci mina faciəsi

Səhifə ⇨ 15

# Bakıda Formula 1 Azərbaycan Qran-Prisinin əsas yarışı keçirilib

(əvvəli 1-ci səhifədə)

Formula 1 üzrə dünya çempionatının cari mövsümü 24 mərhələdən ibarətdir. Bakı Qran-Prinin dördüncü mərhələsinə ev sahibliyi edir. Uzunluğu 6 kilometr olan və hərəkətin saat əqrəbinin əksinə nizamlandığı trek məşhur almaniyalı memar Hermann Tilke tərəfindən hazırlanıb. Azadlıq meydanından başlayan trek Hökumət Evinin ətrafı ilə fırlanaraq Qız qalasına çatmaq üçün İçərişəhər ətrafında 2,2 kilometr dairə vurur və Neftçilər prospektinə çıxaraq başlanğıc yerində sona çatır. Trekin ən geniş yerinin eni 13 metrdir, ən dar hissəsi trekin İçərişəhər ətrafında olan hissələrində, o cümlədən, 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edir.

İki saata yaxın davam edən gərgin idman mübarizəsinin sonunda "Red Bull Racing" komandasının meksikalı pilotu Serxio Peres Azərbaycan Qran-Prisinin qalibi adını qazanıb. Onun komanda yoldaşı Maks Ferstappen ikinci, "Ferrari"nin sürücüsü Şarl Lakler isə üçüncü pillədə yer alıblar.





Sonra Formula 1 Azərbaycan Qran-Prisinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Əvvəlcə qalib idmançının və komandanın şərəfinə Meksikanın və Avstriyanın Dövlət himnləri səsləndirilib.

Mükafatları pilotlara Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, Gənclər və İdman naziri Fərid Qayıbov, Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov, Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Məhəmməd Ben Sulayem və Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin icraçı direktoru Maqsud Fərzullayev təqdim ediblər.

Xatırladaq ki, Formula 1 Azərbaycan Qran-Prisinə aprelin 28-də start verilib. Azərbaycan Qran-Prisinin ilk günündə Formula 1 pilotları sərbəst yürüş və sıralanma yürüşlərində mübarizə aparıblar. Hər iki yürüşdə pilotlar 1 saat ərzində 6 kilometrlik Bakı trekində yarışıblar. Sərbəst yürüşdə "Red Bull Racing" komandasının pilotu Maks Ferstappen bütün rəqiblərini qabaqlayıb. "Ferrari"nin pilotu Şarl Lekler və "Red Bull Racing"in digər sürücüsü Serxio Peres ilk üçlüyü tamamlayıblar. Sıralanma turunu isə "Ferrari"nin pilotu Şarl Lekler qalibi kimi başa vurub. "Red Bull Racing"in üzvləri Maks Ferstappen ikinci, Serxio Peres isə üçüncü yerdə qərarlaşıblar. Bu qələbə sayəsində monakolu pilot cari mövsüm ilk, Bakı şəhər halqasında ardıcıl üçüncü poul qazanıb. Həmçinin bu, onun karyerasında qazandığı 19-cu nailiyyətdir. Aprelin 29-da isə sprint üçün təsnifat və sprint yarışları təşkil olunub. Təsnifat yarışında "Ferrari" komandasının pilotu Şarl Lekler birinci olub. "Red Bull Racing"in pilotları Serxio Peres və Maks Ferstappen ilk üçlüyü tamamlayıblar. Sprint yarışı isə S.Peresin qələbəsi ilə yekunlaşıb. Ş.Lekler ikinci, M.Ferstappen isə üçüncü olublar.

Builki dünya çempionatına martın 3-5-də Bəhreyn Qran-Prisi ilə start verilib. Sonrakı mərhələlər Səudiyyə Ərəbistanında və Avstraliyada keçirilib.

Beləliklə, 4 Qran-Pridən sonra pilotların siyahısına "Red Bull Racing" komandasının niderlandlı sürücüsü Maks Ferstappen başçılıq edir. Onun aktivində 93 xal var. Ferstappendən 6 xal geri qalan komanda yoldaşı – Bakı yarışının qalibi Serxio Peres ikinci sırada qərarlaşıb. İlk beşliyi 60 xalla Fernando Alonso ("Aston Matin"), 48 xalla Luis Hamilton ("Mercedes") və 34 xalla Karlos Saynz ("Ferrari") tamamlayırlar.

Konstruktorlar kubokunun lideri isə "Red Bull Racing" (180 xal) komandasıdır. "Aston Martin" 87 xalla ikinci, "Mercedes" isə 76 xalla üçüncü pillədə yer alıb. Sonrakı yerlərdə "Ferrari" (62), "McLaren" (14), "Alpine" (8), "Haas" (7), "Alfa Romeo" (6), "Alpha Tauri" (2) və "Williams" (1) komandaları qərarlaşıb.

Formula 1 Azərbaycan Qran-Prisi çərçivəsində Bakıda Formula 2 yarışları da keçirilib. Bu yarışda hər biri iki pilotla təmsil olunan 11 komanda birincilik uğrunda mübarizə aparıb. Aprelin 28-də Formula 2 üzrə sərbəst və sıralanma yarışları təşkil olunub. Sərbəst yürüşdə "Preme Racing" komandasının pilotu Oliver Berman birinci olub. "Hitech"in üzvü İsak Hajar yarışı ikinci, "Campos Racing"dən Kuş Maini üçüncü pillədə başa vurublar. Sıralanma turunda da Oliver Berman fərqlənib. "Rodin Carlin" komandasının üzvü Enzo Fittipaldi ikinci, "ART Grand Prix"in pilotu Teo Purşer isə üçüncü pillədə yer alıblar. Ertəsi gün birinci sprint yarışında O.Berman bütün rəqiblərini qabaqlayıb. Onun komanda yoldaşı Frederik Vesti yürüşü ikinci, "Hitech"in pilotu Jak Krouford isə üçüncü pillədə başa vurublar. On dörd mərhələdən ibarət Formula 2 yarışına noyabrın 24-26-da Əbu-Dabidə yekun vurulacaq.





Azərbaycan Formula 1 yarışlarına yeddinci dəfədir ev sahibliyi edir. Avropa Qran-Prisi adlandırılan ilk yarış 2016-cı ildə təşkil olunub. Bu yarışda "Mercedes" komandasının pilotu Niko Rosberg birinci olub. Növbəti ildən Azərbaycan Qran-Prisi adını alan yarışlarda Daniel Rikkardo ("Red Bull Racing", 2017), Luis Hamilton ("Mercedes", 2018), Valtteri Bottas ("Mercedes", 2019), Serxio Peres ("Red Bull Racing", 2021), Maks Ferstappen ("Red Bull Racing", 2022) qalib gəliblər. 2020-ci ildə Formula 1 Azərbaycan Qran-Prisi koronavirus pandemiyası səbəbindən keçirilməyib.



Dünya çempionatının Azərbaycan mərhələsində hər il müxtəlif pilotlar qalib gəlib. Azərbaycan Qran-Prisinin nəticəsinin gözlənilməzliyi onu daha da möhtəşəm edir. Formula 1 mütəxəssisləri buna "Bakı sindromu" adı veriblər.

**AZƏRTAC**

# Azərbaycan 8 ədəd müasir "Boeing" təyyarəsi alacaq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da "Boeing" şirkətinin icraçı vitse-prezidenti, "Boeing Commercial Airplanes" şirkətinin prezidenti və baş icraçı direktoru Stenli Dili qəbul edib.**



Görüşdə Azərbaycan ilə "Boeing" şirkəti arasında 8 ədəd müasir "Boeing 787 Dreamliner" təyyarəsinin alınmasına dair bu yaxınlarda razılaşmanın əldə olunması mühüm hadisə kimi qiymətləndirildi. Azərbaycan ilə "Boeing" şirkəti arasında uzun illərdir uğurlu və etibarlı əməkdaşlığın həyata keçirildiyi vurğulandı.

Söhbət zamanı Azərbaycanda nəqliyyat sahəsində böyük işlərin həyata keçirilməsindən bəhs olundu, ölkəmizin mühüm beynəlxalq və regional nəqliyyat habına çevrildiyi, yeni hava limanlarının açıldığı qeyd edildi. Qarabağda və Şərqi Zəngəzurda yeni hava istiqamətlərinin açılmasının önəmi vurğulandı, əməkdaşlıq əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.

Görüşdə Formula 1 yarışının Azərbaycanda yüksək səviyyədə təşkil olunduğu bildirildi, ölkəmizə xeyli sayda turistin gəlməsinin önəmi vurğulandı. Azərbaycanın mötəbər tədbirlərin keçirildiyi məkana çevrildiyi və ölkəmizin beynəlxalq əməkdaşlıq işlərinə töhfə verdiyi qeyd edildi.

**AZƏRTAC**

# Ölkəmizin Özbəkistanla əməkdaşlığı genişlənir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Özbəkistanın "Uzavtosanoat" Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Uluqbek Rozukulovu qəbul edib.**



Dövlətimizin başçısı, ilk növbədə, Özbəkistanda referendumun uğurla keçirilməsi münasibətilə Prezident Şavkat Mirziyoyevə təbriklərini çatdırmağı xahiş etdi. Referendumu qardaş Özbəkistanın hərtərəfli inkişafı və demokratiyanın möhkəmlənməsi istiqamətində mühüm addım kimi dəyərləndirən Azərbaycan Prezidenti qeyd etdi ki, bu referendum, eyni zamanda, Özbəkistan Prezidentinin həyata keçirdiyi kursa xalqın göstərdiyi etimaddır.

Prezident İlham Əliyev Özbəkistana səfərləri zamanı bu ölkədə gedən böyük inkişaf proseslərinin şahidi olduğunu məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı Özbəkistan Prezidenti ilə keçirilən görüşlər zamanı əldə olunmuş razılaşmaların, o cümlədən, avtomobil istehsalı sahəsində həyata keçirilən işlərin də əməkdaşlığın genişlənməsi baxımından önəmini vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən Uluqbek Rozukulov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şavkat Mirziyoyevə çatdırmağı xahiş etdi.

Şavkat Mirziyoyevin Azərbaycanla əməkdaşlığa çox böyük önəm verdiyini vurğulayan qonaq dövlət başçılarının tapşırıqları əsasında azərbaycanlı həmkarları ilə daim əzmlə çalışdıqlarını diqqətə çatdırdı.

Uluqbek Rozukulov ölkəmizə səfəri çərçivəsində Hacıqabul Sənaye Məhəlləsində iki istehsal müəssisəsinin – qaynaq və boyama fabriklərinin təməlqoyma mərasimində iştirak edəcəyi barədə dövlətimizin başçısına məlumat verdi. Qeyd etdi ki, hər iki müəssisə Azərbaycanda avtomobil istehsalının lokallaşdırılması istiqamətində növbəti addım olmaqla sənayenin bu sahəsinin inkişafına töhfə verəcək.

Görüşdə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

# Sabirabad şəhərində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Sabirabad şəhərində avtomobil yollarının əsaslı təmiri işlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 2,9 milyon (iki milyon doqquz yüz min) manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 may 2023-cü il**

# Azərbaycanın Beynəlxalq Avtomobil Federasiyası ilə əməkdaşlığı məmnunluq doğurur



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Məhəmməd Ben Sulayemi qəbul edib.**

Görüşdə Azərbaycan ilə Beynəlxalq Avtomobil Federasiyası arasında uzun illər mövcud olan uğurlu əməkdaşlıqdan məmnunluq ifadə edildi.

Azərbaycanda Formula 1 yarışlarının yüksək səviyyədə təşkil edilməsinin əhəmiyyəti qeyd olundu. Vurğulandı ki, ölkəmizin uzun illər dünya səviyyəli çox önəmli tədbirlərə, o cümlədən, idman yarışlarına ev sahibliyi etməsi beynəlxalq əməkdaşlığa mühüm töhfə verir.

Söhbət zamanı Azərbaycan ilə Beynəlxalq Avtomobil Federasiyası arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

***AZƏRTAC***

## "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2575; 2019, № 6, maddə 1012, № 12, maddələr 1937, 1953; 2020, № 3, maddə 254; 2022, № 5, maddə 445, № 8, maddə 846; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 9 mart tarixli 2061 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.3-cü bənddə "və onun 3 (üç) müavini həyata keçirir;" sözləri "həyata keçirir." sözləri ilə əvəz edilsin və həmin bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İcraçı direktorun Müşahidə Şurası tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən 3 (üç) müavini vardır;";

1.2. 3.5-ci bəndə "ayırmalar," sözündən sonra "icbari tibbi sığorta fondundan ayırmalar," sözləri əlavə edilsin;

1.3. 6.5.7-ci yarımbənd ləğv edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin təklifləri əsasında dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrinə tibb işçilərinin işə qəbulu qaydasını iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri 1 may 2023-cü il**

## Azərbaycan Özbəkistanla avtomobil sənayesi sahəsində tərəfdaşlıq edəcək



**İqtisadiyyat naziri Mikayıl Cabbarov Özbəkistanın "Uzavtosanoat" Səhmdar Cəmiyyətinin rəhbəri Uluqbek Rozukulovla görüşüb.**

Nazirlikdən redaksiyamıza bildirilib ki, görüşdə Azərbaycan–Özbəkistan tərəfdaşlığının dinamik inkişaf etdiyi, investisiya əməkdaşlığının gücləndiyi vurğulanıb. Nazir qeyd edib ki, qarşılıqlı səfərlər və aparılan müzakirələr səmərəli nəticələr verir, işgüzar dialoq genişlənir, özəl sektorun fəallığı artır, yeni ideyalar və təşəbbüslər irəli sürülür. Rəqabətqabiliyyətli iqtisadiyyatın inkişafına xidmət edən layihələrin icrasını sürətləndirmək üçün ölkəmizdə biznes və investisiya mühiti qlobal çağırışlara uyğunlaşdırılır. Bununla yanaşı, ixtisaslı kadr ehtiyatı, institusional potensial, səmərəli enerji və nəqliyyat infrastrukturu, beynəlxalq bazarlara çıxış kimi imkanlar da birgə layihələrin icrasını asanlaşdırır.

İqtisadiyyat naziri Hacıqabul Sənaye Məhəlləsində təməli qoyulacaq avtomobil istehsalının boyaq, qaynaq və yığım mərhələsinin lokallaşdırılması zavodunun əhəmiyyətini diqqətə çatdırıb, layihənin ölkəmizdə qeyri-neft sektorunun inkişafı, istehsalın lokallaşdırılması və məşğulluğun təminatına təkan verəcəyini qeyd edib.

Uluqbek Rozukulov ölkəmizdə sahibkarlığın inkişafı üçün yaradılmış əlverişli mühitdən məmnunluğunu ifadə edib, azərbaycanlı tərəfdaşlarla əlaqələrin genişləndirilməsində maraqlı olduğunu bildirib.

Görüşdə ölkəmizdə avtomobil sənayesinin inkişaf etdirilməsi, bu istiqamətdə Özbəkistanla əməkdaşlığın genişləndirilməsi və istehsal edilən avtomobillərin üçüncü ölkələrə ixrac imkanları müzakirə edilib.

Tədbir çərçivəsində İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi, "Maşın və avadanlıq istehsalçıları" Assosiasiyası və Özbəkistanın "Uzavtosanoat" Səhmdar Cəmiyyəti arasında Azərbaycanda avtonəqliyyat vasitələrinin istehsalının genişləndirilməsi haqqında Əməkdaşlıq Memorandumu imzalanıb.

## Azərbaycan Hökuməti ilə Türkiyə Hökuməti arasında Preferensial Ticarət Sazişinə dəyişiklik haqqında Protokol imzalanıb

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Samsun şəhərində Türkiyənin Ticarət naziri Mehmet Muşla görüşüb.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlət başçılarının siyasi iradəsinin, verdikləri tapşırıqların icrasının əlaqələrin inkişafında müstəsna əhəmiyyətini vurğulayıb. Qeyd edilib ki, Azərbaycan–Türkiyə müttəfiqliyi ölkələrimizin iqtisadi potensialından səmərəli istifadə edilməsi üçün əlverişli şərait yaradır. Nazir bildirib ki, Türkiyə Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır və iki ölkə arasında Preferensial Ticarət Sazişinin əhatə dairəsinin genişləndirilməsi qardaş ölkə ilə ticarət dövriyyəsinin artırılması istiqamətində hədəflərimizin gerçəkləşməsinə növbəti töhfə olacaq.

Türkiyənin ticarət naziri Mehmet Muş ölkələrimizin dostluq və qardaşlıq münasibətlərini, strateji müttəfiqliyini vurğulayıb, Azərbaycan-Türkiyə iş birliyinin daha da gücləndirilməsi istiqamətləri barədə fikirlərini bildirib.

Görüşdə ticarət və investisiya qoyuluşu üzrə cari vəziyyət nəzərdən keçirilib, həmçinin reallaşdırıla biləcək əməkdaşlıq imkanlarına dair müzakirələr aparılıb.

Səfər çərçivəsində "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi"nə dəyişiklik haqqında Protokol" imzalanıb. Sənədi iqtisadiyyat naziri Mikayıl Cabbarov və türkiyəli həmkarı Mehmet Muş imzalayıblar.

Qeyd edək ki, 2021-ci il martın 1-də qüvvəyə minmiş Preferensial Ticarət Sazişi bir sıra məhsullarımızın Türkiyəyə güzəştli şərtlərlə - idxal rüsumu ödənilmədən ixracına imkan verir.

Samsun şəhərində Türkiyədən olan iş adamları ilə keçirilən görüşdə biznes dairələri arasında qarşılıqlı əlaqələrdən məmnunluq ifadə olunub, ölkəmizdə yaradılan biznes və investisiya imkanları müzakirə edilib. Sahibkarlarla ölkələrimiz arasında ticarət dövriyyəsinin, biznes strukturları arasında işgüzar tərəfdaşlığın daha da inkişaf etdirilməsi, investisiya qoyuluşlarının artırılması, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində qonaqlar Samsun Bandırma Gəmi Muzeyini ziyarət edib, müasir Türkiyənin qurucusu Atatürkün 1919-cu il mayın 19-da Bandırma Vapuru ilə məhz burada sahilə çıxaraq başladığı milli mübarizə hərəkatının və bu il 100 yaşını qeyd etdiyimiz Türkiyə Respublikasının qurulmasının şanlı tarixini əks etdirən eksponatlarla, həmçinin Türkiyənin ilk yerli elektromobili "Togg" ilə tanış olublar.

## "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**3.** Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi:

3.1. strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini bir ay müddətində təsdiq etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri 1 may 2023-cü il**

## İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən istifadəyə görə maliyyə yardımı göstərilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, işğaldan azad edilmiş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi, investisiya cəlbediciliyinin artırılması, müasir və effektiv istehsal, ticarət və xidmət infrastrukturunun yaradılması, innovativ texnologiyaların tətbiqi, sənaye potensialının reallaşdırılması və sahibkarlıq fəaliyyəti üçün əlverişli şərait yaradılması məqsədilə **qərara alıram:**

**1.** İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara 2023-cü il yanvarın 1-dən 10 (on) il müddətində hər ay istehlak olunan kommunal xidmətlərin (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) tariflərinə uyğun olaraq ödədikləri vəsaitin 20 (iyirmi) faizi məbləğində dövlət büdcəsinin vəsaiti hesabına maliyyə yardımı ödənilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. işğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) istifadəyə görə maliyyə yardımının ödənilməsi qaydasını on beş gün müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.2. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan maliyyə yardımının ödənilməsi ilə bağlı tələb olunan vəsaitin müvafiq illərin dövlət büdcəsi layihələrində nəzərdə tutulmasını təmin etsin;

2.3. bu Fərmanın icrası barədə ildə bir dəfə – hər il aprelin 1-dək Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə razılaşdırmaqla, bu Fərmanın 1-ci hissəsinin icrası ilə bağlı 2023-cü ildə tələb olunan vəsait barədə təkliflərini on beş gün müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

3.2. bu Fərmanın icrası ilə bağlı illik icmal hesabatı növbəti il fevralın 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

3.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri 1 may 2023-cü il**

# Tacikistanın prokurorluq orqanları heyəti ölkəmizdə

**Baş prokuror Kamran Əliyevin dəvəti ilə Tacikistan Respublikasının Baş prokuroru Yusuf Raxmonun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdə olub.**



Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, nümayəndə heyəti Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub, eləcə də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib. Qonaqlar, həmçinin Şəhidlər xiyabanını ziyarət edərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş Vətən övladlarının xatirəsini anıblar.

Baş Prokurorluqda keçirilmiş ikitərəfli görüşdə Baş prokuror Kamran Əliyev tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də müvəffəqiyyətlə inkişaf etdirildiyini, dövlət başçılarının apardıqları uzaqgörən xarici siyasət nəticəsində ölkələrimiz arasında əlaqələrinin etibarlı əməkdaşlıq səviyyəsinə qalxmaqla dostluq və tərəfdaşlıq prinsipinə əsaslandığını vurğulayıb.

Baş prokuror Prezident İlham Əliyevin həyata keçirdiyi strateji kursun və dövlət siyasətinin prioritetlərinə uyğun olaraq ölkəmizdə hüquq qaydasının möhkəmləndirilməsi və qanunun aliliyinin təmin olunması istiqamətində aparılan islahatlar barədə həmkarına məlumat verib.

Azərbaycan Respublikasının prokurorluq orqanları ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edən Tacikistan Respublikasının Baş prokuroru Yusuf Raxmon göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Azərbaycan və Tacikistan prokurorluqları arasında münasibətlərin müsbət dinamikasını vurğulayaraq bu əlaqələrin gələcəkdə də inkişaf etdiriləsinin zəruriliyindən və perspektivlərindən danışıb.

Kamran Əliyev rəşadətli ordumuzun Qələbə qazandığı 44 günlük Vətən müharibəsi dövründə dost Tacikistanın ölkəmizə mənəvi dəstəyinə görə təşəkkürünü bildirərək Müzəffər Ali Baş Komandan İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Qarabağda aparılan geniş quruculuq bərpa işləri haqda həmkarını məlumatlandırıb.

Görüşdə beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyi, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında müzakirələr aparılıb.

Bundan başqa, nümayəndə heyəti Baş Prokurorluğun yeni inzibati binasında prokurorluğun struktur qurumlarının rəhbərləri ilə görüş keçirib. Qonaqlara ölkəmizin prokurorluq orqanlarının fəaliyyəti haqda geniş məlumat verilib.

Nümayəndə heyəti, həmçinin Heydər Əliyev Mərkəzini ziyarət edərək, görkəmli dövlət xadiminin həyat və fəaliyyətini əks etdirən eksponatlar ilə tanış olub, ona Mərkəzdə nümayiş olunan Salvador Dalinin əsərlərindən ibarət "Sürrealizm mənəm" və avtomobil kolleksiyası sərgisi barədə məlumat verilib.

Daha sonra qonaqlar "İçərişəhər" Muzey Mərkəzinin tərkibində fəaliyyət göstərən Şirvanşahlar Sarayı Kompleksi və Qız Qalası, həmçinin UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilmiş digər tarixi-memarlıq abidələri ilə tanış olublar.

Həmçinin qonaqlar paytaxtımızda keçirilən Formula 1 Azərbaycan Qran-Prisini izləyiblər.

Tacikistan Baş prokurorunun ölkəmizə işgüzar səfəri başa çatıb.

***Qəzənfər QASIMOV,***
***"Xalq qəzeti"***

# Yol ver türkün bayrağına...

## Bu çağırışı dilə gətirənlərin sayı hər gün artır

**Aprelin 29-da Azərbaycan Prezidenti İlham Əliyevin idarə etdiyi "Togg" avtomobili Türk dünyasının iki ən nüfuzlu liderini İstanbulda keçirilən "TEKNOFEST" Aerokosmik və Texnologiya Festivalının açılışına gətirəndə, sanki bütün İstanbulda ucadan eşidiləcək bir mahnı səsləndirilirdi: "Yol ver türkün bayrağına".**




***Bu gün Türkiyə Avrasiyanın ticarət, enerji, nəqliyyat, siyasi mərkəzidir. Gündən-günə Türkiyənin önəmi, rolu artır. Türkiyənin güclü sənayesi həm Türkiyəni gücləndirir, həm də Türkiyənin müttəfiqlərini gücləndirir. Türk Ordusu bu gün dünya çapında ən öndə olan orduların sırasındadır. Türkiyənin müdafiə sənayesi bu gün bütün dünya tərəfindən qəbul edilir.***

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**İstanbul, 29 aprel 2023-cü il**

Ölkəmizdə və qardaş Türkiyədə məhşur olan, dinləyicilərə vətənpərvərlik ruhu aşılayan bu mahnı başdan-başa Azərbaycan–Türkiyə qardaşlığı himni idi. İstiqlal şairimiz Əhməd Cavadın 1914-cü ildə Gəncədə olarkən yazdığı ( yeri gəlmişkən, gələn il həmin şeirin 110 yaşı tamam olacaq) şeirə dahi Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəyli dörd ildən sonra – 1918-ci ildə mükəmməl bir mahnı bəstələmişdi. O zaman Üzeyir bəy həmin mahnını Nuru paşanın komandanlığındakı Qafqaz İslam Ordusunun Azərbaycandakı qəhrəmanlıqlarına ithaf etmişdi. Mahnını İstanbulda Azərbaycan Silahlı Qüvvələrinin kapitanı, Xalq artist Azərin ( Anaxanım Tağıyeva) oxuyurdu.

Azərin birmənalı şəkildə Azərbaycan ab-havası ilə oxuyur, bütün dünya İstanbulun cah-cəlalına bənd olur, hava limanına toplaşanlar üç dövlət başçısının meydana gəlişini alqışlayır, mən isə qəlbən, ruhən Şuşaya gedirdim. İstanbuldakı təmtəraq mənim gözümdə və xəyalımda cənab Rəcəb Tayyib Ərdoğanın 2021-ci ilin iyun ayında Şuşadakı çıxışını canlandırırdı. Qardaş ölkənin lideri deyirdi: "Allaha şükür olsun ki, daha əvvəl verdiyimiz sözümüzü bu gün yerinə yetiririk. Qırx dörd günlük məlum müharibənin nəticəsində Qarabağ, çox şükürlər olsun ki, sahiblərinə qovuşdu və erməni zülmündən, erməni işğalından azad edildi... Bildiyiniz kimi, qəhrəman Azərbaycan Ordusunun Qarabağ Zəfərinin sevincini qardaşım cənab Əliyevlə Bakıda birlikdə bölüşmüşdük. O gün tamamilə başqa bir coşqu, başqa bir həyəcan var idi. Altı ay sonra qədim Şuşa şəhərində onunla bir yerdə olmaqdan böyük məmnunluq duyuram. Verdiyimiz söz, çox şükür, yerinə yetirildi".

Əhməd Cavad, Üzeyir bəy Hacıbəyli, Nuru paşa, Qafqaz İslam Ordusu, Azərbaycanın istiqlalı, Türkiyə ilə qardaşlıq münasibətlərimiz – bütün bunların hərəsi bir mükəmməl yazı mövzusudur. Türkiyənin dünyada söz sahibinə çevrilməsi, bu prosesə Mustafa Kamal Atatürkün, Nəriman Nərimanovun və Heydər Əliyevin verdiyi töhfələr, sonrakı dövrlərdə prezidentlər Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin həmin tarixi ənənəni yaradıcılıq və ardıcıllıqla davam etdirməsi də şanlı tariximizin qürurverici səhifələridir.

Həmin tarixi şanlı adlandırmağımız təsadüfi deyil. Çünki 70 il davam edən kommunist rejimi dövründə – SSRİ-də türk düşmənçiliyinin, 30-cu illərin sonlarından 50-ci illərin ortalarınadək sovet-türk münasibətlərində gərginliyin olmasına baxmayaraq, Azərbaycan xalqı Türkiyə və Anadolu türkünə olan inamını, sevgisini qətiyyən azaltmamışdı. Hətta, istənilən azərbaycanlı 1918-ci ildə ölkəmizə xilaskar kimi gəlmiş Türk Ordusunun şəhid əsgərlərinin məzarlarını qoruyub saxlamış, dağılmağa qoymamışdı.

Nəhayət, ulu öndər Heydər Əliyevin hakimiyyəti illərində həmin qardaşlıq nümunələri tarixi abidəyə çevrilmişdi. 1918-ci ilin mart soyqırımı qurbanlarının, 1990-cı il 20 Yanvar faciəsində, Ermənistanın təcavüzünə qarşı ölkəmizin ərazi bütövlüyü uğrunda aparılan müharibədə həlak olan qəhrəman Vətən övladlarının dəfn olunduğu və hər bir azərbaycanlı üçün müqəddəs olan Şəhidlər xiyabanında Qafqaz İslam Ordusuna möhtəşəm abidə ucaldılmışdı. Professor Musa Qasımlının dediyi kimi, bu, insanların təkcə ziyarət edərək əklil qoyduqları bir abidə deyil, qanı bir-birinə qarışmış Azərbaycan və Türkiyə xalqlarının qardaşlığının və əbədi birliyinin rəmzidir".

...Bu gün dünya yeni reallıqlar ərəfəsindədir. Doğrudur, Azərbaycan otuz il düşmən tapdağında olan torpaqlarını işğaldan azad edərək regionda yeni reallıqlar yaradıb. Ancaq Türk dünyası regionda yox, Avrasiyada, bütövlükdə planetimizdə yeni reallıqlar yaratmaq ərəfəsindədir. Azərbaycan Prezidentinin fikrincə, 2023-cü ildə Türk dünyasını böyük hədəflər gözləyir.

Dövlət başçımız ötən il noyabrın 22-də Türk Dövlətləri Təşkilatının Səmərqənddə keçirilən IX Zirvə görüşündəki çıxışında demişdi ki, Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Azərbaycan həmişə türk dünyasının sıx birləşməsinə öz töhfəsini verib və bundan sonra da Türk dünyasının birliyi amallarına sadiq qalacaq.

Azərin oxuyurdu: "Fırtınalar dursun yana, Yol ver Türkün bayrağına!" Sanki təqvimdə 2023-cü il aprelin 29-u yox, 2022-ci il sentyabrın 20-i idi. Həmin gün cənab Rəcəb Tayyib Ərdoğan BMT Baş Assambleyasının Nyu-Yorkda keçirilən 77-ci sessiyasında çıxışında deyirdi: "Türkiyə azərbaycanlı qardaşlarının bundan sonra da yanında olacaq. Azərbaycan torpaqlarının işğaldan azad olunması ilə regionda tarixi "pəncərə" açılıb. Türkiyə bölgədə sülh və sabitliyin bərqərar olması üçün çox mühüm addımlar atıb. Son günlər Ermənistan – Azərbaycan sərhədindəki vəziyyət bizim ümumi işimizə kölgə salsa da, inanırıq ki, iki ölkə arasında münasibətlər tezliklə normallaşacaq, hərtərəfli sülh sazişi imzalanacaq və regionda sülh bərpa olunacaq".

... On minlərlə "TEXNOFEST" iştirakçısı Azərbaycan Przidentinin "Bir millət, iki dövlət, bir yumruq" tezisini alqışlayırdı. Mən isə Azərbaycan liderinin 2014-cü il aprelin 24-də Praqada dövlət və hökumət başçılarının iştirakı ilə "Şərq tərəfdaşlığı" Proqramının 5 illiyinə həsr olunan sammitində işğalçı ölkənin quldur başçısıı Serj Sarkisyanın Türkiyənin əleyhinə danışdığı anları xatırlayıram. Həmin məqamda dövlət başçımız demişdi ki, bu gün, təəssüf ki, Ermənistan prezidenti burada fürsətdən istifadə edərək Türkiyəyə yenidən hücum edir. Bunu etmək asandır, çünki bu masa arxasında Türkiyə nümayəndələri yoxdur: "Ancaq mən buradayam və Türkiyə – Ermənistan sərhədinin niyə bağlı olduğunu deyə bilərəm. Türkiyə ilə Ermənistan sərhədi Azərbaycanın Kəlbəcər rayonunun 1993-cü ilin aprelində işğalından sonra bağlanıb. Bundan əvvəl isə bütün azərbaycanlılar Dağlıq Qarabağdan qovulub, Dağlıq Qarabağ əhalisinin 30 faizi ermənilər idi. Kəlbəcərdən əvvəl 1992-ci ildə ermənilər Şuşanı və Laçını işğal etdilər. Daha sonra Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl – Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda olan ümumilikdə Azərbaycanın 7 rayonunu işğal etdilər ki, bu da Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisinin 20 faizini təşkil edir. Bizim əhali etnik təmizləməyə məruz qalıb və bu işğal BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, Avropa Parlamentinin qətnaməsi və Avropa Şurası Parlament Assambleyasının qətnaməsinə baxmayaraq bu günədək davam edir".

Bəli, zaman dəfələrlə sübut edib ki, Türkiyə Azərbaycanın, Azərbaycan Türkiyənin yanındadır. Bu isə rəqib və bədxahlarımız üçün o qədər də asan dəf ediləcək maneə deyil. Ona görə də böyük şairin 109 il əvvəl yazdığı xəbərdarlıqdan nəticə çıxarmağın vaxtıdır: "Yol ver türkün bayrağına!"

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

# Türkiyə və Azərbaycan beynəlxalq terrorizmə qarşı mübarizədə həmrəydir

**Müasir dünyamızda qlobal terrorizmin bəşəriyyətin təhlükəsizliyi baxımından ən böyük təhdid mənbəyi olaraq qaldığı şübhəsizdir. Bu da şübhəsizdir ki, beynəlxalq terrorizm ona qarşı beynəlxalq səviyyədə mübarizəni zəruri edir. Ancaq təəssüflər olsun ki, bir çox hallarda siyasi amillər, fərdi yanaşmalar, ikili standartlar terrorizmə, o cümlədən, ayrı-ayrı terror təşkilatlarına vahid mövqedən yanaşmağa, terrorizmə qarşı birgə mübarizə təşkil etməyə imkan vermir. Məhz bütün bu amillərin nəticəsidir ki, Azərbaycan və Türkiyə onilliklərdir ki, terrorizmə qarşı təkbaşına – yalnız öz qüvvələri daxilində mübarizə aparmaqda, bu mübarizədə böyük uğurlara imza atmaqdadır.**




### Avropa təhlükədən sığortalanır

Məlumdur ki, Azərbaycan və Türkiyənin terrorizmə qarşı apardığı mübarizə Qərb dövlətləri tərəfindən heç vaxt paraktiki dəstək almayıb. Əksinə, bir çox hallarda bəzi Qərb ölkələri terrorçu təşkilatların, yaxud separatçıların yanında yer alıb, onlara dəstək veriblər. Buna nümunə olaraq Fransanın bu gün də erməni terroruna kömək etdiyini, separatçılara açıq-aşkar dəstək verdiyini göstərmək olar. Halbuki, Türkiyə və Azərbaycanın terrora qarşı apardıqları mübarizə yalnız bu dövlətlərin deyil, bütün dünyanın, o cümlədən, Avropanın terrordan müdafiəsinə xidmət edir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Suriyada İŞİD terror təşkilatına qarşı keçirilən son əməliyyatla bağl açıqlamasında bu həqiqəti Qərb dünyasına xatırladaraq deyir: "Türkiyə kəşfiyyatı uzun müddət idi İŞİD-in qondarma başçısı Əbu Hüseyn əl-Qureyşini izləyirdi. Bu şəxs dünən MİT-in (Milli İstihbarat Təşkilatı) Suriyada keçirdiyi əməliyyatla zərərsizləşdirilib.

Güclü Türkiyə dinc vətəndaşları üçün qürur mənbəyidir. Terrorçular artıq başlarını qaldıra bilmirlər, bu da Avropanın təhlükəsizliyinə töhfə verir, amma bunu anlamırlar, hətta müdafiə edirlər. Terror təşkilatlarına qarşı ən təsirli şəkildə mübarizə aparan yeganə ölkə bizik. PKK-nın ən böyük terrorçuları zərərsizləşdirilib".

Göründüyü kimi, Avropadakı bəzi qüvvələrin terrorçuları himayə etdiyi Türkiyə Prezidenti tərəfindən də etiraf olunmaqdadır. Əslində, terror təşkilatlarının bir çox hallarda Avropa dövlətləri tərəfindən himayə olunması gerçəkliyi, həm də bugünə qədər beynəlxalq terrorizmə qarşı mübarizədə qəti uğurun hansı səbəblə əldə edilməməsi sualını izah edir. Bu fakt sübut edir ki, terrorun bəzi qlobal güclər tərəfindən himayəsi fonunda bu təhlükədən tam olaraq sığortalanmaq mümkün deyil. Bununla belə, qardaş Türkiyə də, eyniylə Azərbaycan kimi, terrora qarşı mübarizəni yorulmadan davam etdirməkdə, bu sahədə ciddi uğurlara imza atmaqdadır. Bir faktı qeyd edək ki, 2022-ci ildə Türkiyə 87-si xüsusi dərəcəli təhlükəli olmaqla, ümumilikdə, 1220 terrorçunu zərərsizləşdirib. Eyni zamanda, Türkiyə ötən il 185 terror aktının qarşısı alıb, minlərlə insanın həyatını xilas edib.

2020-ci ildə erməni faşizminə qarşı müharibədə qətiyyətli qələbə əldə edən Azərbaycan da terrorizmə, o cümlədən, mina terroruna qarşı mübarizəsini davam etdirməkdədir. Statistikaya nəzər salsaq görərik ki, 2022-ci ildə Azərbaycan ermənilər tərəfindən ərazilərimizdə basdırılan 12,313 min minanın zərərsizləşdirilməsinə nail olub. Bütün bu rəqəmlər həm Azərbaycan, həm də Türkiyənin beynəlxalq dəstək olmadan terrora və terrorizmə qarşı hansı miqyasda mübarizə apardığını göstərir.

### Terrora dəstək də cinayətdir

Azərbaycan və Türkiyənin qlobal terrorizmə qarşı apardığı bu mübarizə bütün dünyada terror təhlükəsinin azalmasına, bəşəriyyətin, o cümlədən, onun bir parçası olan Qərb dünyasının terror risklərindən sığortalanmasına xidmət edir. Təəssüflər olsun ki, hər iki türk dövlətinin sərgilədiyi bu fədakarlıq Avropa dövlətləri tərəfindən təqdir və dəstəkdən kənar qalmaqdadır. Bu, azmış kimi, müəyyən məqamlarda terrora siyasi-iqtisadi dəstək verən bəzi dövlətlər Azərbaycan və Türkiyənin terrorizmə qarşı apardığı mübarizənin əhəmiyyətini azaltmaqda, bu mübarizənin daha effektiv nəticə verməsini əngəlləməkdədir. Məlumat üçün qeyd edək ki, erməni faşizminin qatı himayədarlarından olan İran son bir il ərzində terrorun bilavasitə və ya dolayısı ilə dəstəklənməsi məqsədilə 16 milyard dollar məbləğində vəsait sərf edib. Bu vəsaitin miqdarı terrorizmin hansı səviyyədə himayə edildiyini göstərir.

Təbii ki, terrorizmin dəstəklənməsi, onun himayə edilməsi bütün bəşəriyyətə, onun təhlükəsizliyinə xəyanət deməkdir. Çünki terrora, terrorçuya göstərilən ən xırda dəstək belə nəticə etibarı ilə bəşəriyyət üçün ağır fəsadlara, qorxunc nəticələrə səbəb olur. Bu isə o deməkdir ki, törədilən hər terror aktına görə məsuliyyət onu icra edənlərlə yanaşı, həm də onlara yardım edənlərin üzərinə düşür.

Hazırda Türkiyə və Azərbaycan beynəlxalq terrorizmə qarşı mübarizənin lokomotivləri qismində çıxış edirlər. Bu gün bütün dünyanın terrorizmə qarşı mübarizə fonunda atmalı olduğu yeganə addım Azərbaycan və Türkiyənin ətrafında birləşmək, terrorizmə qarşı mübarizədə bu ölkələrə dəstək vermək, bu yolla öz təhlükəsizliklərinin təmin edilməsinə yardımçı olmaqdır.

***Seymur ƏLİYEV***

# Azərbaycan xalqı yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur

**Müdrik şəxsiyyət, dünya şöhrətli siyasi xadim, Vətən, xalq qarşısında misilsiz xidmətləri olan ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ölkəmizin hər yerində, eləcə də dünya azərbaycanlılarının yüksək ehtiramı ilə respublikamızın hüdudlarından kənarda da geniş qeyd olunur.**

Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi haqqında Prezident İlham Əliyevin 29 sentyabr 2022-ci ildə imzaladığı sərəncam həm xalqımız, həm də dünya azərbaycanlıları tərəfindən böyük razılıqla qarşılanıb. Çünki bu gün hər bir soydaşımız yaxşı dərk edir ki, hazırda xalqımızın firavan, azad yaşamasının, ölkəmizin beynəlxalq aləmdə sabitlik məkanı kimi tanınmasının, o cümlədən, müstəqil Azərbaycanın adının dünyanın inkişaf etmiş dövlətləri ilə bir sırada çəkilməsinin əsasını ulu öndər Heydər Əliyev qoyub.

Heydər Əliyevin böyük siyasi iradəsi, müdrikliyi, dövlət idarəçiliyindəki zəngin təcrübəsi Azərbaycanın müstəqilliyini əbədiyyətə çevirdi, xalqımızı zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxartdı və hüquqi, sivil, demokratik dövlət quruculuğu istiqamətində qətiyyətlə irəliyə apardı. Sərəncamda da qeyd edildiyi kimi, "Heydər Əliyev öz xalqını müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

SSRİ-nin süqutundan sonra Azərbaycanın dövlət müstəqilliyini bərpa etdiyi dövrü hər kəs yaxşı xatırlayır. Həmin vaxt ölkəyə rəhbərlik edənlərin dövlət idarəçiliyindəki səriştəsizliyi, həm də sovet qayda-qanunlarından ayrıla bilməməsi müstəqilliyimizin qorunub saxlanılmasında və respublikamızın beynəlxalq aləmə inteqrasiyasında ciddi problemlər yaradırdı. Digər tərəfdən, ölkədə hökm sürən özbaşınalıq, kortəbii idarəçilik, məhkəmə-hüquq sistemində mükəmməl qanunların, milli dövlətçiliyimizin möhkəmləndirilməsində qanunvericilik aktlarının olmaması vəziyyəti getdikcə ağırlaşdırırdı. Belə bir vaxtda xalqın yeganə ümid yeri dünya şöhrətli siyasi xadim Heydər Əliyev idi.

Xalqın təkidi ilə siyasi hakimiyyətə qayıdan ulu öndər, ilk növbədə, hüquqi dövlət quruculuğu istiqamətində qarşıya mühüm vəzifələr qoydu. Heydər Əliyev həmin dövrdə müstəqilliyini yenicə bərpa etmiş dövlətin inkişafında zəngin qanunvericilik bazasının yaradılmasını, qanunun aliliyinin təminatını prioritet sayaraq demişdir: "Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir".

Müstəqilliyimizin əbədiyyətə çevrilməsini qarşıya məqsəd qoyan ulu öndər hər bir müstəqil dövlətin konstitusiyasının mövcudluğunu mühüm amillərdən biri hesab edirdi. Ulu öndərin bu məqsədlə əsasını qoyduğu hüquqi islahatlar Azərbaycanda demokratik, sivil dövlət quruculuğu istiqamətində görülmüş işlər dövlət quruculuğunda əsaslı dönüş yaratdı. Artıq yeni Konstitusiyanın qəbul edilməsi zərurəti yaranmışdı. Dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə edən müstəqil Azərbaycanın Konstitusiyası 1995-ci ilin noyabrında ümumxalq səsverməsi – referendum yolu ilə qəbul olundu. Ulu öndər bununla qürur duyduğunu açıq şəkildə bəyan edərək demişdir: "Hesab edirəm ki, biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd – siyasi, hüquqi sənəd yaratmışıq". Təsadüfi deyil ki, Azərbaycan Respublikasının ilk milli Konstitusiyası ümummilli lider Heydər Əliyevin şah əsəri hesab olunur.

Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Bu tarixi sənədin qəbul edilməsi Azərbaycanda hüquqi-demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun, insan hüquq və azadlıqlarının müdafiəsinin təməlini qoydu. Həmin ildən – 1995-ci ildən əfv və amnistiya institutlarının əsası qoyulmuş, indiyədək qəbul olunmuş amnistiya aktları, əfv fərmanları on minlərlə şəxsə tətbiq edilmişdir. Bu gün də dövlətimiz həmin humanizm prinsiplərinə sadiqliyini nümayiş etdirir.



Müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulundan sonra hər bir şəxs qarşısında mühüm bir vəzifə qoyuldu. Ümummilli liderin bu məsələdə mövqeyi qəti idi: "Hər bir şəxs Konstitusiyaya və qanunlara dönmədən əməl etməlidir. Ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələri layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir".

Konstitusiyanın qəbulundan sonra ölkəmizdə hüquqi dövlət quruculuğu prosesində yeni mərhələnin əsası qoyuldu. Ulu öndər Konstitusiyamıza əsaslanaraq və demokratik prinsipləri rəhbər tutaraq, genişmiqyası islahatlara start verdi. Bu məqsədlə 1996-cı ildə özünün rəhbərlik etdiyi Hüquq İslahatları Komissiyasını yaratdı. Müdrik şəxsiyyət hüquqi dövlət quruculuğu istiqamətində məhkəmələrin, hüquq-mühafizə orqanlarının, ümumiyyətlə, ədliyyə sisteminin müasir tələblər səviyyəsində formalaşdırılmasını vacib hesab edirdi. Bir-birinin ardınca qəbul edilən "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" və digər qanunlar, o cümlədən, hüquq sisteminin mahiyyətini müəyyən edən digər qanunvericilik aktlarının da qəbul edilməsində əsas məqsədi bu idi. Məhkəmə-Hüquq Şurasının təsis olunması da ulu öndərin bu istiqamətdə xüsusi önəm verdiyi məsələlərdən idi.

Məhkəmə islahatının ilkin mərhələsində atılmış mühüm addımlar nəticəsində müvafiq qanunvericilik bazası beynəlxalq standartlara uyğunlaşdırılmış, yeni üçpilləli məhkəmə sistemi təsis edilmişdir. Qanunvericilikdə məhkəmə hakimiyyəti müstəqilliyinin və hakimlərin statusunun əsasları, habelə hüquqi dövlətə xas olan ədalət mühakiməsinin prinsipləri müəyyən edilmiş, məhkəmələrin fəaliyyəti üçün zəruri şərait yaradılmış, hakimlərin maddi və sosial təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır.

Ulu öndərin ölkəyə rəhbərlik etdiyi dövrdə ədliyyə sisteminin inkişafı yeni mərhələyə qədəm qoydu. Azərbaycan ədliyyəsinin inkişafının əsaslı dönüş mərhələsi məhz ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonrakı dövrə təsadüf edir. Həmin dövrdə – 1993-2003-cü illərdə hüquqi dövlət quruculuğu prosesində yaxından iştirak edən ədliyyə orqanlarının inkişafı daim diqqət mərkəzində saxlanılmışdır. Bu istiqamətdə qəbul olunan qanunlar Ədliyyə Nazirliyinin fəaliyyət dairəsini daha da genişləndirmiş, cəmiyyətdəki rolunu əhəmiyyətli dərəcədə artırmışdır. Ulu öndərin diqqət və qayğısı sayəsində ədliyyə fəaliyyətinin yeni qanunvericiliyin tələbləri səviyyəsində qurulması məqsədilə müvafiq struktur dəyişiklikləri də aparılmışdır. Nəticədə yeni qurumlar yaradılmış, onların işinin təşkili üzrə zəruri tədbirlər görülmüşdür.

Bir əsrdən çox fəaliyyəti olan ədliyyə sistemi bu gün özünün yeni inkişaf mərhələsini yaşayır. Bu inkişafın əsası ulu öndər tərəfindən qoyulub. Heydər Əliyevin 2000-ci ildə imzaladığı sərəncamla hər il 22 noyabr Ədliyyə işçilərinin peşə bayramı kimi qeyd edilir.

Yeri gəlmişkən, bir faktı da xüsusi qeyd etmək istərdik. Bu gün Azərbaycan ədliyyəsinin beynəlxalq əlaqələri xeyli dərəcədə genişləndirilib və daha da möhkəmləndirilib. Ulu öndərin siyasi kursuna bütün sahələrdə sadiqlik göstərən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ilədək müddətdə Azərbaycan ədliyyəsinin inkişafı üçün əsaslı islahatlar davam etdirilib. Xüsusilə qeyd edilməlidir ki, müasir informasiya-kommunikasiya sistemlərinin tətbiqi nəticəsində ədliyyə orqanlarının fəaliyyətində şəffaflıq artıb, vətəndaşlara mülki hüquq münasibətlərindən irəli gələn məsələlərin həlli üçün geniş imkanlar yaradılıb. Eyni zamanda, ədliyyə sisteminin fəaliyyəti beynəlxalq normalara uyğunlaşdırılıb, mükəmməl normativ-hüquqi bazası yaradılıb.

Azərbaycanın beynəlxalq aləmə inteqrasiyasını daha da sürətləndirmək üçün insan hüquq və azadlıqlarının müdafiəsi xüsusi önəm daşıyırdı. Bu məsələ ulu öndərin siyasi hakimiyyətə qayıdışının ilk günlərindən qarşıya qoyduğu prioritet vəzifələrdən idi. Ümummilli lider hələ 1993-cü ildə ölüm cəzasının icrasına veto qoymuşdu. 1998-ci ildə isə Şərqdə ilk dəfə olaraq, Azərbaycanda bu cəza növü tamamilə ləğv edildi. Ulu öndərin 1998-ci ildə imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanda bu sahədə həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası müəyyən edildi. Bundan sonra insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılırdı. Heydər Əliyev 1993-2003-cü illərdə 32 əfv, 8 amnistiya aktı imzalamaqla humanizm prinsiplərinə sadiqliyini nümayiş etdirdi. Bu, həm də Azərbaycan dövlətinin humanizm prinsiplərinə verdiyi dəyərin göstəricisidir. Məhz ulu öndərin respublikaya rəhbərliyi dövründə ölkəmizdə insan haqlarının müdafiəsinə dair mühüm normativ aktlar qəbul olundu.

Heydər Əliyev ölkəyə rəhbərliyi dövründə hüquqi, sivil, demokratik dövlət idarəçiliyinin yaradılması istiqamətində bütün imkanlardan yetərincə istifadə edib. Zaman keçdikcə bu sahədə böyük uğurlar qazanıldı. Azərbaycanın dünyanın inkişaf etmiş dövlətləri ilə bir sırada addımlamasının əsası həmin dövrdə qoyulub. 2020-ci il noyabrın 10-da Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman ordumuzun Ermənistanın 30 illik işğalçılıq siyasətinə son qoymasının da əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Bu uğurlu siyasi kursun nəticəsidir ki, bu gün Azərbaycan dünyada qalib ölkə kimi tanınır. Otuz il Ermənistanın işğalı altında qalmış ərazilərimizdə bu gün Azərbaycan Bayrağının dalğalanması hər bir soydaşımızı qürurlandırır. Bu, həm də dünyaya "Qarabağ Azərbaycandır!" mesajının verilməsidir. Yeri gəlmişkən, həmin ərazilərdə hazırda aparılan genişmiqyaslı yenidənqurma, bərpa-quruculuq işlərinə dünyanın əksər dövlətləri də qoşulub. Bu, dünya birliyinin bir daha Azərbaycanın ərazi bütövlüyünü tanımasından xəbər verir.

Qürurla qeyd etmək istərdim ki, bir neçə gün əvvəl Milli Məclisdə "Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi qəbul olunub. Yubiley medalının təsis edilməsi Azərbaycan xalqının ümummilli lideri, müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin əziz xatirəsinə verilmiş dəyərli bir töhfə və yüksək qiymətdir.

***Səadət İSMAYILOVA,***
***Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Nərimanov Rayon Qeydiyyat Şöbəsinin rəisi, ədliyyə müşaviri, hüquq üzrə fəlsəfə doktoru***

# Xalqımızın inam və qürur mənbəyi

**Mayın 10-u xalqımız üçün əlamətdar gündür. Bu gün biz azərbaycanlılar üçün artıq simvollaşıb, tarixləşib. Çünki zəmanəmizin ən böyük şəxsiyyəti, Azərbaycanın görkəmli ictimai-siyasi və dövlət xadimi, xalqımızın dahi oğlu və böyük öndəri Heydər Əlirza oğlu Əliyev məhz 100 il öncə – mayın 10-da anadan olmuşdur. O böyük insan XX-XXI əsrlərin canlı əfsanəsi idi. Tarix dəfələrlə sübut etmişdir ki, ulu öndər böyük iradə və qətiyyət sahibi, təkrarsız şəxsiyyət olmaqla ən çətin vəziyyətdən belə çıxmaq üçün düzgün yol tapmağı bacarırdı. Ona görə də həmişə başladığı işi uğurla sona çatdırırdı.**

Heydər Əliyevin ömür yolu, işıqlı ideallara Vətənə və millətə təmənnasız xidmətin parlaq nümunəsidir. Bu gün hər bir Azərbaycan vətəndaşının qəlbində ümummilli liderimizin ölməz, işıqlı obrazı yaşayır. Zaman ötdükcə Heydər Əliyev dühasının əzəməti daha aydın hiss olunmaqdadır.

Həqiqət budur ki, öz xalqını, Vətənini, torpağını sevən insanlar müqəddəs zirvələrə ucala bilirlər. Məhz ona görə də xalqın hörmət və məhəbbətini qazanmaqdan böyük xoşbəxtlik ola bilməz. Ümummilli liderimiz öz xalqına xidmət etmiş və bu xalqa xeyir verməklə milyonlarla insanın qəlbində əbədi yaşayır.

Heydər Əliyevi ümummilli lider məqamına yüksəldən keyfiyyətlərdən birincisi onu xalqına bağlayan qırılmaz tellər idi. O, heç zaman özünün dediyi kimi, nə yüksək dövlət vəzifəsinin imkan verdiyi şəraitdə, nə də Naxçıvanda yaşadığı dövrdə xalqından uzaq düşmədi. Onunla birgə oldu, yaxşı günündə də, yaman günündə də. Azərbaycanlı olmağı ilə həmişə fəxr edən böyük öndərimiz bütün ömrünü xalqının rifahına, ölkəsinin tanınmasına, onun güclü dövlət olmasına sərf etdi. Bundan heç vaxt yorulub-usanmadı, bədxahların əməllərinə, böhtanlarına əhəmiyyət vermədi, xalqa xidməti hər şeydən uca tutdu. Güclü və yenilməz bir dövlət qurdu.

Heydər Əliyev bəşər övladının tuta biləcəyi ən yüksək mövqeyin fövqündə xalq sevgisi qazanaraq, ümummilli liderə çevrildi.

Onun ən böyük dahiyanə əsəri isə hər bir ölkə vətəndaşının, eləcə də dünyada yaşayan milyonlarla azərbaycanlının doğma Vətəni – müstəqil Azərbaycan dövləti oldu.

Heydər Əliyev birinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövrə qədər Azərbaycan geridə qalmış aqrar respublika idi. Zəngin təbii sərvətləri olan xalq ehtiyac içində yaşayırdı. Ulu öndər respublika rəhbəri seçiləndən sonra – qısa müddətdə hər şey dəyişdi. Hara baxırdınsa, həyat qaynayırdı. Bir neçə ildə bölgələrdə insanların yaşayış şəraiti yaxşılaşdı, rayonların büdcələrinə xeyli vəsait toplandı. Bu vəsaitlər insanların rifahının yaxşılaşmasına və sosial problemlərin həllinə yönəldildi. O illər uzaq tariximiz deyil. Həmin islahatları həyata keçirən insanların çoxu müasirlərimizdir.Azərbaycanın elə bir şəhəri, qəsəbəsi, kəndi yox idi ki, orada tikinti-quruculuq işləri aparılmasın, məktəblər, xəstəxanalar, yaşayış binaları tikilməsin.

Ulu öndər Azərbaycanın gələciyini, müstəqilliyini düşünərək SSRİ rəhbərliyi qarşısında təkidli tələblər irəli sürür, nəticədə strateji əhəmiyyətli bir sıra sənaye və istehsal müəssisələrinin respublikada inşasına nail olurdu. "Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır" – deyən Heydər Əliyevin Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə təhsil, səhiyyə, mədəniyyət, incəsənət və milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı sahəsində də ciddi və əhəmiyyətli addımlar atıldı.

Ümummilli liderin Azərbaycanın gələcəyinə ünvanlanmış layihələrinin əsas istiqamətlərindən biri də təhsil və hərbi potensialın yaradılması idi. Təhsil sahəsində çox böyük uğurlar qazanıldı. Hər il yüzlərlə gənc başqa şəhərlərə ən yüksək təhsil almaq üçün oxumağa göndərildi. Azərbaycanda ali təhsil ocaqlarının sayı artırıldı.

Heydər Əliyev sovet dövründə, dəqiq desək, 1971-ci ildə Azərbaycanda milli zabit hərbi kadrları hazırlayan təhsil müəssisəsinin – general Cəmşid Naxçıvanskinin adını daşıyan hərbi məktəbin açılmasına nail olmuşdu.

Qeyd etmək lazımdır ki, digər müttəfiq respublikaların heç birində hərbi ixtisaslaşmış orta məktəb yox idi. Bu, H.Əliyevin tarixi xidmətlərindən biridir. Hazırda ordumuzun 50-60 faizi həmin məktəbin yetirmələridir.

Sözsüz ki, bu fəaliyyətin ən əhəmiyyətli hissəsini ulu öndərin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövr təşkil edir. 1993-cü il iyunun 15-də Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı Milli Qurtuluş Günü, xalqımızın nicatının başlanğıcı oldu. Təcrübəli siyasətçi və dövlət xadimi Heydər Əliyev öz nüfuzuna, bacarığına və xalqına arxalanıb insanları azərbaycançılıq, müstəqil dövlətçilik və demokratik ideyalar ətrafında birləşdirib yeni dövlət quruculuğuna başladı. Ulu öndərin həyata keçirdiyi uzaqgörən siyasət nəticəsində ölkədə ictimai-siyasi sabitlik yarandı, həyatın bütün sahələrini bürümüş tənəzzülə son qoyuldu. Ona görə də Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə qayıtması tarixi zərurətin, sabitlik, ədalət intizarında olan milyonlarla insanın çağırışının gürçəkləşməsi idi. "Mən Azərbaycanın müstəqilliyini Azərbaycan xalqı üçün böyük nəaliyyət hesab etmişəm və bu müstəqilliyin əldə olunmasına xidmət etmişəm. Bundan sonra ömrümün qalan hissəsini də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, inkişaf etməsinə sərf edəcəyəm ". Ümummilli lider hakimiyyətə bu sözlərlə qayıtmışdı və ömrünün sonunadək bu vədinə sadiq qaldı.

Ulu öndər onu da yaxşı bilirdi ki, xalqın siyasi müstəqilliyinin təməlini məhz onun iqtisadi azadlığı şərtləndirir. Bu baxımdan, qısa müddətdə ölkədə mədəni və mənəvi intibahı təmin etdi.

Mühüm məsələlərdən biri də ölkənin sərvətlərinin başlı-başına qalması, talanması idi. Digər tərəfdən dənizin və yerin təkindəki sərvətlərdən səmərəli istifadə edilməli, xalqın sərvətinə çevrilməliydi ki, inkişafa, rifaha nail olunsun. Bunun üçün böyük öndər çox ciddi müqavimətləri dəf edərək "Əsrin müqaviləsi "ni reallaşdırdı. Əfsanə sayılan Bakı–Tbilisi–Ceyhan neft və Tbilisi–Ərzurum qaz kəməri layihələrinin tam reallığa çevrilməsi ümummilli liderimizin uzaqgörənliyinin, qətiyyətinin, zəkasının, müdrikliyinin və böyük siyasətinin nəticəsi idi. Bu, adi saziş deyildi – Bu, iqtisadi inkişafımızın təməli, müstəqilliyimizin təminatı idi.

Azərbaycanın düşmənləri ölkəmizin iqtisadiyyatına ciddi zərbələr vurmaq üçün dəridən-qabıqdan çıxdıqları bir vaxtda böyük siyasi xadim tarixi İpək yolunun bərpası məsələsini qaldırdı. Şərqlə Qərbi birləşdirən ən səmərəli yol elə tarixi İpək yoludur. O, dünya dövlətlərini özünəməxsus "dəmir" məntiqlə inandırdı. Onların elmi institutlarının on illərlə işləyib həll edə bilmədiyi problemlərin Heydər Əliyev Bakıda keçirilən bir beynəlxalq konfranda söylədiyi çıxışında elmi əsaslarla şərhini verdi. Dünya bunun şahididir. Dünya siyasətçiləri bunu yüksək qiymətləndirirlər. Gizli deyil ki, ermənilər də bu siyasətin uğuru qarşısında təlaş keçirməyə başlamışdılar.

Cəsarətlə demək olar ki, 1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 nüfuzlu təşkilatın nümayəndələrinin iştirakı ilə Bakıda keçirilən Beynəlxalq konfrans bütün varlığı dövründə Azərbaycanın xarici siyasət tarixinin ən böyük hadisələrindən biridir. Böyük İpək Yolunun dirçəldilməsi təkcə Azərbaycanın deyil, Türk dünyasının və Avropa – Asiya dövlətlərinin dirçəlişində, onun iqtisadi-mənəvi oyanışında misilsiz rol oynamışdır.

Azərbaycan xalqının taleyi ilə aparılan pərdəarxası oyunlara, siyasi anarxiya və eksperimentlərə Heydər Əliyevin rəhbərliyi altında son qoyulmuş, ölkədə cinayətkarlığın qarşısı tam alınmış, qanunsuz silahlı dəstələr ləğv olunmuşdu. Bunlar da, bütövlükdə, Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması üçün şərait yaratmışdı.

Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü ilin oktyabr və 1995-ci ilin mart dövlət çevrilişinə cəhdlərin qarşısı Heydər Əliyevin qətiyyəti sayəsində alınmış, dövlət müstəqilliyi qorunub saxlanmışdı.

Ulu öndərin qurduğu Azərbaycan tərəqqiyə və inkişafa istiqamət götürüb irəliləyirdi. Böyük realist və praqmatik siyasətçi olan Heydər Əliyev isə insan üçün əbədi olmayan dünyanın təbii qanunlarına bələd idi. Elə bu səbəbdən də müstəqilliyinin ən məsul dövründə olan Azərbaycanı xoşbəxt gələcəyə aparacaq liderin kim olacağı sualı onu çox düşündürür və narahat edirdi. O, bu məsələni həll etməli idi. Bu, Vətənə xidmətin ən ali nümunəsi idi və Heydər Əliyev bunu özünə müqəddəs borc bilirdi. Heydər Əliyev o vaxtlar hökumətə uğurla rəhbərlik edən İlham Əliyevin üzərində dayandı və doğma xalqına müraciət ünvanlayaraq yazırdı : "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm ".

Tarix bu böyük dahinin uzaqgörənliyini bir daha təsdiqlədi. Bunun təsdiqi üçün elə də böyük bir vaxt lazım gəlmədi. Çünki İlham Əliyev millət atasının missiyasını davam etdirməyin sirrini çox gözəl bilirdi. Prezident İlham Əliyev qısa bir müddətdə uğurlara imza atdı və ən böyük uğuru isə 44 günlük Vətən müharibəsində əldə edilən Qələbəmiz oldu. İgidlərimizin uca zirvələrə sancdığı üçrəngli Qələbə bayrağı işğal olunmuş torpaqlarımızın hər bir yerində qürurla dalğalanaraq, bu torpaqların kimə məxsus olduğunu düşmənlərimizə və dünyaya əminliklə bir daha çatdırdı. Bu möhtəşəm Qələbə Vətənimizin hər bir övladına əbədi bir qurtuluş baharı, azərbaycanlı olmaq ucalığı və şərəfi bəxş etdi. O uğurlar böyük qələbələrin estafeti kimi bu gün də davam edir və xalqımızı xoşbəxt gələcəyə doğru aparır.

***Vətən HÜSEYNOV,***
***Binəqədi rayonu 3 saylı tam orta məktəbin tarix müəllimi***

2 may 2023-cü il, çərşənbə axşamı Xalq qəzeti

# Azərbaycanda meliorasiya və su təsərrüfatı sisteminin inkişafı ulu öndərin adı ilə bağlıdır



**Zaman ötdükcə Heydər Əliyevin yaratdığı irsin, onun ideyalarının dəyərini, bu şəxsiyyətin əzəmətini daha aydın anlayırıq. Ulu öndərin əziz xatirəsi xalqımızın qəlbində daim yaşayır, onun siyasi həyat yolu, fəaliyyəti tariximizin və xalqımızın yaddaşına əbədi həkk edilibdir. “Meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik” sözlərini tarixə yazmış Heydər Əliyev Azərbaycanın meliorasiya və su təsərrüfatı kompleksinin yaradıcısı, müəllifi və təşkilatçısıdır. Onun uzaqgörənliklə meliorasiya və su təsərrüfatı sahəsində irəli sürdüyü ideyalar bu gün də xalqımızın maddi-rifah halının yaxşılaşdırılmasında mühüm rol oynayır.**

Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətini zamanın ən çətin sınaqlarından çıxararaq ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmuş qüdrətli şəxsiyyətdir. Azərbaycanın müasir tarixinin taleyüklü hadisələrlə dolu olan otuz ildən artıq bir dövrü məhz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Ulu öndərimizin hakimiyyətdə olduğu 1969-1982-ci və 1993-2003-cü illər Azərbaycanın, sözün həqiqi mənasında, çiçəkləndiyi, hərtərəfli inkişaf dövrü olmuşdur.

Azərbaycanın siyasi və iqtisadi müstəqilliyinin təməl daşları hələ Heydər Əliyevin respublikamıza birinci rəhbərliyi dövründə qoyulmuşdu. Müstəqillik illərində isə məhz ulu öndərimizin gərgin və titanik səyləri, düşünülmüş müdrik siyasi kursu sayəsində Azərbaycan nəinki öz suverenliyini qoruyub saxlamış, inkişaf etdirmiş, dünyanın qüdrətli dövlətləri səviyyəsinə yüksəltmişdir.

Hələ ötən əsrin 60-cı illərinin sonlarında ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi rəhbərliyə irəli çəkilməsi ilə xalqımız tarixən formalaşmış zəngin dövlətçilik ənənələrini üzə çıxarmaq, gələcək müstəqilliyinə etibarlı zəmin yaratmaq şansı qazanmışdır. Ümummilli lider ölkə rəhbərliyinə gəlişinin ilk illərindən etibarən mərkəzin ideoloji maneələrini aradan qaldırmaqla xalqın daşlaşmış milli şüurunu oyatmağa, milli müstəqillik duyğularını gücləndirməyə çalışmışdır. Ulu öndərin vətənpərvər fəaliyyətinin nəticəsi olaraq həmin dövrdə ictimai şüurdakı istiqlal duyğuları aşkara çıxaraq yeni siyasi məzmun kəsb etməyə başlamış, respublikada milli ruhlu ziyalı təbəqəsi formalaşdırmışdır.

Azərbaycan xalqı özünün müstəqil inkişaf yolunda məhz ulu öndər Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə əsası qoyulmuş zəngin iqtisadi-siyasi, mənəvi və intellektual potensiala istinad etmişdir.

Dahi şəxsiyyət və böyük strateq bu reallığı da yaxşı bilirdi ki, xalqın siyasi müstəqilliyinin təməlini məhz onun iqtisadi azadlığı şərtləndirir. Təsadüfi deyil ki, 1969-1982-ci illərdə iqtisadi həyatın bütün sahələrində baş vermiş köklü dəyişikliklər miqyasına görə Azərbaycanın şanlı quruculuq salnaməsinin ən dolğun, şərəfli səhifələrini təşkil edir. Müstəqil Azərbaycanın keçid dövrünü başa vuraraq dünya iqtisadiyyatına sürətlə inteqrasiya edən qüdrətli dövlətə çevrilməsinin hazırkı möhkəm təməli də məhz Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə formalaşdırdığı güclü iqtisadi bünövrəyə söykənir. Ulu öndər ölkənin gələcəyini, müstəqilliyini düşünərək keçmiş SSRİ rəhbərliyi qarşısında təkidli tələblər irəli sürmüş, strateji əhəmiyyətli bir sıra sənaye və aqrar-sənaye, istehsal müəssisələrinin respublikada inşasına nail olmuşdur.

Keçmiş Sovetlər İttifaqı kimi böyük bir dövlətin zəngin iqtisadi potensialından və geniş imkanlarından istifadə edərək respublikanı tərəqqi yoluna çıxaran Heydər Əliyevin rəhbərliyi altında yeni, mütərəqqi sənaye, kənd təsərrüfatı sahələrinin yaradılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Həmin illərdə respublikanın bütün bölgələrinin inkişafı, istehsalla bilavasitə bağlı elmi-tədqiqat sahələrinin genişləndirilməsi sahəsində kompleks tədbirlər görülmüş, elmi-texniki tərəqqinin nailiyyətləri, mütərəqqi texnologiyaların istehsalatda tətbiqi Azərbaycanın İttifaq miqyasında öncül mövqelərə çıxmasına və sosial-iqtisadi həyatında yüksəlişinə təkan vermişdir.

Ulu öndər Azərbaycanın işıqlı və parlaq gələcəyini görür, xalqımızı buna hazırlayır, respublikanın iqtisadi potensialını gücləndirirdi. O illərin canlı şahidi olan orta və yaşlı nəslin nümayəndələrinin yaxşı xatirindədir ki, Azərbaycan bütün sahələrdə sıçrayışa necə sürətlə nail olmuşdur. Müstəqil dövlət quruculuğuna ünvanlanan yol, əslində, 1969-cu ildən – Heydər Əliyevin respublika rəhbəri seçildiyi vaxtdan başlanmışdır.

Belə ki, 1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçilən Heydər Əliyev heç bir ay keçməmiş Mərkəzi Komitənin avqust plenumunu keçirmiş, iqtisadiyyatı zəif vəziyyətdə olan respublikanı dircəltmək üçün qarşıda duran vəzifələri müəyyənləşdirmişdir.

Fəxarətlə onu qeyd etmək yerinə düşərdi ki, 1970-ci ilə qədər kənd təsərrüfatının inkişafı sahəsində müttəfiq respublikalar arasında ən axırıncı yerlərdən birini tutan Azərbaycan, 1970-ci illərdə geniş islahatların keçirilməsi əsasında inkişaf etmiş aqrar ölkəyə çevrilmişdir.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəldiyi vaxtdan Azərbaycanın kənd təsərrüfatında, sənayesində, ümumiyyətlə, iqtisadiyyatın bütün sahələrində xüsusi canlanma başlanmış, ölkənin kənd təsərrüfatının inkişaf etdirilməsi haqqında bir neçə tarixi qərar qəbul edilmişdir. Bunlardan “Azərbaycanda kənd təsərrüfatının inkişaf etdirilməsi tədbirləri haqqında” (1970-ci il), “Azərbaycanda kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında” (1975-ci il), “1976-1980-ci illərdə torpaqların meliorasiyası və meliorasiya olunmuş torpaqların istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında” (1976-cı il) və “Azərbaycanda kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında” (1979-cu il), Bakı şəhərinin və Abşeron yarımadasının su təminatının yaxşılaşdırılması ilə bağlı Kür su kəmərləri sistemlərinin tikilib istifadəyə verilməsi haqqında (1970-ci il) qərarları xüsusi əhəmiyyət kəsb edirdi. Bu qərarlarda Azərbaycanda kənd təsərrüfatı istehsalının yüksəldilməsi, ixtisaslaşdırılması, əhalinin içməli və sənayenin texniki suya olan tələbatının ödənilməsi üçün respublika iqtisadiyyatının dinamik inkişaf proqramları qəbul olunmuşdur.

Məhz yuxarıda göstərilən qərarların qəbul edilməsinə nail olan ulu öndər Heydər Əliyev 1969-1982-ci illərdə respublikamıza rəhbərlik etdiyi dövrdə meliorasiya və su təsərrüfatı kompleksinə ittifaq büdcəsindən 2,5 milyard manatdan artıq vəsait yönəldilməsinə nail olmuşdur ki, bu da Sovet hakimiyyəti dövrünün 50 ili ərzində bu sahəyə qoyulan vəsaitdən 2 dəfə çox idi.

Həmin dövrləri yaşayan və canlı şahidi olan şəxslər bilirlər: həyatımızın elə bir sahəsi yox idi ki, bu dahi şəxsiyyət onunla maraqlanıb, ortaya çıxan problemləri yoluna qoymasın. Elə götürək, meliorasiya və irriqasiya sahəsini. Ölkəmizdə bu sahədə işlərə keçən XIX əsrin əvvəllərində başlanılmasına baxmayaraq, onun geniş miqyasda intensiv inkişafı 1969-1982-ci illərə, yəni unudulmaz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk dövrə təsadüf edir.

Respublika kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasına, meliorasiya və su təsərrüfatı sahəsini inkişaf etdirmədən müvəffəq olmağın mümkünsüzlüyünü göstərən Heydər Əliyev daim bu sahəyə diqqət yetirmiş və şəxsən onun qayğısı sayəsində 1971-1975-ci illərdə meliorasiya işlərinə 580 milyon manatdan artıq vəsait xərclənib ki, bu da 1966-1970-ci illərdəkinə nisbətən iki dəfə çox idi. Bu müddətdə 23,5 min hektar yeni suvarılan torpaqlar istifadəyə verilmiş, 156,8 min hektar suvarılan torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmış, 88 min hektar sahədə torpaqların yuyulması, 110,3 min hektar sahədə suvarma şəbəkələrinin yenidən qurulması və su təchizatının yaxşılaşdırılması, 133,2 min hektar sahədə hamarlama işlərinin aparılması təmin olunmuş, 248,6 min hektar qış otlaq sahələrində su təminatı sistemləri inşa edilmişdir.

Eyni zamanda, bu illər ərzində bir sıra iri irriqasiya və meliorasiya obyektləri, o cümlədən Araz çayı üzərində həcmi 1 milyard 350 milyon kubmetr olan Araz su anbarı elektrik stansiyası ilə birlikdə, İran İslam Respublikası və Azərbaycan Respublikasının ərazilərində 400 min hektar sahəni suvaran Mil-Muğan hidroqovşağı, Baş Mil kanalı, Yuxarı Mil və Yeni Xan qızı kanalları, Naxçıvan MR-də 6 min hektar sahəni suvaran üçpilləli Qaraçuq və ikipilləli Arpaçay nasos stansiyaları, Naxçıvan suvarma sistemi, Abşeron suvarma sistemi, Qusar rayonunda Caqar-Cibir magistral kanalı, Şamaxı rayonunda həcmi 3,5 milyon kubmetr olan Zaqolovoçay su anbarı, Lənkərançay su qovşağı, Mərkəzi Muğan və Cənubi-Şərqi Şirvan qış otlaqlarının su təminatı sistemləri və s. obyektlər tikilib istismara verilmişdir.

Azərbaycanda infrastruktur layihələrinin böyük bir hissəsi Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi illərdə həyata keçirilib. İstər sovet dönəmində, istərsə də müstəqillik illərində içməli su təchizatı sistemlərinin yaradılması və inkişafı ulu öndərin diqqət və həssaslıqla yanaşdığı məsələlərdən biri olub. Əhalinin su təminatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına, sənayenin, kənd təsərrüfatının suya olan tələbatının ödənilməsinə yönəlmiş layihələrin böyük bir hissəsinin icrasına məhz ümummilli liderin Azərbaycan rəhbərliyinə gəlməsindən sonra başlandı.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1970-ci il iyunun 10-da keçirilən iclasında Heydər Əliyevin Kür su kəmərinin birinci növbəsinin istifadəyə verilməsinin sürətləndirilməsi ilə bağlı verdiyi tapşırıqlardan sonra tikintidə ciddi dönüş yarandı. Azərbaycanın iri tikinti təşkilatlarının bu vacib işə səfərbər edilməsi və İttifaq respublikalarından lazımi materialların təchizatı təmizləyici qurğunun və magistral kəmərlərin tikintisini sürətləndirdi. Müxtəlif müəssisə və təşkilatların inşaat işlərinə cəlb edilməsi layihəni “ümumxalq tikintisi”nə çevirdi. Məhz bunun nəticəsi idi ki, 30 ayda görüləsi işlər qısa müddətdə yerinə yetirildi.

1970-ci il sentyabrın 27-də Kür su kəmərləri sisteminin birinci növbəsi istifadəyə verildi. Tikinti sahəsində toplanmış zəngin təcrübə Kür su kəmərinin ikinci hissəsinin tikintisini qısa müddətdə başa çatdırmağa imkan yaratdı. Heydər Əliyevin rəhbərliyi ilə 1971-ci il sentyabrın 15-də ikinci Kür-Bakı magistral kəməri istifadəyə verildi. O dövr üçün zərbəçi tikinti elan olunmuş kompleksin və magistral kəmərlərin istifadəyə verilməsi Abşeron yarımadasına saniyədə 3,5 kubmetr içməli suyun nəqlinə imkan yaratdı.

Ötən əsrin 70-ci illərində Bakı şəhərində və bütövlükdə, Azərbaycanda genişmiqyaslı quruculuq işləri həyata keçirilmişdir. Bakı və Sumqayıt şəhərlərində İttifaq əhəmiyyətli bir sıra sənaye obyektlərinin istifadəyə verilməsi və yeni yaşayış massivlərinin salınması Abşeron yarımadasında içməli və texniki suya tələbatı daha da artırmışdır. Kür su kəmərlərinin birinci növbəsi artan tələbatı ödəmədiyindən yenə də su çatışmazlığı müşahidə olunurdu. Heydər Əliyev nüfuzundan istifadə edərək Kür su təchizatı sistemlərinin tikintisinin davam etdirilməsinə razılıq alır. 1978-1987-ci illərdə Kür su kəmərlərinin 2-ci və 3-cü növbələrinin inşası nəticəsində təmizləyici qurğuların emal, magistral kəmərlərin nəqli gücü artırılaraq, saniyədə 9,5 kubmetrə və ya sutkada 820 min kubmetrə çatdırılır. Bununla da yeni salınmış 8-ci Kilometr, Günəşli və Əhmədli yaşayış massivlərində, mikrorayonlarda, eləcə də sənaye müəssisələrində müşahidə olunan su qıtlığı aradan qaldırılır. Eyni zamanda, Bakı şəhərinin su təchizatında müstəsna əhəmiyyət daşıyan mərkəzi su anbarları tikilərək istifadəyə verilmiş, yeni supaylayıcı şəbəkələr qurulmuşdur. Ulu öndərin “Bakını yaşıllıqlar diyarına çevirək” çağırışı və təşəbbüsü yeni parkların, xiyabanların və yaşıllıq zolaqlarının salınması ilə nəticələnmişdir.

Abşeron yarımadasının içməli su təchizatında mühüm əhəmiyyət daşıyan Ceyranbatan sutəmizləyici qurğular kompleksinin üçüncü mərhələsinin inşasında da ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri olub. 1978-ci ildə işə salınan üçüncü növbə də daxil olmaqla Ceyranbatan sutəmizləyici qurğularının məhsuldarlığı saniyədə 7,5 kubmetrə çatdırılmışdır.

Respublikanın şəhər və rayon mərkəzlərində mərkəzləşdirilmiş içməli və tullantı su sistemlərinin yaradılması 1970-80-ci illərdə ulu öndərin bilavasitə rəhbərliyi ilə həyata keçirilmişdir.

Ötən əsrin ikinci yarısında Bakı şəhərinə verilən suyun həcminin xeyli artması, yeni yaşayış massivlərinin salınması tələbatı qarşılayacaq kanalizasiya infrastrukturunun yaradılmasını zəruri edirdi. Bunlar əsas götürülməklə 1970-ci ildə 2000-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla paytaxtın “Böyük kanalizasiya” layihəsi işlənib hazırlanmışdır. Bu layihə çərçivəsində 4 mərkəzi nasos stansiyası, “Sənaye zonası”, “Şəhərkənarı” və “Sahil” kollektorları tikilib istifadəyə verilir. Tullantı sularının təmizlənib zərərsizləşdirilməsi məqsədilə Cənubi Qafqazın ən böyük tullantı sutəmizləyici qurğusu – Hövsan Aerasiya Stansiyası inşa edilmişdir.

1976-1982-ci illərdə Heydər Əliyevin xüsusi diqqət və qayğısı nəticəsində su təsərrüfatı və meliorasiya tikintisi, torpaq fondunun sağlamlaşdırılması və suvarma-drenaj sistemlərinin yenidən qurulması sahəsində aparılan işlərin miqyası daha da genişləndirilmişdir. Bu illərdə meliorasiya tədbirlərinə yönəldilən vəsaitin həcmi 1971-1975-ci illərdəkinə nisbətən 2,4 dəfə artmış və 1 milyard 382 milyon manata çatmışdır. Eyni zamanda, 89,6 min hektar yeni suvarılan torpaqlar istifadəyə verilmiş, 605 min hektar sahədə suvarma sistemləri yenidən qurulmuş, 137 min hektar torpaq meliorativ cəhətdən yaxşılaşdırılmış, 274,4 min hektar sahədə əsaslı hamarlama işləri aparılmışdır.

Ümumiyyətlə, ulu öndərimiz Heydər Əliyevin bilavasitə rəhbərliyi və köməyi ilə 1969-1982-ci illərdə respublikada iri su təsərrüfatı obyektləri, o cümlədən Viləşçay su anbarı sağ sahil kanalı ilə birlikdə, Cənubi Muğan kanalının maşın qolu, Şəmkir maşın kanalı, Sərsəng su anbarı, Suqovuşan su anbarı, Arpaçay su anbarı və magistral kanallar, Sirab su anbarı, Aşağı Köndələnçay su anbarı, Yuxarı Xanbulançay su anbarı kompleksi, Şəmkir su anbarı, Əyriçay su anbarı, Coqazçay su anbarı və digər obyektlər tikilib istismara verilmişdir. 200 min hektara yaxın yeni suvarılan torpaqlar kənd təsərrüfatı dövriyyəsinə qaytarılmış, 400 min hektara yaxın suvarılan torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmış, 825 min hektar sahədə suvarma sistemləri yenidən qurularaq onların su təminatı artırılmış, 460 min hektar sahədə əsaslı hamarlama və 150 min hektara yaxın sahədə əsaslı yuma işləri aparılmış, texniki cəhətdən mükəmməl irriqasiya və meliorasiya sistemləri yaradılmışdır.




Müdrik və uzaqgörən rəhbər Heydər Əliyev Azərbaycanda su təsərrüfatı kompleksinin yaradıcısı, görülmüş əzəmətli işlərin və əldə edilmiş inqilabi dəyişikliklərin həm müəllifi, həm də təşkilatçısı olmuşdur. Onun respublikamıza rəhbərliyi dövründə meliorasiya fondu 2 dəfə, suvarılan torpaqların ümumu sahəsi isə 1,5 dəfədən çox artmış, bu sahədə görülən tədbirlərin nəticəsi olaraq 1980-ci ildə 1970-ci ilə nisbətən respublikada kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 2,2 dəfə, taxıl istehsalı 2,1, pambıq 2,6, üzüm 4,6, tərəvəz və tütün 2,3, meyvə 4,4, çay yarpağı 2,2, mal-qara quş 1,4, süd 1,8 dəfədən çox artmışdır.

Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanın kənd əməkçilərinin on dərd dəfə Ümumittifaq sosializm yarışında qalib gəlməsi və beləliklə, Sovet İKP MK-nin, SSRİ Nazirlər Sovetinin və SSRİ Həmkarlar İttifaqları Təşkilatının Keçici qırmızı bayrağına layiq görülməsi həmin dövr üçün görünməmiş hadisələrindən sayılırdı. Məhz bunun sayəsində Azərbaycana Ümumittifaq fondundan yüksək məbləğdə vəsait ayrılır, ölkənin maddi-texniki təminatı yaxşılaşdırılır, bütövlükdə, əhalinin güzaranı əsaslı şəkildə yüksəlirdi.

Ulu öndər Heydər Əliyev yeniliyin, mütərəqqi təcrübənin, milli və ümumbəşəri dəyərlərin tərəfdarı kimi mahir dövlət idarəçisi, islahatçı təfəkkürə malik böyük şəxsiyyət idi. Bütün bu yüksək şəxsi keyfiyyətlər ona Azərbaycanı keçmiş Sovet İttifaqında müttəfiq respublikalar arasında ön yerlərdən birinə çıxarmağa imkan vermişdi. Qısa zaman kəsimində görülmüş nəhəng işlər, xarakterindəki bütövlük, qətiyyət, mətin iradə, qeyri -adi zəka, tükənməz enerji, vətənpərvərlik, millət sevgisi xalqın gözündə Heydər Əliyevin xilaskar obrazını yaratdı. Ulu öndər Azərbaycanın gələcəkdə müsəqillik qazanacağını irəlicədən dərk etdiyindən respublikanın iqtisadi, sosial, mədəni potensialını müdrikliklə səfərbər edirdi. Onun milli kadr hazırlığına, gənclər siyasətinə xüsusi diqqət yetirməsi, milli təəssübkeşlik, xalq qarşısında misilsiz xidmət nümunəsi idi.

Tarixçilər etiraf edirlər ki, Heydər Əliyevin 1982-ci ildə keçmiş Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosuna üzv seçilməsi və keçmiş SSRİ Nazirlər Soveti Sədrinin 1-ci müavini vəzifəsinə təyin olunması azərbaycanlıların bir millət kimi qibtə doğuracaq potensialını bütün dünyaya nümayiş etdirdi. Onun kuratorluq etdiyi nəqliyyat, səhiyyə, tibb sənayesi, yol tikintisi, rabitə, təhsil, mədəniyyət və digər sahələrdə qısa müddət ərzində gerilik aradan qaldırıldı, sürətli yüksəliş başlandı. Keçmiş SSRİ-nin rəhbərlərindən biri kimi o, dünyada gedən proseslərə dərindən nüfuz edir, beynəlxalq və regional problemlərin, münaqişələrin nizama salınmasında yaxından iştirak edir, İttifaq dövlətinin nəhəng imkanlarını məharətlə Azərbaycanın tərəqqisinə, sosial-iqtisadi yüksəlişinə xidmət edən plan və layihələrin reallaşdırılması işinə istiqamətləndirirdi.

Onu da qeyd etmək lazımdır ki, ulu öndər keçmiş İttifaq rəhbərliyində olarkən belə, iqtisadiyyatın bütün sahələrində olduğu kimi, meliorasiya və su təsərrüfatı sahəsinə də öz qayğısını əsirgəməmiş, bu sahədə işlərin gedişinə daim nəzarət etmiş və lazımi köməklik göstərmişdir.

Həmin dövrdə onun yaxından köməyi sayəsində respublika üçün son dərəcə vacib yüksək limitli obyektlər olan Baş Mil–Muğan kollektorunun yenidən qurulması, Naxçıvan MR-da Vayxır su anbarının, Şəmkir Magistral kanallarının və onlarla ölkəmiz üçün strateji əhəmiyyət kəsb edən vacib obyektlərin tikintisi ilə əlaqədar məsələlər həll edilmişdir.

*(ardı var)*

***Zaur MİKAYILOV,***
***Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri***

# Azərbaycanın sərhəd məsələsində mövqeyi qətidir

## Prezident İlham Əliyevlə ABŞ-ın Dövlət katibi arasındakı telefon danışıqlarına dair

**Aprelin 30-da ABŞ-ın Dövlət katibi Antoni Blinken Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Telefon danışığında başlıca mövzu Bakı–İrəvan münasibətlərinin normallaşması olub. Cənab Blinken sülh müqaviləsi üzrə danışıqların əhəmiyyətini vurğulayıb, bu xüsusda ABŞ-ın dəstəyinin davam edəcəyini bildirib. Dövlət katibi, həmçinin, sülhün əldə olunmasının mümkünlüyünə inandığını deyib.**



Əlbəttə, Birləşmiş Ştatların ali rəsmisinin Vaşinqtonun Cənubi Qafqazda əmin-amanlığın təminatında marağını ortaya qoyması son dərəcə vacibdir. Yeri gəlmişkən, 2023-cü il başlayandan bu maraq üçüncü dəfədir ki, gündəmə gəlməkdədir. Nəzərə alaq ki, A.Blinken bu il yanvarın 23-də və martın 21-də də dövlətimizin başçısına zəng etmişdi. Aprelin 30-dakı zəng isə sayca üçüncü idi.

Prezident İlham Əliyev telefon danışığı zamanı, öz növbəsində, ölkəmizin sülh gündəliyini diqqətə çatdırıb. Dövlətimizin başçısı vurğulayıb ki, Ermənistanla sülh danışıqlarına başlamağın və münasibətlərin normallaşdırılmasının təşəbbüskarı məhz Azərbaycan olub. Bakı bunun üçün İrəvana beynəlxalq hüququn norma və prinsiplərinə uyğun beş prinsip təklif edib.

Qeyd edək ki, dövlətimizin başçısının ölkəmizin Ermənistanla sülh üçün təşəbbüskar qismində çıxış etməsini qabartması adi məsələ deyil. Azərbaycan Prezidenti, faktiki olaraq, İrəvanın sülhə etinasız yanaşan tərəf olduğunu vurğulayıb və bu yanaşmanın Vaşinqton tərəfindən nəzərə alınmasının vacibliyini önə çəkib. Cənab İlham Əliyev diqqəti həm də ona yönəldib ki, beynəlxalq oyunçular, maraqlı tərəflər bölgədə firavanlıq istəyirlərsə, mütləq qaydada Ermənistanı yola gətirməlidirlər. Təsadüfi deyil ki, Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov mayın 1-də özünün ermənistanlı həmkarı Ararat Mirzoyanla ABŞ-dakı görüşündən öncəki açıqlamasında İrəvanın danışıqlar masası arxasında əyləşməsinə kömək göstərdiyi üçün Birləşmiş Ştatlara təşəkkürünü bildirib. Deməli, Ermənistan bunu etmək istəmirmiş...

Onu da diqqətə çatdıraq ki, A.Blinken aprelin 30-dakı telefon zəngi zamanı Azərbaycan-Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsinin qurulmasına da toxunub. Deməli, Vaşinqton İrəvanın, ermənipərəst dairələrin həmin məntəqə ilə bağlı qaldırdıqları ajiotajı nəzərə alıb və məsələyə yer verib.

Əlbəttə, bu yanaşma heç də o demək deyil ki, Ağ Ev mövcud xüsusda ölkəmizə hər hansı təzyiqin göstərilməsinin tərəfdarıdır. Blinkenin mövzuya toxunması, İrəvanın maraqlarının ifadəsindən irəli gələn məqamın yalnız qabardılmasıdır. Ermənistan anlamalıdır ki, həm Vaşinqtonun, həm də bölgədə maraqlı olan digər qlobal aktorların onun üçün edə biləcəyi təkcə budur. Yəni, sözdə ötəri dəstək. Təxminən belə: biz öz növbəmizdə dedik, alınmadı...

Digər tərəfdən, Blinkenin Laçın–Xankəndi yolunda Azərbaycana məxsus sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulmasına dair məsələni gündəmə gətirməsi müsbət qiymətləndirilə bilər. O anlamda ki, bunun qarşılığı olaraq, Bakının dəfələrlə vurğuladığı mövqe bir daha səslənir. Nəticə etibarilə bu baxış bucağı daha da möhkəmlənir. Dünya ictimaiyyəti, qeyri-ixtiyari olaraq, vəziyyətlə tanış olur. Vəziyyətlə tanışlıq isə Azərbaycanı bir daha haqlı tərəf kimi göstərir.

Telefon danışığından da göründüyü kimi, Azərbaycan Prezidenti Blinkenin qaldırdığı məsələ ilə bağlı fikirlərini bildirib. Dövlətimizin başçısı "Laçın" sərhəd



nəzarət-buraxılış məntəqəsinin qurulmasının Azərbaycanın suveren hüquqları çərçivəsində və bütün beynəlxalq qaydalara uyğun olaraq, təmin edildiyini vurğulayıb. Bu, bir daha ölkəmizin mövcud xüsusdakı prinsipiallığının göstəricisi kimi diqqət çəkir.

Onu da deyək ki, erməni cəmiyyəti məhz bu telefon danışığından sonra sərhəd məntəqəsi ətrafında mənasız ritorikanı kənara qoymalı və gələcəyə baxmalıdır. Ermənistanın hakim siyasi dairələri, dünya erməniləri və ermənipərəstlər anlamalıdırlar ki, tələbləri, əslində isə avantürist baxışları ABŞ Dövlət Departamentinin rəhbəri kimi nüfuz sahibi olan şəxs tərəfindən gündəmə gətirilsə də buna qarşı Azərbaycan tərəfindən İlham Əliyevin şəxsində tutarlı əks mövqe ortaya qoyulursa və bu, qəbul edilirsə, deməli, qatar artıq gedib, onun arxasınca baxmağa dəyməz.

Bəli, "Azərbaycan" qatarı hərəkətdədir və ölkəmizin Prezidenti də vurğulayıb ki, sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulmasında məqsəd hərəkətin məhdudlaşdırılması deyil, əksinə, nəzarətin təmin olunmasıdır və artıq bu məntəqə vasitəsilə gediş-gəliş həyata keçirilir. Yəni, Qarabağ erməniləri rahatca o yoldan hərəkət edə bilərlər.

Yeri gəlmişkən, Azərbaycan Prezidenti ilə Birləşmiş Ştatların rəsmisi arasındakı telefon danışığı zamanı diqqət çəkən bir məqam da var. Bu, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalisi ilə bağlıdır. Telefon təmasında onların hüquqlarının Azərbaycan Konstitusiyası və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq sənədlər çərçivəsində təmin olunacağı qeyd edilib.

Bunun vurğulanması da Bakının Qarabağ erməniləri ilə əlaqədar məsələdəki prinsipiallığının göstəricisidir. Yəni, heç bir halda ikincilər üçün hər hansı əlahiddə yanaşmadan söhbət gedə bilməz. Bölgənin erməni əhalisi Azərbaycan vətəndaşıdır və vətəndaşlığı qəbul edib yaşamaq da, qəbul etməyib ərazini tərk etmək də həmin əhalinin öz istəyinə bağlıdır.

***

Cənab İlham Əliyevlə Antoni Blinken arasında 2023-cü ilin əvvəlindən bəri sayca üçüncü telefon danışığının gerçəkləşməsinə diqqət yetirərkən, onu da vurğulamalıyıq ki, istər aprelin 30-da, istər martın 21-də, istərsə də yanvarın 23-dəki təmas bir sıra cəhətləri üzə çıxarır. Üzərində dayanılmalı olan ilk cəhət isə budur ki, hər telefon danışığında müzakirəyə çıxarılmış məsələlər sonradan bölgənin ictimai rəyində Azərbaycanın mövqeyi kimi oturuşmuş status qazanır.

Məsələn, Ermənistan azərbaycanlı fəalların və qeyri-hökumət təşkilatları təmsilçilərinin ötən il dekabrın 12-dən Laçın–Xankəndi yolunda başladıqları aksiyanı Qarabağın blokadası kimi təqdim edirdi. Yanvarın 23-dəki telefon danışığı zamanı dövlətimizin başçısı bunun belə olmadığını vurğulamış və konkret faktlar gətirərək, blokada məntiqinin keçərsizliyini əsaslandırmışdı. Nəzərə alsaq ki, o telefon təması zamanı başlıca prioritet Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi olmuşdu, deməli, sözügedən blokada ritorikası sülhə maneçilik törəfən faktor olaraq təsbit edilmişdi. Və deməli, İrəvanın, öz aləmində, guya, Bakıya qarşı əldə etdiyi təsir və təzyiq rıçaqının əhəmiyyəti qalmamışdı.

Dövlətimizin başçısı Blinkenlə yanvarın 23-dəki telefon danışığında onu da diqqətə çatdırmışdı ki, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində ölkəmizin faydalı qazıntı yataqlarının qanunsuz istismarı dayandırılmalı və həmin ərazidə Bakının daimi monitorinq və təftiş aparmaq imkanı təmin edilməlidir. Hələlik bu tələb yerinə yetirilməyib. Digər tərəfdən, Prezident İlham Əliyev Ermənistan tərəfindən 2021-ci ilin istehsalı olan minaların qanunsuz olaraq Laçın yolundan istifadə edilərək daşındığını Blinkenin diqqətinə çatdırmışdı ki, sonrakı zaman kəsiyində biz bu daşınmaların intensivliyinin artdığını, mövcud istiqamətdə torpaq yollardan istifadəni gördük.

Deməli, ABŞ-ın Dövlət katibi tərəfindən edilmiş zəngin məğzində dayanan sülh prosesi və normallaşma ideyasına xilaf çıxan Ermənistandır. Yanvarın 23-dəki telefon təması ilə bağlı bir xarakterik məqam var ki, o da İrəvan ilə Bakı arasında imzalanacaq sülh müqaviləsinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun, Azərbaycanın təqdim etdiyi beş prinsip əsasında baş tutumasının vurğulanmasıdır. Diqqət yetirsək, bunu ölkəmizin rəhbəri aprelin 30-dakı təmasın gedişində də diqqətə çatdırıb. Əvvəldə bu barədə söz açdıq.

Cənab Blinkenlə Prezident İlham Əliyev arasında 2023-cü il martın 21-də baş tutmuş telefon danışığının məzmununa nəzər salaq. Burada da başlıca müzakirə mövzusu Laçın–Xankəndi yolundakı aksiyadır. Ancaq bir xarakterik məqam var. Əgər yanvarın 23-dəki zəng zamanı aksiya nəticəsində yolun bağlanmasının blokada məntiqi vurğulanırdısa və bu xüsusda Azərbaycan lideri əks arqumentlər irəli sürüb torpaqlarımızın minalanmasından söz açırdısa, martın 21-də cənab İlham Əliyev bildirmişdi ki, Ermənistan Laçın yoluna köməkçi yoldan istifadə edərək, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi ərazilərimizdə qanunsuz hərbi daşımalar gerçəkləşdirir, şəxsi heyətin rotasiyasını həyata keçirir. Ermənistan silahlı qüvvələrinin 10 minə yaxın hərbçisinin hələ də Azərbaycan ərazisində olmasının ciddi narahatlıq doğurduğunu vurğulayan dövlətimizin başçısı ən vacib məsələnin üzərinə gəlmişdi. Prezident bütün bunlara görə Azərbaycanın Laçın yolunun Ermənistanla sərhədinin son nöqtəsində sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılmasının labüdlüyünü dilə gətirmişdi.

***

Bəli, artıq dövlət başçımızın haqqında söz açdığı məntəqə fəaliyyətdədir. Sonda isə bir daha bildirək ki, Azərbaycan öz məqsədinə doğru inamla addımlamaqdadır. Dəfələrlə bəyan edilmiş və Cənubi Qafqazda sülhü hədəf seçən bu məqsəd tam ədalətlidir. Prezident İlham Əliyev isə ədalətin diplomatik müstəvidəki carçısıdır. ABŞ-ın Dövlət katibi ilə əvvəlki təmaslar kimi, aprelin 30-dakı telefon danışığı da onu göstərdi ki, ölkəmiz özünün prinsipial xəttinə sadiqdir və heç bir halda yolundan dönməyəcəkdir. Bunu isə Ermənistanın siyasi rəhbərliyi, ümumən, erməni cəmiyyəti dərindən anlamalıdır.

***Ə.CAHANGİROĞLU, "Xalq qəzeti"***

---

# Sərhəd şərti, nəzarət isə real və tamdır

**ABŞ Dövlət Departamentinin yeni təşəbbüsü ilə Bakı və İrəvan arasında Vaşinqtonda baş tutacaq sülh danışıqlarının növbəti raundunda bölgədə yaranmış yeni reallığın nəzərə alınması qaçılmazdır.**

Hər şey əvvəlcədən planlaşdırıldığı kimi gedir. Azərbaycanın Xankəndini Hayastanla birləşdirən Laçın yolunun üzərində quraşdırdığı sərhəd nəzarət-buraxılış məntəqəsi bütün beynəlxalq standartlara, sivil qanunların tələblərinə cavab verir. İrəvan nə qədər haray-həşir salsa da, yüz ünvana bəyanat-müraciətlər göndərsə də, fakt faktlığında qalır, məntəqə də rəsmən öz funksiyasını yüksək səviyyədə yerinə yetirir. Eynilə bütün demokratik ölkələrdə olduğu kimi. Bunu postdan sosial şəbəkəyə yerləşdirilmiş audio-video çəkilişlərdən də görmək mümkündür.

İrəvanın BMT-nin Təhlükəsizlik Şurasına, Beynəlxalq Ədalət Məhkəməsinə müraciətlərinin, Paşinyanın dünya liderlərinə telefon zənglərinin heç bir faydası olmadı və olmayacaq. Çünki artıq Bakı bu yolla erməni quldur dəstələrini silah-sursatla təchiz edən Hayastanın revanşist-daşnaklarının sonuncu damarını qırdı. Onların çoxdan düşməyə layiq olduqları vəziyyətdən xilas yolunu dənizlərin və dağların o üzündə axtarmaları elə Qarabağ iqtisadi rayonumuzdakı separatçıların daxili məntiqinə tam uyğundur. Amma reallığı olduğu kimi qəbul etməkdən savayı şansları yoxdur. Udlaqlarında ilişib qalan loxma isə budur: sərhəd şərti olsa da, ona nəzarət real və tamdır!

### Ağ Ev təşəbbüsü ələ almağa çalışır

Əslində Bakı üçün indiki məqamda prioritet məsələ danışıqlar prosesinə kimin dəstək verəcəyindən daha çox, sülhün nahamar yolunun maneələrdən təmizlənməsi və sazişin tez imzalanmasıdır. Azərbaycan üçün ön plandakı məsələ tərəfləri bu hədəfə kimin - şimallı vasitəçininmi, yoxsa okeanın o tayındakı təşəbbüskarınmı tez çatdıracağıdır. Elə ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinkenin Prezident İlham Əliyevə telefon zənglərinin leytmotivi Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların müqəddəratı olub. Ağ Ev rəsmisi bu xüsusda Vaşinqtonun öz dəstəyini davam etdirəcəyini və sülhün əldə edilməsinin mümkünlüyünə inandığını deyib.

Aydın məsələdir ki, Blinken telefon söhbətində Azərbaycanın sərhəddə nəzarət-buraxılış məntəqəsini qurmasına da toxunub. Bu məsələyə dair dövlət başçımız Bakının kifayət qədər qəti və birmənalı mövqeyini Ağ Ev rəsmisinin nəzərinə çatdırıb: "Bu məntəqənin qurulması Azərbaycanın suveren hüquqları çərçivəsində və bütün beynəlxalq qaydalara uyğun olaraq təmin edilib. Məqsəd hərəkətin məhdudlaşdırılması deyil, əksinə, nəzarətin təmin edilməsidir və artıq bu məntəqə vasitəsilə gediş-gəliş həyata keçirilir".

Yəni, bu məsələdə hər şey aşkar və konkretdir. Rəsmi Bakı dünyanın supergücünün baş diplomatına anladıb ki, Qarabağ bölgəsində yaşayan erməni əhalisinin hüquqları Azərbaycan Konstitusiyası və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq sənədlər çərçivəsində təmin olunacaq.

### Paşinyan yenə "nala-mıxa vurur"

Həmin gün Antoni Blinkenin Ermənistanın baş naziri Nikol Paşinyanla telefon danışığının əsas mövzusu bölgədə yaranmış hərbi-siyasi və humanitar vəziyyət olub. Hayastan rəhbəri Ağ Evin Dövlət katibinə "Azərbaycan tərəfinin Laçın yolunda, sərhəddə atdığı addımların "Dağlıq Qarabağda" etnik təmizləmə siyasətini ardıcıl reallaşdırmağa hesablandığı" ilə bağlı şikayətlənib. Onun bitib-tükənməyən şikayətlərinin dinlənib-dinlənilməyəcəyini deyə bilmərik, amma Bakının haqlı və tutarlı arqumentləri Blinkenin vasitəçiliyi ilə Vaşinqtonda iki ölkənin xarici işlər nazirləri – Ceyhun Bayramov və Ararat Mirzoyanın görüşündə müzakirə mövzusudur. Bu görüş həm də Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşmasına dair razılaşma üzrə danışıqların növbəti raundu kimi təqdim edilir. Əslində, Azərbaycan daim ikitərəfli dialoqu və sülh gündəliyini dəstəkləyib. İrəvanla sülh müqaviləsinin mətni üzrə danışıqlara başlamağın və



ikitərəfli münasibətlərin normallaşdırılmasının təşəbbüskarı kimi məhz Azərbaycan çıxış edib. İki ay bundan əvvəl isə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq sülh müqaviləsinin 5 prinsipə əsaslanan variantını qarşı tərəfə təklif edib. Bakının bu təklifinə hələ də cavab yoxdur.

### İrəvan növbəti işarəni şimaldan gözləyir

Üçtərəfli Vaşinqton görüşünün ardınca tərəflərin Moskvaya səfəri gözlənilir. Bu barədə Rusiya XİN rəsmi məlumat yayıb, tərəflərə dəvətlər də çatdırılıb. Vasitəçi ölkə missiyasını boynuna götürən, sülhməramlı kontingentinin komandanını dəyişən Kremlin bu təşəbbüsü başadüşüləndir. Amma Moskvanın suveren ərazimizdə sərhəd nəzarət-buraxılış məntəqimizi qurmağımızdan məmnun qalmadığı aşkar hiss olunmaqdadır. Yəni, onun nəzərində "Azərbaycan sərhədə nəzarət edənlərə nəzarəti həyata keçirir". İndi Rusiyanın bölgədə qüvvələr balansını öz xeyrinə dəyişməkdən ötrü təkbaşına, yoxsa İrəvanla əlbir olaraq hərəkət edəcəyi bizim üçün çox vacibdir.

Əlbəttə, separatçıların, silahlı quldurların əsirinə çevrilən Qarabağın erməni əhalisinin bu gün öz iradələrini qorxmadan ifadə edəcəyini düşünmək absurddur. Azərbaycan Laçın–Xankəndi yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsini qurmaqla Qarabağı cinayətkar elementlərdən və qeyri-qanuni silahlı qruplardan təmizləyəcək, erməni əhalisini separatçıların girovluğundan qurtaracaq. Bununla da ölkəmizin bərabərhüquqlu vətəndaşı kimi onların hüquq və təhlükəsizliyini təmin edəcək. Daha Hayastandakı daşnak tör-töküntüsü Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi və nəzarət etdiyi bölgədə özünün separatçı, terrorçu fəaliyyətini davam etdirə bilməyəcək. Ən azı ona görə ki, buyruğu haradan almalarından, hansı istiqamətdə hərəkət edəcəklərindən asılı olmayaraq, mütləq gəlib Azərbaycan DSX-nın Laçın yolundakı sərhəd-buraxılış məntəqəsindən keçəcəklər. Burada isə onlar sadəcə saxta sənədləri ilə bağlı deyil, həmçinin cinayətkar əməllərinə görə suallara cavab verməli olacaqlar.

***İmran BƏDİRXANLI, "Xalq qəzeti"***

### Ekspert rəyi



**Fikrət SADIQOV, politoloq**

Bəli, şərti sərhəddə nəzarət-keçid məntəqəsinin qurulması onlar üçün gözlənilməz addım idi. Ola bilsin ki, ermənilər heç buna hazır deyildilər. Dövlət başçımız bunu dəfələrlə deyirdi və Azərbaycanın öz təhlükəsizliyini təmin etməyə qadir dövlət olduğunu bəyan etmişdi. Bütün addımlarımızı da buna görə atacağıq. Hansısa xarici ölkənin respublikamızın daxilində baş verən hadisəyə hansı formada yanaşması bizi nə maraqlandırır, nə də narahat edir. Eyni zamanda, bəzi dövlətlərin bəyanatları da səsləndi. Misal üçün, ABŞ Dövlət Departamentinin açıqlamasını çox diqqətlə oxudum. Orada elə də sərt ifadələrə rast gəlmədim. Sadəcə narahatlıq bildirilirdi.

Yəni, Vaşinqtonun vasitəçilik rolunun artması, tərəflərin danışıqlar masasında bir araya gəlməsi üçün təşəbbüslərin artması ilə bağlı fikirlər yer alırdı. Tərəflər bir dəfə ABŞ-da belə bir görüşə dəvət edilmişdilər.

Ümumən, məsələyə sağlam düşüncə ilə yanaşmaq o deməkdir ki, bəzi siyasi dairələr Azərbaycanın öz suveren ərazisində lazım bildiyi addımları atdığını başa düşür və onun bədnam qonşuları kimi, başqasının torpağında gözü olmadığını da anlayır. Laçın yolunda sərhəd nəzarət-buraxılış məntəqəmizin yaradılması tam mənada heç kəsə, heç bir tərəfə zərbə vurmur, yalnız dövlətimizin təhlükəsizliyinə və maraqlarına xidmət edir.

## Naxçıvan xəbərləri

### Sumqayıt Sənaye Parkının təcrübəsi öyrənilir



***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin rəhbər və mütəxəssis heyəti Sumqayıt Kimya Sənaye Parkının təcrübəsini öyrənmək üçün bu şəhərdə səfərdə olublar.***

Yeni tipli müəssisədə keçirilən görüş zamanı İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Elşad Nuriyev rezidentlər üçün yaradılmış əlverişli şərait, müxtəlif infrastruktur, güzəşt mexanizmləri və xidmətlər barədə, eləcə də ölkədə sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların fəaliyyəti, istehsal edilən məhsullar haqqında ətraflı məlumat verib. Qeyd olunub ki, sənaye parkında yerləşən bir çox müəssisənin istehsal etdiyi məhsullar "Made in Azerbaijan" brendi altında dünya bazarlarına çıxarılır.

Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev İqtisadi Zonaların İnkişafı Agentliyi ilə əməkdaşlığın, xüsusilə, sənaye sahəsində əlaqələrin genişlənməsinin, Naxçıvanda yeni yaradılacaq Sənaye Parkının tənzimlənməsində Sumqayıtdakı təcrübədən yararlanmağın önəmini vurğulayıb. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi də aparılıb.

### Kinoa bitkisinin sınaq əkini keçirilib



***Kinoa susuzluğa çox davamlı, torpaqdan isə duzluluğu götürən bitkidir. Ondan həm ərzaq, həm də yem bitkisi kimi istifadə edilir. 100-dən çox növü olan bu bitki ağ, qara və açıq qəhvəyi rənglərinə görə fərqlənir. Vətəni Cənubi Amerikanın And dağları bölgəsi olan bu bitki Azərbaycana Türkiyədən gətirilib və Əkinçilik Elmi-Tədqiqat İnstitutu bölgələrdə onun sınaq əkinlərini keçirib.***

Naxçıvanda isə təcrübə məqsədilə bu il Əliabad qəsəbəsində 0,5 hektar ərazidə kinoa əkini həyata keçirilib. Əkini muxtar respublikanın Kənd Təsərrüfatı Nazirliyinin Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin mütəxəssisləri aparıblar. Kinoa yerli torpaq iqlim şəraitinə uyğunlaşarsa və məhsuldarlığı yüksək olarsa, gələcəkdə onun əkinlərinin genişləndirilməsi nəzərdə tutulur.

### Dərmanların qiymətləri nəzarətə götürülüb

***"Dərman vasitələri haqqında" Qanuna edilmiş dəyişikliklərdə rəsmi qeydiyyata alınmış dərman vasitələrinin qiymətlərinin dövlət tərəfindən tənzimlənməsi nəzərdə tutulub.***



Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən də bu məqsədlə müvafiq işlər aparılır. Qurumdan qəzetimizə verilən məlumata görə, Naxçıvan şəhərində fəaliyyət göstərən 57 əczaçılıq müəssisəsində dərman vasitələrinin satışında qiymət intizamına, o cümlədən, dərman vasitələrinin qiymətlərinin qablaşdırmanın üzərində göstərilməsinə əməl olunması ilə bağlı maarifləndirici monitorinqlər aparılıb və qanunun tələbləri ətraflı şəkildə izah olunub.

### Nəzarət-kassa aparatları yenilənir



***Naxçıvanda Dövlət Vergi Xidməti yeni nəsil nəzarət-kassa aparatlarının tətbiqi istiqamətində də işlər davam etdirir.***

Xidmətdən verilən məlumata görə, ilin əvvəlindən muxtar respublika ərazisində 1,5 minədək yeni nəsil nəzarət-kassa aparatı quraşdırılıb. Yanvar–mart aylarında yeni nəzarət-kassa aparatları vasitəsilə qeydə alınan dövriyyə 27,4 milyon manatdan çox, təkcə mart ayında isə ilin əvvəli ilə müqayisədə 2,2 dəfə çox olub.

### Balaca güləşçimiz Kaliforniyadan qızıl medalla qayıdıb

***Naxçıvan idmançısı Amerika Birləşmiş Ştatlarında (ABŞ) "Legasy Judo Tournament" adlı turnirdə qızıl medal qazanıb. Bu barədə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən bildirilib.***



Xəbərdə qeyd edilir ki, Kaliforniya ştatının Santa Klara şəhərində keçirilən yarışda həmyerlimiz Oğuzxan Quliyev də iştirak edib. O, 10–12 yaşlı oğlanlar arasında 38 kiloqramdan aşağı çəki dərəcəsi üzrə Azərbaycanı təmsil edib. İdmançımız ilk görüşündə Cənubi Koreya təmsilçisi Hajoon Lee, ardınca isə ABŞ-dən olan rəqibi Asher Hiat üzərində qələbə qazanaraq qızıl medala layiq görülüb.

***Səbuhi HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# Laçınlılar doğma yurda qayıdışa hazırlaşırlar

**Laçın şəhərində tikinti, bərpa-quruculuq layihələri sürətlə həyata keçirilir. Bu prosesə bütün imkanlar səfərbər edilir, sərmayələr qoyulur. Şəhər dağlar qoynunda cənnəti xatırladacaq bir məkana çevrilir. Məqsəd isə Laçını doğma sakinlərinin ilk qayıdışına hazırlamaqdır. Şəhərə ilk dönəcək ailələrdən biri də Taxtakörpü qəsəbə tam orta məktəbinin direktoru Şəbnəm Uğurlunun ailəsidir. O deyir:**



–1992-ci ildə Laçın şəhərində vəziyyət çox ağır idi. Şuşa şəhəri ermənilər tərəfindən işğal olunduqdan sonra Ermənistan silahlı qüvvələri rayon mərkəzini intensiv artilleriya silahlarından atəşə tuturdu. Düşmən mayın 16-dan 17-nə keçən gecə Şuşanın Turşsu kəndi ərazisindən və Ermənistanın Gorus rayonu istiqamətindən hücuma keçdi. Şəhərdə çox ağır vəziyyət yaranmışdı. May ayının 17-dən 18-nə keçən gecə isə qocalar, qadınlar və uşaqlar şəhərdən çıxarılaraq daha təhlükəsiz yerlərə yola salındı. Xalam Sumqayıtda yaşadığı üçün biz ora pənah apardıq. O, 3-4 gün onlarda qaldıq. Az sonra atam Tofiq Əhmədov da gəldi. O, Laçını sonuncu tərk edənlərdən idi...

Şəbnəm Uğurlu danışır ki, Laçında təzəcə tikilmiş evləri qalıb. Həyətlərindəki qollu-budaqlı tut ağacından asılan və hər gün yelləndiyi qızılı zəncirli yelləncəyi isə indiyədək unutmayıb.

Həmsöhbətim ermənilərin vurduqları maddi ziyandan daha çox mənəvi əzablar yaşatdıqlarını xatırladır. Fikirlərinin təsdiqi kimi, uşaqlığını yaşaya bilməməsini, yad evlərə sığındıqlarını, torpaq, yurd həsrətinə dözməyib dünyasını vaxtsız dəyişən ata itkisini unutmamasını yanğı ilə söyləyir.

...Şəbnəm Laçın rayonu işğaldan azad olunandan sonra üç dəfə doğma torpaqları ziyarət edib. Birinci səfəri zamanı Rusiya sülhməramlıları onun Laçın şəhərinə, evlərinə getməsinə icazə verməyib, ancaq kəndləri gəzib. Sonrakı səfərlərində isə bu istəyinə qovuşub, doğma od-ocaqlarına baş çəkib. Atasının saldığı bağdan əsər-əlamət qalmadığını görəndə isə düşüncəsində düşmənin nə qədər vəhşi, barbar olduğu qənaəti daha da möhkəmlənib.

...Laçının dağları, dərələri, çaylaрı laçınlıların qayıdışını gözləyir. Bu qayıdış üçün isə şəhərin baş planına uyğun olaraq yeni evlərin tikintisi və bərpası sürətlə həyata keçirilir və aparılan işlərin böyük bir qismi artıq başa çatmaq üzrədir. Buna görə də 700-dən çox ailənin bu ilin yay aylarında Laçın şəhərində yerləşdiriləcəyi nəzərdə tutulur.

Şəbnəm Uğurlunun ailəsi də birinci köçlə Laçına qayıdacaq. Artıq bu barədə anasına zəng edilərək məlumat verilib. O deyir:

– Anam Laçına ayaqyalın gedib 30 ildən sonra doğma od-ocağına qovuşmasını əhd edib. Onu bu evə xatirələri–xoşbəxt yaşadığı keçmiş illər bağlayır. O həyacanlıdır, qayıdış gününü səbirsizliklə gözləyir, Laçının hər bir daşı, meşəsi, ağacı, təmiz havası, dumduru suyu, nəhayət, təmirdən çıxmış evi üçün darıxır.

Bu evdə işğal dövründə ermənilər yaşayıblar, evin quruluşunda dəyişiklik ediblər, vaxtilə divara çəkilən naxışların üstünü rəngləyiblər. Laçını tərk edərkən isə qapı-pəncərələri, dam örtüyünü sökərək özləri ilə aparıblar...

Şəbnəm Uğurlu deyir ki, böyük köçə hazırlaşırlar: "Tezliklə uşaqlığımı qoyub gəldiyim o yerlərə dönəcəyəm. Biz doğma Laçınımıza gedəcək, əmək fəaliyyətimizi orada davam etdirəcəyik. Yoldaşım Orxan Cəbrayılov həkimdir, Laçın Təcili Tibbi Yardım Xidmətinin müdiridir. Yəqin ki, o, bizdən daha tez gedəcək.

Rəhbərlik etdiyim məktəbin şagirdlərinini əksəriyyəti də Laçın şəhərindən məcburi köçkün ailələrdə böyüyən uşaqlardır. Onlar da işğaldan azad edilmiş doğma yurda qayıtmaq, təhsillərini həlе üzünü görmədikləri, amma haqqında böyüklərin həsrət və sevgi ilə danışdıqları doğma şəhərlərində davam etdirmək istəyirlər.

İnanıram ki, Vətən həsrəti ilə dünyadan köçən atamın ruhu da o gün şad olacaq", – deyir.

***Pünhan ƏFƏNDİYEV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

## Necəsən, sərhəd kəndi?

# Bulaq suyu üçün uzağa getməyəcəklər...

**Ölkə Prezidentinin təsdiq etdiyi "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq, Qazax rayonunun sərhəddə yerləşən 3 kəndinin içməli su təchizatı yaxşılaşdırılır. Dövlət investisiyası hesabına həyata keçirilən layihə Qaymaqlı, Aslanbəyli və Kəmərli kəndlərini əhatə edir. Bu kəndlərdə indiyədək su təchizatı sistemləri mövcud olmayıb. Kənd sakinləri suya olan tələbatlarını uzaq məsafədən daşımaqla ödəyiblər.**





Təsdiqlənmiş layihəyə uyğun olaraq Qaymaqlı, Aslanbəyli və Kəmərli kəndlərinə içməli su 4 yeni subartezian quyusundan veriləcək. Layihə çərçivəsində nasos stansiyaları və su anbarlarının inşası da nəzərdə tutulub. Hazırda quyulararası, magistral və şəbəkə su xətlərinin, həmçinin anbarların tikintisi davam etdirilir. Layihə çərçivəsində 14 kilometr magistral, 76 kilometr şəbəkə su xətlərinin inşası layihələndirilib. Bu kəndlərdə əhalinin ümumi istifadəsi üçün 496 ədəd bulaq quraşdırılacaq.

Layihə üzrə tikinti-quraşdırma işlərinin 2023-cü ilin yay aylarında başa çatdırılması nəzərdə tutulur. Yeni yaradılan infrastruktur Qazax rayonunun 3 kəndində 10 minədək sakinin içməli su təchizatını yaxşılaşdıracaq.

Hazırda "Azərsu" ASC tərəfindən sözügedən kəndlərdə əhalinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə bulaq komplekslərinin və su anbarlarının inşası, həmçinin su xətlərinin çəkilişi davam edir.

Bu günlərdə Qazax Rayon İcra Hakimiyyətinin rəhbərliyi və "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin məsul şəxsi, mütəxəssislər Kəmərli, Qaymaqlı, Aslanbəyli kəndlərində sakinlərin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə görülən işlərlə yerində tanış olublar. Onlar bulaq komplekslərinin və su anbarlarının tikintisi, eləcə də su xətlərinin çəkilişi ilə bağlı görülmüş işlərin icra vəziyyətini əhali ilə birgə müzakirə ediblər, təklifləri dinləyib, müvafiq tapşırıqlarını veriblər.

Sakinlər görüş zamanı sözügedən kəndlərin mövcud relyefini nəzərə almaqla, bulaq layihəsinin gələcəkdə ləğv ediləcək hər bir evə sayğac quraşdırılmaqla, fərdi qaydada su xəttinin çəkilməsini xahiş ediblər.

Vətəndaşları dinləyən qonaqlar səslənən fikirlərə, təkliflərə həssaslıqla yanaşılacağını, çoxsaylı müraciətləri nəzərə alaraq, aidiyyəti qurumlar qarşısında məsələ qaldırılacağını bildiriblər.

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# Gəncədə "Biznes Evi" tikilir

**Gəncə şəhərində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən KOB Evi inşa edilir. Sahəsi 2183 kvadratmetr təşkil edən bu bina iki mərtəbədən və zirzəmidən ibarət olacaq.**



Burada 70 xidmət masası quraşdırılacaq və Gəncə–Daşkəsən iqtisadi rayonundan olan sahibkarlıq subyektlərinə İqtisadiyyat Nazirliyi və onun qurumları, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Gömrük Komitəsi, Qida Təhlükəsizliyi Agentliyi, "Azəriqaz" İstehsalat Birliyi, "Azərsu" və "Azərişıq" açıq səhmdar cəmiyyətləri, habelə digər qurumlar tərəfindən 150- yə yaxın dövlət-biznes xidmətləri göstəriləcək. Eyni zamanda bank, sığorta, lizinq, broker kimi özəl təşkilatların da zəruri biznes xidmətlərindən yararlanmaq mümkün olacaq. "Gəncə KOB Evi"nin 2023-cü ilin sonunda fəaliyyətə başlaması nəzərdə tutulub.

Qeyd edək ki, kiçik və orta biznes evləri sahibkarlıq subyektlərinə dövlət və özəl qurumlar tərəfindən göstərilən xidmətlərin vahid məkanda və əlaqələndirilmiş formada təqdim olunduğu Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin struktur bölmələridir. KOB evlərinin məqsədi sahibkarlıq subyektlərinə operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsiplərinə uyğun olaraq, vahid məkanda, əlaqələndirilmiş formada, yeni üslubda müasir innovasiyaları tətbiq etməklə, dövlət-biznes (G2B) və biznes-biznes (B2B) xidmətlərinin göstərilməsi, hər bir xidmətin sahibkar məmnunluğu təmin edilməklə, qanunauyğun, keyfiyyətli və şəffaf həyata keçirilməsidir.

KOB evlərində xidmətlərin operativ və bir məkanda təqdim olunması sahibkarların vaxta və əməliyyat xərclərinə əhəmiyyətli dərəcədə qənaət etmələrinə və daha çox biznesin inkişafı məsələlərinə fokuslanmalarına imkan verir.

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# "İxrac icmalı"nın aprel sayı uğurlar toplusudur

## *1-ci rübdə xaricə 7,7 milyard dollarlıq milli məhsul göndərilib*

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı "İxrac icmalı"nın aprel sayına əsasən, 2023-cü ilin yanvar–mart aylarında Azərbaycanın ümumi ixracı 7,7 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə ixrac 912,2 milyon ABŞ dolları təşkil edib. Qeyri-neft sektoru üzrə ixrac 2022-ci ilin üç ayı ilə müqayisədə 23,2 faiz artıb.**




Aqrar və aqrar sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 178,9 milyon ABŞ dollarına çatıb. Cari ilin yanvar–mart ayları ərzində ixrac edilən meyvə-tərəvəz məhsulları aqrar məhsullar qrupunun 92,4 faizini təşkil edib. Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 56,3 faiz artıb.

Bu ilin ilin ilk 3 ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi (281,1 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda meşə fındığı ixracı (37 milyon ABŞ dolları) ikinci, ilkin formalı polipropilen (36 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

İlin birinci rübündə Türkiyəyə 339,9 milyon ABŞ dolları, Rusiya Federasiyasına 200,7 milyon ABŞ dolları, Gürcüstana 109,2 milyon ABŞ dolları, İsveçrə Konfederasiyasına 29,7 milyon ABŞ dolları, Qazaxıstana isə 27,6 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mallar ixrac olunub.

Bu ilin mart ayının qeyri-neft ixracı isə 261 milyon ABŞ dolları təşkil edib. Bu dövr ərzində yeyinti məhsulları üzrə ixrac 52,2 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə isə 208,8 milyon ABŞ dollarına bərabər olub.

Həmin dövrdə qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Türkiyə (66 milyon ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Rusiya Federasiyası (63 milyon ABŞ dolları) ikinci və Gürcüstan (44,5 milyon ABŞ dolları) üçüncü olub.

Cari ilin üçüncü ayında ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi (53,8 milyon ABŞ dolları) birinci, meşə fındığı (13,7 milyon ABŞ dolları) ikinci və ilkin formalı polipropilen (12,4 milyon ABŞ dolları) üçüncü olub.

"İxrac İcmalı"nda göstərilib ki, 2023-cü ilin aprel ayında "Bir pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən qeyri-neft ixracının dəyəri 24,6 milyon ABŞ dolları təşkil edib.

Bu ilin birinci rübündə Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) dünyanın 40 ölkəsinə 5,4 milyon ABŞ dolları dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edib. Əldə olunan gəlir isə onun ümumi gəlirlərinin 80 faizinə bərabər olub.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***

### *Ekspert rəyi*

**Nihat Qorqud ƏLİYEV, iqtisadçı-ekspert**



Azərbaycanın ixrac marşrutunun getdikcə genişlənməsi bir sıra amillərlə yanaşı, son illər ərzində fəaliyyətə başlayan sənaye parkları və məhəllələrində keyfiyyətli məhsul istehsal ilə sıx bağlıdır. Bu, eyni zamanda, respublikadakı mövcud sənaye parkları, sənaye məhəllələri və aqroparkların idarəetməni, habelə nəzarət mexanizmlərini daha yüksək səviyyədə təşkil etməsindən xəbər verir. Həmçinin həmin müəssisələrdə həyata keçirilən tədbirlərin səmərəliliyini, sıx koordinasiya, sistemlilik prinsiplərinə böyük əhəmiyyət verildiyini göstərir. Bütün bunlarla yanaşı, son illərdə iqtisadiyyatda kiçik və orta biznesin dominantlığının xeyli yüksəlməsi, xüsusilə dövlət investisiyaları hesabına yaradılan müasir iqtisadi infrastrukturların fəaliyyətində ixrac prosesi xüsusi önəmli yer tutur.

Burada onu da deyək ki, respublikamızın ixrac əməliyyatlarının getdikcə genişləndirilməsi ölkələrarası münasibətlərin, iqtisadi əlaqələrin inkişafında mühüm amillərdəndir. Məhz buna görədir ki, dövlət başçıları, eləcə də nümayəndə heyətləri arasında keçirilən görüşlərin, danışıqların əsas mövzularından birini də məhz xarici ticarət dövriyyəsinin artırılması təşkil edir.

Azərbaycanın ixrac əməliyyatlarından danışarkən qeyd edək ki, son illər ixracın strukturunda qeyri-neft məhsullarının, o cümlədən, ərzaq mallarının çəkisi xeyli artıb. Məlumat üçün bildirək ki, son illər ölkəmizdə qeyri-neft sektorunun davamlı inkişafı ilə bağlı reallaşdırılan tədbirlər nəticəsində bu sahədə rəqabətqabiliyyətli məhsulların istehsalı xeyli artıb.

Buradan aydın olur ki, ölkəmizdə dövlət səviyyəsində həyata keçirilən bir sıra zəruri tədbirlər, strateji məhsulların idxalında və ixracında bütün fiziki və hüquqi şəxslərin bərabər hüquqlarının reallaşdırılması və inhisarçılığın qarşısının alınması istiqamətində görülən işlər, daxili bazarın marketinqinin düzgün müəyyən edilməsi, gömrük əlaqələrinin sadələşdirilməsi, xarici ticarətin liberallaşdırılması, eləcə də əlverişli investisiya mühitinin yaradılması və s. xarici ticarət əlaqələrin həcminin və coğrafiyasının daha da genişlənməsinə müsbət təsir göstərib.

**Cari ilin ötən dövründə dünya iqtisadiyyatında sürətli transformasiya və enerji bazarlarında müəyyən dəyişikliklər baş verib. Dünyanın enerji bazarında müşahidə edilən qeyri-sabitliyə, həmçinin qlobal iqtisadi fəallığın zəifləməsinə baxmayaraq, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) 2023-cü ilin birinci rübünü uğurla başa vurmağa nail olub.**

# 3 ayda ölkəmizdə 7,7 milyon ton neft və 12,2 milyard kubmetr qaz hasil olunub

Rüb ərzində əldə edilən uğurlara şirkət üzrə idarəetmənin təkmilləşdirilməsi, müəssisələrin inteqrasiyalı fəaliyyəti, rəqəmsal enerji texnologiyalarının tətbiqi, biznes dayanıqlılığının gücləndirilməsi və əməliyyat səmərəliliyinin artırılması sayəsində nail olunub. Bu kimi müsbət amillərin nəticəsidir ki, cari ilin ilk rübündə şirkətin əsas istehsalat göstəricilərində müsbət tendensiya müşahidə olunub. Səmərəli fəaliyyət istehsalat göstəricilərinə də öz müsbət təsirini göstərib.

Hazırda ölkəmizin quru və dəniz əraziləri üzrə 50-dən artıq yataqda beynəlxalq standartların tələblərinə uyğun olaraq yeni texniki vasitələr və texnologiyalardan istifadə edilməklə, ətraf mühitə ziyan vurmadan və digər amillər nəzərə alınmaqla axtarış-kəşfiyyat və qazma işləri aparılır. Azərbaycan Respublikası Dövlət Neft Şirkətindən redaksiyamıza verilən məlumata görə, ölkədə neftçıxarmanın sabit saxlanması, qaz hasilatının isə artırılması istiqamətində tədbirlər cari ilin birinci rübündə də davam etdirilib. Belə ki, hesabat dövründə SOCAR tərəfindən 20 min metrə yaxın qazma işləri həyata keçirilib. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,6 faiz çoxdur.

Bu ilin ilk rübündə şirkət tərəfindən 1,9 milyon tondan çox neft və 2,2 milyard kubmetrdən çox qaz hasil olunub. Neft hasilatı nisbətən sabit qalsa da, qaz hasilatında əvvəlki ilin eyni dövrü ilə müqayisədə 15 faiz artım qeydə alınıb. Bütövlükdə isə, 2023-cü ilin birinci rübü ərzində ölkə üzrə 7,7 milyon tondan çox neft və 12,2 milyard kubmetrə yaxın qaz hasil edilib. İlin ötən dövründə ölkə üzrə qaz hasilatında 3 faizlik artım qeydə alınıb.

Yeri gəlmişkən, ölkədə hasil olunan neftin və qazın dünya bazarlarına çıxarılması məqsədilə şaxələndirilmiş boru kəmərləri sisteminin yaradılması və müvəffəqiyyətlə istismar olunması Azərbaycan neft sənayesinin şəksiz üstünlüklərindəndir. Azərbaycanın şaxələndirilmiş ixrac sisteminin uğurlu fəaliyyəti əvvəlki dövrlərdə olduğu kimi, 2023-cü ilin yanvar-mart aylarında da davam edib.

Hesabat dövründə SOCAR tərəfindən dünya bazarına 4,6 milyon tondan çox xam neft, Gürcüstan bazarına isə 581 milyon kubmetr təbii qaz ixrac olunub. SOCAR-ın dünya bazarına ixrac etdiyi neft həcmləri ötən ilin analoji dövrü ilə müqayisədə 13,2 faiz artıb. Qeyd edək ki, SOCAR öz imkanları ilə hasil etdiyi neftdən əlavə beynəlxalq konsorsiumlar çərçivəsində özünün və Azərbaycanın payına düşən neft həcmlərini də ixrac edir. Bu baxımdan, cari ilin birinci rübündə ölkə üzrə 6,4 milyon tondan çox neft və 6,3 milyard kubmetrdən artıq qaz ixrac edilib. Ölkə üzrə qaz



ixracında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 7,6 faiz artım baş verib.

Son illər ölkə əhalisinin "mavi yanacaq"la təminatının daha da yaxşılaşdırılması üçün mühüm tədbirlər həyata keçirilir, indiyədək qaz almayan yaşayış məntəqələrində lazımi infrastruktur yaradılır. Təkcə onu qeyd etmək kifayətdir ki, 2022-ci ildə regionlarda 44 şəhər və rayonu, Bakı şəhərində isə 3 rayonu əhatə etməklə 100-ə yaxın kənd və yeni yaşayış massivində paylayıcı qaz şəbəkəsi qurulub. Bu il isə daha 150-yə yaxın yeni yaşayış massivində və kənddə daşıyıcı və paylayıcı qaz kəmərlərinin çəkilməsi nəzərdə tutulur.

Bütün bu işlərin nəticəsidir ki, ölkə üzrə qazlaşmanın səviyyəsi ilbəil artır. Müqayisə üçün qeyd edək ki, 2009-cu ildə Azərbaycanda qazlaşmanın səviyyəsi 62,2 faiz təşkil edirdisə, hazırda bu göstərici 96,3 faizə çatıb. Bu da son 13 ildə 34,1 faiz artım deməkdir. Yeni yaşayış məntəqələrinin "mavi yanacaq"la təminatı isə ölkə üzrə qaz istehlakının artmasına səbəb olur. SOCAR-ın rüblük hesabatına əsasən, cari ilin birinci rübündə ölkə ərazisində təbii qaz istehlakı 4,8 milyard kubmetr təşkil edib.

Azərbaycan dünya bazarında təkcə neft və qazın deyil, həm də neft məhsullarının ixracatçısı kimi tanınır. Son illər ölkəmizin neft emalı kompleksində bir sıra yenidənqurma işləri həyata keçirilib ki, bu da neft məhsullarının istehsalının artırılmasına və keyfiyyətinin yaxşılaşdırılmasına səbəb olub. Cari ilin birinci rübündə SOCAR-ın Azərbaycandakı emal kompleksində 1,7 milyon tona yaxın neft emal olunub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 140 min ton və ya 5,4 faiz artım deməkdir. Hesabat dövründə ölkə üzrə, həmçinin 892 milyon kubmetrdən çox təbii qaz emal olunub.

İlin ilk rübündə SOCAR-ın Azərbaycandakı müəssisələrində istehsal olunan 478,1 min ton neft, neft-kimya və qaz-kimya məhsulları xarici ölkələrə ixrac edilib.

***Mirbağır YAQUBZADƏ, "Xalq qəzeti"***

# Avropa İttifaqı ilə energetika əməkdaşlığı yeni mərhələdə

**Bu gün Brüsseldə Avropa İttifaqı (Aİ) ilə Azərbaycan arasında enerji dialoqu keçiriləcək. Tədbirdə Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simson və Azərbaycanın energetika naziri Pərviz Şahbazov iştirak edəcəklər.**



Avropa Komissiyasının yaydığı məlumata görə, tərəflər Aİ ilə Azərbaycan arasında energetika sahəsində əməkdaşlığın nəticələrini yekunlaşdıracaq və bu sahədə qarşılıqlı fəaliyyətin gələcək inkişaf yollarını müzakirə edəcəklər. Tədbirdə tərəflər, həmçinin ekoloji cəhətdən təmiz enerjiyə keçid üzrə əməkdaşlığın inkişaf yollarını, o cümlədən, bərpa olunan enerji mənbələri, enerji səmərəliliyi və metan tullantılarının azaldılması ilə bağlı fikir mübadiləsi aparacaqlar.

"Aİ və Azərbaycan nümayəndələri xüsusən qaz tədarükü ilə bağlı vəziyyət, o cümlədən enerji daşıyıcılarının tədarükünün diversifikasiyası və Aİ-yə Rusiyadan qazıntı yanacağının idxalının dayandırılması üçün son il ərzində Aİ tərəfindən görülən tədbirlər haqqında məlumat mübadiləsi aparacaqlar. Onlar Aİ-nin səylərinə dəstək olaraq Cənub Qaz Dəhlizinin genişləndirilməsini və Aİ-yə Xəzər qazının əlavə real tədarük marşrutların müzakirə edəcəklər. Ötən il imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunda iki tərəfdaş 2027-ciilədək Aİ-yə ildə ən azı 20 milyard kubmetr qaz tədarük etmək məqsədilə qaz borusunun gücünü ikiqat artırmağı öhdələrinə götürüblər",–Avropa Komissiyasının məlumatında deyilir.

Qeyd edək ki, Avropa İnvestisiya Bankı və Avropa Yenidənqurma və İnkişaf Bankının nümayəndələri də Azərbaycanda "təmiz" enerjinin inkişafına dəstək üçün əlçatan maliyyə vasitələrinin icmalını təqdim etmək məqsədilə Brüsseldə keçiriləcək enerji dialoqunda iştirak edəcəklər.

***"Xalq qəzeti"***



# Ölkəmizlə Türkiyə arasında ticarət ahəngdarlaşır

**İqtisadiyyat naziri Mikayıl Cabbarov "Twitter" səhifəsində etdiyi paylaşımda "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi"nə dəyişiklik haqqında Protokol" imzalandığını bildirib.**

Paylaşımda daha sonra sənədin icrasının qardaş ölkə ilə ticarət dövriyyəsinin artırılması istiqamətində hədəflərin gerçəkləşməsinə növbəti töhfə olacağı qeyd edilib.

Yeri gəlmişkən, son 20 il ərzində Azərbaycanın Türkiyə ilə ticarət əməkdaşlığında yüksək göstəricilər əldə olunub. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, cari ilin yanvar-fevral aylarında ölkəmizin xarici ticarət dövriyyəsinin 12,5 faizi Türkiyə ilə aparılmış ticarət əməliyyatlarının payına düşüb. İxracın 12,3 faizini Türkiyəyə göndərilmiş məhsulların dəyəri təşkil edib.

Onu da xatırladaq ki, cari ilin yanvar-fevral ayları ərzində Azərbaycanın Türkiyəyə qeyri-neft ixracı 78,7 faiz artaraq 273,9 milyon ABŞ dolları səviyyəsinə yüksəlib. Yalnız fevral ayında qardaş ölkəyə ixracın dəyəri 2 dəfə artaraq 167,2 milyon ABŞ dollarına çatıb. Adıçəkilən ixrac dəyərinin əhəmiyyətli artımının əsas səbəbi elektrik enerjisi ilə əlaqədar olub.

***"Xalq qəzeti"***

# Taxıl 335 dolları dək ucuzlaşacaq

**Dünya Bankının (DB) əmtəə qiymətləri ilə bağlı hesabatında qlobal əmtəə bazarlarında buğdanın 2025-ci ilə kimi ucuzlaşacağı bildirilib.**



Bankın proqnozuna görə, bu ilin sonuna kimi buğdanın dünya bazarlarında qiyməti hər ton üzrə 355 dollar (oktyabr proqnozu ilə müqayisədə 55 dollar az) təşkil edəcək ki, bu da 2022-ci illə müqayisədə 22 faiz azdır.

Dünya Bankının proqnozuna görə, 2024-cü ildə buğdanın qiyməti 335 dollara (oktyabr proqnozu ilə müqayisədə 70 dollar az) enəcək.

"Ukraynanın taxıl və yağlı bitkilərinin əksəriyyətinin dünya bazarına çıxmasına kömək edən Qara dəniz taxıl təşəbbüsü və digər əsas istehsalçı ölkələrdə məhsuldarlığın artması qiymət təzyiqlərini azaltmağa kömək edib"–deyə DB-nin hesabatında qeyd edilib.

***"Xalq qəzeti"***

# Azərbaycan XİN: İrəvanın cəfəng iddialarını qətiyyətlə rədd edirik



**"Ermənistanın sərhəd nəzarət-buraxılış məntəqəsi ilə bağlı iddiaları qəbuledilməzdir". Bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistan XİN-in mətbuat katibi Ani Badalyanın "Azadlıq" radiosunun sualına cavabında səsləndirdiyi iddialara dair şərhində öz əksini tapıb.**

"Ermənistan XİN-in mətbuat katibinin "Azadlıq" radiosunun sualına cavabında Laçın yolunda sərhəd-keçid məntəqəsinin təsis edilməsi, Ermənistanın Azərbaycan ərazisindəki silahlı qüvvələri, 8 kəndin hələ də işğal altında saxlanması ilə bağlı səsləndirdiyi cəfəng iddiaların heç bir əsası yoxdur və onları qətiyyətlə rədd edirik", – fikirlərini Azərbaycan XİN absurd sayır. Həmçinin ölkəmizin öz suveren ərazisində sərhəddə nəzarət-buraxılış məntəqəsinin təsis edilməsi barədə legitim qərarının və addımının bütün beynəlxalq hüquq prinsiplərinə və normalara uyğunluğu və İrəvanın Bakının bu qərarına müdaxiləsinin qəbuledilməz olduğu vurğulanır.

Azərbaycan XİN şərhində sonra deyilir: "Göründüyü kimi, Ermənistan tərəfi Laçın yolunda etiraz aksiyalarını şərh edərkən, sözügedən aksiyaların Laçın yolundan qeyri-qanuni fəaliyyətlər və hərbi təxribatlar üçün istifadəyə qarşı yönəldiyini unudub və Beynəlxalq Ədalət Məhkəməsinin müvəqqəti qərarını yanlış təfsir etməkdən çəkinmir. Azərbaycanlı ekofəalların Xankəndi–Laçın yolunda keçirdikləri etiraz aksiyalarının, guya, "Azərbaycan hökuməti tərəfindən təşkil olunduğu" və "Azərbaycanın təbii qazın və s. kommunal xidmətlərin (məsələn, elektrik enerjisi və internet) verilməsinə mane olduğu" barədə Ermənistanın iki əsas iddiasının məhkəmə tərəfindən rədd edilməsi faktını Ermənistanın hələ də həzm edə bilməməsi acınacaqlıdır".

XİN-in şərhində daha sonra qeyd olunur ki, Ermənistanın Azərbaycana qarşı son 30 ildə törətdiyi mina təhdidləri məsələsindən boyun qaçırması və öhdəliyi öz üzərindən atması təəssüf doğurur. Məsələ üzrə sonuncu məhkəmə dinləmələri bir daha göstərib ki, Ermənistanın mina istehsal etmədiyi və basdırmadığı barədə beynəlxalq təşkilatlara açıqladığı hesabatlar yalan üzərində qurulub.

Şərhdə deyilir: "Ümumiyyətlə, müstəqillik qazandığı dövrdən beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq Azərbaycanın beynəlxalq tanınmış ərazilərinə qarşı hərbi təcavüz, kütləvi qırğınlar törədən, işğal altında olan şəhərləri və yüzlərlə kəndi viran qoyan, azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirən, yüz minlərlə əhalini öz doğma torpaqlarından qovan, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini yerinə yetirməyən Ermənistanın Azərbaycanı təcavüzdə, "etnik təmizləmədə" və Ermənistana məxsus kəndlərin işğalında təqsirləndirməsi absurddur".

"Azərbaycan bir daha Ermənistanı Azərbaycana qarşı ərazi iddialarından əl çəkməyə çağırır", – xəbərdarlığı ilə bitən XİN-in şərhində birmənalı şəkildə vurğulanır ki, bölgədə sülh və sabitliyin təminatı Ermənistanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət etməsindən asılıdır.

***"Xalq qəzeti"***

# Erməni cəmiyyəti başqa sərhəd istəyirsə...

## *...deməli, sülh istəmir*

**Ermənistanda Laçın–Xankəndi yolundakı sərhəddə Azərbaycana məxsus nəzarət-buraxılış məntəqəsinin qurulması ətrafında isteriya davam etməkdədir. Haylar elə vay-şüvən qoparıblar ki, səsləri okeanın o tayınadək gedib çıxır. Amma, hələlik, o tayı bir kənara qoyub, tipik erməni həyasızlığının İrəvan seqmenti üzərində dayanmaq istərdik.**



Bəli, belə görünür ki, sərhəd-buraxılış məntəqəsində yoxlamanın keçirilməsinin əksini tapdığı video görüntülərin yayılması erməni avantüristlərini əməlli-başlı haldan çıxarıb. Axı haylar bu vaxtadək belə bir şey görməyiblər. Demək olar, iki yüz ildir o zonada sərhədsiz, istədikləri kimi gəzib, fitnə-fəsad törədiblər. İndi fərqli durum görəndə, şəstlərinə toxunursa–toxunsun!

Əlbəttə, erməni cəmiyyətinin durumdan hiddətlənməyə ixtiyarı yoxdur. Normal düşünsələr, anlayarlar ki, belə yanaşma nəinki səmərəsizdir, eyni zamanda mənasızdır, hətta, ziyanlıdır. Digər tərəfdən, kənardan gülüş doğurur. Yeri gəlmişkən, erməni mediası gülüş səhnələrindən birini yayıb. Yayıb və guya, sərhəd məntəqəsinin qurulmasının qeyri-qanuniliyini "əsaslandırıb". Təsəvvür edin, bir erməni vətəndaş gəlib sərhəddən keçir. Azərbaycanın sərhəd xidmətçiləri onun sənədini yoxlayırlar. Sonra həmin adam durub mediaya açıqlama verir və deyir ki, pasporta möhür vurmadılar. Hələ bir atmaca da atır. Təxminən belə: necə möhür vursunlar, axı, bunu etmək qanunsuzdur.

Təbii, indiki durumda Qarabağa gəliş-gedişin tənzimlənməsi məsələsi bir qədər mübahisəlidir. Amma, heç şübhəsiz, durum tezliklə aradan qalxacaqdır. Hər şeyin öz vaxtı var. Proseslər Qarabağdakı Ermənistan vətəndaşlarına onların ölkəmizdə qalma müddətləri ilə bağlı məhdudiyyətlər tətbiq edilməsinə doğru aparır. Məhz belə olduqda hər şey tənzimlənəcəkdir. Bəli, hadisələr əcnəbilərin Azərbaycanda qalma müddəti ilə bağlı tələblərin oturuşmuş əsaslarının tətbiqinə doğru gedir.

Ancaq mövcud xüsusdakı ilk tədbir kimi Qarabağ ərazisində daimi qeydiyyatı olan şəxslərin müəyyənləşdirilməsidir. Hazırkı şərtlər daxilində bu müəyyənləşdirmə, məhz sərhəddəki nəzarət-buraxılış məntəqəsi vasitəsilə reallaşdırıla bilər. Nəzərə alaq ki, oradan keçən şəxslərin hər birinin foto görüntüsü çəkilir, qeydiyyatı aparılır. Bu prosedurun köməyilə zamanla bölgə əhalisi üçün xüsusi qeydiyyat vərəqələri də hazırlana bilər. Yəni, yaxın iki-üç ayın içərisində bunu etmək mümkündür. Beləcə, müvəqqəti qanuni mexanizmlərin dövriyyəyə girmə imkanları var. Əlbəttə, bu, yuxarıda haqqında söz açdığımız tam mexanizmin gündəmə gəlməsinə qədər mümkündür. Bir daha deyək ki, tam mexanizmin nədən ibarət olması məlumdur: Ya Azərbaycan vətəndaşlığı, ya da qeyri ölkənin, o cümlədən, Ermənistanın vətəndaşlığı arasında seçim.

Sözümüz ondadır ki, Ermənistan cəmiyyətindəki hay-küyün, hazırkı yoxlama prosesini, guya, qanunsuzluq kimi qiymətləndirməyin heç bir anlamı yoxdur. Həm də ona görə anlamı yoxdur ki, indi Azərbaycan, hələlik, güzəşt yolu tutur. Təbiidir ki, güzəşt də müəyyən yerə qədərdir. Getdikcə hər şey yoluna düşəcək və Ermənistana sərf etməyən reallığı dəyişməyin yalnız bir yolu qalacaq.

Yeri gəlmişkən, Ermənistanda həmin yol barədə də söz açılır. Mövcud xüsusdakı yanaşmalardan, nisbətən, pozitiv səciyyə daşıyanını diqqətə çatdıraq. Məsələn, İrəvan Mətbuat Klubunun rəhbəri, ölkənin tanınmış media ekspertlərindən sayılan Boris Novosardyan özünün facebook səhifəsində maraqlı məqama toxunur. Ekspert-jurnalistin fikirləri, müəyyən mənada, erməni cəmiyyətinin gözünü açmaq məramına xidmət edir. Beləliklə, B.Novosardyan bildirir: "Nə istəməyimizdən asılı olmayaraq, biz bir şeyi aydın başa düşməliyik: Həkəri çayı üzərindəki Azərbaycan nəzarət-buraxılış məntəqəsi, yalnız yeni müharibə və ərazilərin bu və ya digər tərəfin xeyrinə dəyişiləcəyi təqdirdə yox olacaq. Ona görə bugünkü səylər onun legitimliyinə meydan oxumağa deyil, iş rejimi, habelə, yoldan istifadə şərtləri ilə bağlı danışıqlar istiqamətində olmalıdır".

Əlbəttə, jurnalist qeyd etdiyi istiqamətdə diplomatik fəaliyyətin gücləndirilməsini və beynəlxalq vasitəçiliyin effektivliyinin artırılmasını da vacib sayır. B.Novosardyanın fikirlərindəki pozitivlik isə budur ki, o, hay-küyün səmərəsizliyi və mənasızlığı üzərində dayanarkən, həm də konkret reallığı ortaya qoyur. Dolayısı ilə bildirir ki, sərhəd məntəqəsinin olmamasını istəyənlər durumu yalnız müharibə ilə dəyişə bilərlər. Bu isə mümkünsüzdür. Çox güman, Novosardyan da mümkünsüzlüyün fərqindədir. Bunu bildiyinə görədir ki, Qarabağa keçid üçün hansısa fövqəladə rejimin tətbiqinə ümid bəsləyir və hesab edir ki, bu, danışıqların köməyilə mümkündür. Başqa nə desin, daş-qalaq edərlər...

Yenə də gələk tipik erməni ambisiyalarının üzərinə. Axı Ermənistan xarici ölkədir. Heç bir halda onun vətəndaşları üçün Azərbaycana girişdə hər hansı bir əlahiddə qayda-qanun tətbiq edilə bilməz. Əgər tətbiq ediləcəksə, o zaman, gərək Azərbaycan vətəndaşlarının da Ermənistanda maneəsiz, yəni pasport nəzarəti olmadan hərəkətləri təmin edilsin. Bu isə qətiyyən mümkün deyil. Əslində, belə bir gözləntimiz də yoxdur.

Ancaq gözləntimiz ola bilər. Bir daha bildirək ki, Ermənistanın və erməni cəmiyyətinin vəziyyətlə barışmaması, Novosardyanın söylədiyi kimi, yeni müharibə perspektivi ilə mümkünləşə bilər. O müharibə ilə ki, onun baş verəcəyi təqdirdə kimin qalib gələcəyi məlum məsələdir... Ona görə erməni ictimai rəyi sakitləşməlidir. Həm də ona görə sakitləşməlidir ki, hazırda sərhəd bizim məqbul saydığımız yerdədir. Ən əsası isə bunu istəməyənlər üçün yeni sərhəd də müəyyənləşdirə bilərik. Əgər çox arzulasalar.

***Ə.RÜSTƏMOV, "Xalq qəzeti"***



# Vaşinqtonun növbəti "Qafqaz demarşı"

**Azərbaycan 44 günlük Vətən müharibəsində tarixi Zəfər qazanaraq ərazi bütövlüyünü bərpa etdi. Bununla da uzun illərdir siyasi leksikonda mövcud olan "Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi" ifadəsi tarixin arxivinə gömüldü və ölkəmiz üçün məsələnin siyasi çözümü başlandı.**

Hazırda əsas məsələ rəsmi Bakının İrəvana təklif etdiyi 5 baza prinsipi üzrə sülh müqaviləsinin imzalanması, Qarabağ iqtisadi rayonunda yaşayan etnik ermənilərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası, qondarma separatçı rejimin ərazimizdə qalan tör-töküntülərinin tam ləğv edilməsi, suverenliyimizin bütün ölkə ərazisində tam şəkildə bərqərar olunmasıdır. Nəyi, necə, nə vaxt etmək lazım olduğunu yaxşı bilən qarşısına qoyduğu hədəfə doğru Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə inamla addımlayır. Sonuncu dəfə aprelin 23-də Laçın–Xankəndi yolunda sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulması bunun bariz nümunəsidir.

Azərbaycan Ermənistanla münasibətlərin nizamlanmasına, yekunda sülh müqaviləsinin imzalanmasına nail olmaq üçün aktiv və məqsədyönlü diplomatik fəaliyyət həyata keçirir. Müharibədən sonrakı dövrdə tərəflər arasında ilk görüş 2021-ci il yanvarın 11-də Moskvada keçirilib. Bundan sonrakı dövrdə iki ölkə liderləri müxtəlif vaxtlarda Soçidə, Brüsseldə, Praqada və Münxendə bir araya gəliblər. Ancaq Ermənistanın qeyri-konstruktiv mövqeyi danışıqlarda irəliləyiş əldə etməsinə imkan vermir. Yeri gəlmişkən, Nikol Paşinyan hökuməti bu məsələdə əvvəlki rejimlərin siyasətinə bənzər siyasət yürüdür. Həm Robert Koçaryan, həm də Serj Sarkisyan sülhdən danışsalar da, son məqamda yekun sülh müqaviləsinin imzalanmasından hər zaman boyun qaçırımışlar. İndi Paşinyanın da bu cür davranması onun sələflərindən geri qalmaq istəmədiyindən xəbər verir. Paradoksallıq isə budur ki, sonuncu özündən əvvəlkilərin siyasətini kəskin tənqid edir.

***

Ermənistanla Azərbaycan arasında sülhün əldə olunmasında Moskva və Brüsselə yanaşı, Vaşinqtonun da diplomatik fəallığı nəzərdən qaçmır. İndiyədək ABŞ-da Dövlət katibi Antoni Blinkenin vasitəçiliyi ilə bir neçə görüş keçirilib. Elə bu ilin fevralın 18-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Prezident İlham Əliyevin Ermənistan baş naziri ilə görüşü məhz dövlət katibinin təşəbbüsü ilə baş tutub.

Aprelin 30-da isə A.Blinken Prezident İlham Əliyevə zəng edib. Telefon danışığında Blinken İrəvanla Bakı arasında sülh müqaviləsi üzrə danışıqların əhəmiyyətini vurğulayıb, bu xüsusda ABŞ-ın dəstəyinin davam edəcəyini önə çəkib. ABŞ Dövlət katibi sülhün əldə edilməsinin mümkünlüyünə inandığını bildirib, həmçinin Azərbaycan–Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsinin qurulması məsələsinə toxunub. Bütün bu məsələlər Vaşinqtonda iki ölkənin xarici işlər nazirləri – Ceyhun Bayramovla Ararat Mirzoyan arasında baş tutan görüşün gündəliyində yer alırdı.

Ümumiyyətlə, Vaşinqton Ermənistan–Azərbaycan münasibətlərinin normallaşması prosesində hər zaman aktiv iştirakı ilə seçilib. Təkcə onu qeyd etmək yerinə düşər ki, münaqişənin bütün tarixi boyunca ən uzunmüddətli danışıqlar ABŞ-da keçirilib. 22 il öncə – 2001-ci ilin 3-6 aprel tarixlərində Florida ştatının Ki-Vest şəhərində ilk dəfə ABŞ-ın ovaxtkı Dövlət katibi Kolin Pauellin vasitəçiliyi ilə fasiləsiz olaraq 4 gün danışıqlar aparılıb. Dünyanın superdövləti indi də regionda təşəbbüsü əldən vermək istəmir.

Rəsmi Vaşinqton Ermənistanla Azərbaycan arasında vasitəçilik səylərinə həm də bu bölgəni Rusiyanın təsirindən çıxarmaq vasitəsi kimi baxır. Nəzərə almaq lazımdır ki, artıq növbəti görüşün Rusiyanın təşəbbüsü ilə XİN rəhbərləri səviyyəsində Moskvada keçiriləcəyi məlumdur. Eyni zamanda Avropa Siyasi Birliyinin növbəti sammiti Moldovanın paytaxtı Kişinyovda baş tutacaq. Burada da Azərbaycan və Ermənistan liderləri arasında təmasların olması nəzərdə tutulub. Yeri gəlmişkən, bundan öncə Avropa Siyasi Birliyinin Praqada keçirilən təsis sammitində dördtərəfli (Azərbaycan, Ermənistan, Avropa İttifaqı və Fransa rəhbərlərinin iştirakı ilə) görüş keçirilmişdi. Bu görüşdə Ermənistan Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını bildirmiş və tərəflər Almatı Bəyannaməsinə, eləcə də BMT Nizamnaməsinə sadiqliklərini vurğulamışdı.

### Ekspert rəyi



**İlyas HÜSEYNOV, politoloq**

– ABŞ strateqləri Cənubi Qafqazda sülhün əldə olunmasında çox maraqlıdırlar. Bir-birinin ardınca həyata keçirilən səfərlər, telefon danışıqları və görüşlər də bunu deməyə əsas verir. Eyni zamanda bəzi ehtimallara görə, ABŞ-ın özünün sülh variantı var. Bu sülh variantı Nikol Paşinyana təqdim olunub. Paşinyana yaxın media orqanları qeyd edirlər ki, bu sülh variantında Ermənistanın maraqlarına cavab verməyən bəzi müddəalar var. Artıq ehtimal edirik ki, bu müddəlar ərazi bütövlüyü, Qarabağ ermənilərinin Azərbaycan cəmiyyətinə reinteqrasiyası ilə bilavasitə bağlı ola bilər. Eyni zamanda Ermənistanla sərhəddə – Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsi yaratdıqdan sonra, əlbəttə, zəmin üzərində mövqeyi güclənib. Digər tərəfdən, bu mövqe həm də diplomatik masaya təsir edir. Qeyd etməliyik ki, aprelin 30-da ABŞ Dövlət katibi Antoni Blinkenlə cənab İlham Əliyev arasında telefon danışığı olub. Xüsusilə vurğulamaq lazımdır ki, Ermənistan sülh təşəbbüslərinin üzərindən xətt çəkir. Bir-birinin ardında baş verən hadisələr – bayrağımızın yandırılması, eləcə də əsir düşmüş hərbi qulluqçularımıza dözülməz işgəncələrin verilməsi, şərti sərhəddə baş verən hərbi-siyasi təxribatlar böyük ölçüdə sülh danışıqlarına zərbə vurur, eyni zamanda sülhlə bağlı yaranan bütün ilkin konturların üzərindən xətt çəkir.

Hazırda Qərbin əsas taktikası bundan ibarətdir ki, qarşıdakı dövrdə keçiriləcək Moskva görüşünün heç bir xüsusi çəkisi olmasın və tərəflər bütün mövqelərini maksimum dərəcədə Vaşinqtonda yaxınlaşdırsınlar. Ümid edək ki, bütün proseslər Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı çərçivəsində öz məntiqi nəticəsini tapacaq.

Göründüyü kimi, Moskva və Brüsselə yanaşı, Vaşinqtonun da aktivliyi artmaqdadır. Ancaq Azərbaycan üçün təşəbbüsün hansı coğrafiyadan, hansı paytaxtdan, okeanın o tayından, yoxsa bu tayından gəlməsinin prinsipcə əhəmiyyəti yoxdur. Təki uzunmüddətli silahlı qarşıdurmadan sonra bölgədə sülh olsun!

***Səxavət HƏMİD, "Xalq qəzeti"***

# Erməni separatizmi etnik-psixoloji xəstəlikdir

**Separatizm, terror, soyqırımı və deportasiya tarixdə insanlığa qarşı törədilən kütləvi cinayətlər sırasında yer alıb. Bu baxımdan ermənilərin dini və milli dözümsüzlüklə Qafqazda, Anadoluda və İranda türk soyuna qarşı törətdiyi bu cinayətlərin mütəşəkkilliyi, davamlılığı və amansızlığı xüsusi hal təşkil edir.**

**Bu tarixi avantürizmin milli psixoloji natamamlıqdan qaynaqlanması artıq heç bir şübhə doğurmur. Müsahibimiz Bakı Dövlət Universitetinin dosenti, psixologiya üzrə fəlsəfə doktoru İmdad Bayramovun elmi-təcrübi qənaətlərini oxucularımıza çatdırırıq.**



***– Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə başlanmış və 35 ildən artıqdır ki davam edən sonuncu separatçı hərəkat terror, soyqırımı və deportasiya əməlləri ilə genişlənib, Qarabağda 2 qanlı müharibə ilə nəticələnib. Təəssüf ki, konkret bir soya qarşı yönəldilmiş bu hərəkatlar və onların dəhşətli nəticələri beynəlxalq aləmdə, az-çox, tarixi təsvirini tapsa da, hüquqi baxımdan qiymətini almayıb və qədərincə ittiham olunmayıb.***

– Dünya erməniliyinin xalqımıza qarşı bu düşmənçiliyini və Ermənistanın ölkəmizə hərbi-siyasi təcavüzünə hazırlıq məsələlərini tədqiq etmək üçün tarixə müraciət etməyi zəruri hesab edirik. Ermənilərin müxtəlif bölgələrdə separatizm və soyqırımlar törətməsi tarixdə qanlı izlər qoyub. Bunu vacib edən amillərdən başlıcası "Böyük Ermənistan" barədə xülyaları reallaşdırmaq cəhdləri olub.



Belə bir xülyanın gerçəkləşdirilməsində Rusiya imperiyasının dəstəyinə nail olmaq istəyən ermənilər hər vasitə ilə ona qulluq göstərməyə çalışıblar. Beləliklə, heç vaxt dövləti və dövlətçilik tarixi olmayan, dünyanın müxtəlif bölgələrinə səpələnmiş, köçəri həyat tərzi keçirən ermənilər Anadoluda və Qafqazda özlərinə dövlət qurmaq üçün bəşəriyyət əleyhinə cinayətlər olan separatizm və terrorizmi mübarizə üsulu seçməkdən çəkinməyiblər. 1988-ci ildə Ermənistanda Azərbaycana qarşı baş qaldıran sonuncu separatçı hərəkatın doğurduğu münaqişə isə iki ölkə arasındakı genişmiqyaslı hərbi toqquşmalarla müşayiət edildi. İmperialist dairələrin, xristian mərkəzlərin açıq-gizli himayəsi ilə davam edən bu hərbi təcavüz beynəlxalq səviyyədə tanınmış Azərbaycanın suveren sərhədləri daxilində Qarabağ və 7 ətraf rayonun işğal altına düşməsi ilə nəticələndi.

Azərbaycanın tarixi torpaqları olan Qarabağın dağlıq hissəsində erməni separatçılığı öz sosial-psixoloji xüsusiyyətlərinə görə etnoseparatçılığın ən radikal və qəddar formasıdır. Buna görə də erməni separatçılığının sosial-psixoloji baxımdan öyrənilməsi, istər 35 ildən artıq davam edən münaqişədə sülhün əldə edilməsi, istərsə də regionun sabit, ahəngdar inkişafı üçün, müəyyən tədbirlərin həyata keçirilməsini zəruri edir.

***–Lakin Azərbaycanla aparılan ədalətsiz müharibənin sonunda uduzan Ermənistan bununla barışmaq istəmir, bu başabəla ölkədə separatçı və revanşist çağırışlar davam edir, sərhəddə və Qarabağda hərbi-siyasi təxribatlar, ekoloji və mina terrorları törədilir.***

–Bunun dərin və fəsadlaşmış etnik-psixoloji kökləri var. Dövrümüzdə mütərəqqi bəşəriyyət üçün ciddi təhlükə sayılan etnik separatizmin ən qorxulu təzahürlərindən biri təcavüzkar erməni separatizmidir. Bu xalq özünü belə bir sağalmaz bəlaya düçar edib. Özgə torpaqlarını ələ keçirməyə şirnikləndirilmiş erməni toplumu bu xəstəliyin ağır formasına yoluxub. Açıq şəkildə bütün türklüyə qarşı nifrət hissi aşılayan bu erməniliyin mahiyyətini qonşu xalqlara qarşı ərazi iddiaları irəli sürmək təşkil edir.

Ermənistanda dövlət siyasətinə çevrilmiş bu avantüranın əsasında genosid, terror, deportasiya və müharibə yolu ilə ələ keçirilən yad torpaqları hesabına öz cılız milli maraqlarına xidmət edən uydurma "Böyük Ermənistan" ideyasına nail olmaq durur. Ermənilikdə formalaşmış konyunkturalı separatçılıqla dünyaya baxış sistemi XVIII - XIX əsrlərdən başlayaraq inkişaf edib. Bu səbəbdən də mövzunun ənənəvi erməni siyasi partiyalarının və gizli silahlı birləşmələrinin fəaliyyəti müstəvisində deyil, etnopsixoloji kontekstdə diqqətə çatdırılması aktuallıq daşıyır.

Azərbaycana qarşı erməni terrorunun son əsrlərdəki tarixi göstərir ki, həmişə bölgənin və ətraf aləmin ictimai mühitində sistem dəyişiklikləri baş verərkən ermənilikdə traybalizm və probabilizm elementləri daha qabarıq və sərt formatda fəallaşır. Bu onu göstərir ki, ermənilikdə separatçılıq xarakteri klassik əlamətdir. XVIII əsrdən başlayaraq ictimai-siyasi hadisələrin inkişaf tendensiyasını dini mənsubiyyət mövqeyindən həll etməyi qətiləşdirən erməniliyin XX əsrin əvvəllərində, xüsusilə də Rusiyada inqilablar dövründə müxtəlif məsləkli siyasi dairələrə sızaraq məhz etnik-dini toplum halında təşkilatlanması, bu toplumun siyasi məqsədlərinin qanunsuz silahlı təhdidlərlə həll olunmasını israrla davam etdirməsi separatçılıq xarakterindən irəli gəlib.

Birmənalı olaraq görünür ki, ermənilər psixoloji tipinə görə daha çox şovinist təbiətlidirlər. Çünki erməni kilsəsi tarixən bu xalqın şüuruna "biz məzlum və seçilmiş ermənilər, qatil və düşmən türklərdən qisas almalıyıq" stereotiplərini aşılamışdır. Bu stereotipləri qoruyub saxlamaq üçün onları milli-etnik mərasimlərdə psixoloji olaraq şüurlarda canlandırırlar. Bunun üçün uydurulmuş "erməni soyqırımı" psixoloji baxımdan erməni xalqını psixoloji əsarətdə saxlamağa kömək edir.

Belə bir etnosentrizm ilkin mərhələdə adi görünsə də, sonradan separatçılıq mərhələsinə keçir. Bu keçid özünü ideallaşdırmaq, digərlərini alçaltmaq hesabına baş verirsə, o, separatçılığın ilk mərhələsi hesab oluna bilər. Digərlərinə qarşı intolerant münasibətlər dinamikasında separatçılıq qaçılmaz sosial hadisəyə çevrilir. Kollektivist mədəniyyətlər etnosentrist xarakterli olur. Ermənilərdə bu kollektivist etnosentrist mədəniyyət qriqorian kilsəsi ətrafında formalaşmışdır. Çünki bu xristian kilsəsi yalnız erməni millətinə mənsub olan qriqorian təriqətinə xidmət edir. Bu baxımdan ermənilərdə din milli xarakter daşıyır.

Qədimlik, böyüklük barədə şüurda yaradılan yanlış təsəvvürlər erməni xalqının qonşu etnoslarla olan münasibətlərinə daim maneçilik törətmiş, onların milli özünüdərkinə xələl gətirmiş, etnik dözümsüzlük, nifrət hisslərinin güclənməsinə şərait yaratmışdır. Bu hisslər həm də daxildə korafəhm etnik birliyin möhkəmlənməsinə, düşmənə qarşı davakar diaspor şəklində təşkilatlanmaya səbəb olub.

***– Erməni separatizminin elmi-tarixi kökləri olmasa da bəlalı nəticələri Qafqazı dəfələrlə qanlı diyara çevirib, Azərbaycanın 20 faiz ərazisi cəhənnəmə çevrilib. Lakin bu inadcıl separatizm sonda avantürist və ədalətsiz mahiyyətinin qurbanına çevrildi.***

– Separatizm təhlükəsinə vahid dövlətin reaksiyası üçün bir çox variant var. Onları şərti olaraq iki qrupa bölmək olar: güc (silahlı) reaksiyaları və gücsüz (silahsız) reaksiyalar. Hər iki reaksiya bir-biri ilə sıx bağlıdır. Problemin güc yolu ilə həlli danışıqlar prosesinin potensialı tükəndikdən sonra baş verir. Dünyanın istənilən dövləti beynəlxalq müqavilələr və dünya ictimaiyyətinin rəyi ilə hesablaşmaya bilməz. Və o, birmənalı olaraq belə ifadə olunur: müasir siyasətdə münaqişənin sülh yolu ilə həlli üçün ən kiçik bir şans varsa, zorakı qərarlara yer yoxdur.

İkinci Qarabağ müharibəsinin nəticələri göstərdi ki, ermənilər həqiqətən xəstə psixoloji təfəkkürə malik olan bir xalqdır. Onlar işğal etdikləri Qarabağ ərazisində 30 il müddətində nəinki quruculuq işləri aparmamış, əksinə, ərazidə olan bütün mədəniyyət abidələrini, qəbirləri, evləri, məscidləri sökmüş, daş üstə daş qoymamış, təbiətə zərər yetirmiş və tərk etdikləri əraziləri minalamışlar. Onların Qarabağda etdikləri vəhşiliklərin nəticəsini Yaponiyaya atılmış atom bombasının nəticələri ilə müqayisə edirlər. Əslində, bu kütləvi vandalizm ermənilərin etnik psixoloji durumunu ortaya qoyur.

Həqiqət isə budur ki, rəşadətli Azərbaycan Ordusu Vətən müharibəsində 30 ildən artıq işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirilməklə yanaşı, düşmənin bu illər ərzində yaratdığı "yenilməzlik" mifini də darmadağın etmiş oldu. Bununla yanaşı, Prezident İlham Əliyevin xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələri, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, davam edən hərbi əməliyyatlarla bağlı tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanan, tutarlı arqumentlər üzərində qurulan aydın açıqlama və bəyanatları ölkəmizin haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Həmçinin, bu müsahibələr informasiya məkanında da düşmənin yalan üzərində qurulmuş təbliğat maşınına ağır zərbə vurdu.

***Hazırladı:***
***Tahir AYDINOĞLU, "Xalq qəzeti"***

# Bir şeirin tarixçəsi

**1977-ci ilin iyul ayında gənc şair Nüsrət Kəsəmənli Göyçənin Toxluca kəndində bir neçə günlük qonaq olmuşdu. Onu Toxluca kəndinə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin tələbəsi Şəmşəd Bayramov dəvət etmişdi.**

O zaman yay tətili olduğundan kənd ziyalılarının çoxu toxlucada idi. İlk gündən N.Kəsəmənli ilə görüş bizə xoş təsir bağışladı. Danışığı, səmimiyyəti, mehribanlığı onunla söhbətimizi daha da şirinləşdirirdi. Nüsrət müəllim kənddən gedəndən sonra Toxlucaya, sakinlərinə olan məhəbbətini, kəndin qəhrəmanlıq tarixini "Toxluca" şeirində bədiiləşdirməklə əbədiləşdirdi. Onun bu mənzuməsində Toxlucanın təbii mənzərəsi, qəhrəmanlıq tarixi , aşıq havalarının mayalarına hopduğunu poetik dillə tərənnüm edilmişdir.




Xatırladım ki, 1918–1920-ci illərdə Toxluca kəndindən qovulanlar Ermənistanda sovet hakimiyyətinin qurulmasından istifadə edərək 1922-ci ildə öz doğma yurdlarına qayıda bilmişdilər. Lakin Ermənistan dövlətinin azərbaycanlılara qarşı yeritdiyi ayrı-seçkilik siyasəti XX əsrin 30–80-ci illərində də davam etmiş, soydaşlarımız fiziki və mədəni soyqırımına məruz qalmışlar. Bu da azərbaycanlıların yaşadığı kəndlərin, o cümlədən Toxlucanın sosial-mədəni inkişafına həmişə çox pis təsir göstərmiş, azərbaycanlı sakinlərin konstitusiya hüquqları nəzərə alınmamış, tapdalanmışdır.

Çəmbərək (Krasnoselo) rayonundakı azərbaycanlılar 1988-ci ilin mart–dekabr aylarında ermənilərin mühasirəsi şəraitində yaşamışlar. İrəvanla, eləcə də Ermənistanın digər şəhərləri ilə əlaqə saxlamaq nəinki çətin idi, hətta əlaqə saxlamaq, gedib gəlmək mümkün deyildi. Rayonda hadisələrin ən zirvə nöqtəsi 1988-ci ilin noyabrın 24-də oldu. O gün Krasnoselo RPK-nın XXXI konfransı keçirilirdi. Toxluca kənd orta məktəbinin direktoru olduğum üçün həmin konfransda mən də iştirak edirdim. Bütün hadisələr gözlərimin önündə baş verirdi.

1988-ci il 24 noyabr səhər saat 10:00-da başlanan konfrans 25 noyabr səhər saat 4:00-da yekunlaşdı. 18 saat davam edən bu konfrans qarşısına bir məqsəd qoymuşdu: azərbaycanlıları mütləq rayondan qovmaq. Konfransda iştirak edən Ermənistan KP MK-nın təbliğat-təşviqat şöbəsinin müdiri Asatryan tribunadan açıq-aşkar bəyan etdi: "Ermənistan ermənilərindir. Burada yalnız ermənilər yaşamalıdır. DQMV-ni Ermənistana birləşdirmək isə xalqımızın əsas məqsədidir".

Bu konfransdan sonra 1988-ci ilin noyabr ayının 25-dən silahlı erməni quldurları azərbaycanlı kəndlərinə hücumlara başladılar. Rayondakı azərbaycanlılar, həmçinin Toxluca kəndinin sakinləri var-dövlətini, ev-eşiyini, mal-qarasını atıb dan üzü saat 3-də qışın şaxtalı, qarlı-boranlı günündə dağlardan, dərələrdən keçib Azərbaycana gəldilər. Beləliklə, Toxluca kəndinin sakinləri də digər Qərbi azərbaycanlılar kimi, tarixi-etnik torpaqlarından deportasiya olundular.

Həyatdan vaxtsız getmiş gözəllik şairi Nüsrət Kəsəmənlinin təqdim etdiyim şeiri bizə Toxlucalı günlərimizi xatırlatdığından kənd ziyalılarının dilinin əzbəridir.

***İbrahim BAYRAMOV,***
***ADPU-nun şöbə müdiri, professor***

## Toxluca

**O dağlarda bir kənd qaldı,**
**ulu bir kənd – Toxluca,**
**Qarşı dağlar ola bilməz**
**bir bəstəboy oğluca...**
**Gündoğana baxar onun xana-xana evləri,**
**Bir-birinə qısılıbdır ana-bala evləri.**
**Bahar vaxtı laləlvalər, batar qana evləri,**
**Çəmənləri mavi dəsmal, bulaqları ballıca,**
**O dağlarda bir kənd qaldı,**
**ulu bir kənd – Toxluca.**

**Qocaları bir qayadır,**
**illər ötüb yel kimi,**
**Qönçə-qönçə uşaqları**
**bahar öpmüş gül kimi,**
**O dağların başı üstə**
**düyümlənib əl kimi...**
**Sal qayalar ovxarlanıb,**
**dönüb yalın qılınca,**
**O dağlarda bir kənd qaldı,**
**ulu bir kənd – Toxluca.**

**O dağların sinəsində**
**Göyçək elim var mənim,**
**Göy gölümün əkiztayı**
**Göyçə gölüm var mənim,**
**Ləpələrin nəğməsində**
**"Göyçəgülü"m var mənim.**
**Nəğmələri elə sığmaz,**
**söz-söhbəti bolluca,**
**O dağlarda bir kənd qaldı,**
**ulu bir kənd – Toxluca,**
**Qarşı dağlar ola bilməz**
**bir bəstəboy oğluca...**

***Nüsrət Kəsəmənli***

**Çəmbərək, 1977**

# Qərbi Azərbaycanda aparılmış etnik təmizləmə cinayəti

**XIX əsrin əvvəllərində Rusiya imperiyası Azərbaycanın Araz çayından şimaldakı torpaqlarını müharibə yolu ilə işğal etdikdən sonra bu ərazidə müstəmləkə idarəçilik sistemi qurmaqla yanaşı, yerli Azərbaycan türklərinin və digər müsəlman əhalisinin sıxışdırılmasına da qərar verdi. Bu siyasətin nəticəsi olaraq Rusiya hökuməti, ilk növbədə, Qərbi Azərbaycan ərazisinin sürətlə erməniləşdirilməsinə başladı.**

Bunun ardınca çarizm inzibati dəyişikliklər edərək qondarma "erməni vilayəti" adlanan ərazi yaratdı. Ermənilərin xaricdən bu bölgəyə kütləvi köçürülməsi təşkil edildi. Bu köcürmələr ermənilərin bölgədə süni surətdə çoxalması ilə nəticələndi, yüz minlərlə Azərbaycan türkü öz doğma yurd-yuvasından didərgin salındı. Ermənilər bu ərazilərdə yerləşdikdən sonra cinayətkar əməllər törətmək üçün təşkilatlanmağa başlayaraq, münasib zamanın gəlməsini gözlədilər. İlk belə bir məqam çar Rusiyasında baş verən 1905–1907-ci illər inqilabı oldu.

Bölgədə inqilabın hökumət əleyhinə güclənməsinin qarşısını almaq üçün çar hökuməti etnik münaqişənin baş verməsində maraqlı oldu. Ermənilərin bölgədə türk-müsəlman əhaliyə qarşı törətdikləri qanlı cinayətlərə göz yummaqla hakimiyyət orqanları bir növ bu soyqırımı aktlarına dəstək verdi. Hətta türk-müsəlman əhalisinə qarşı ermənilər tərəfindən törədilən bu qırğınlarla bağlı 1906-cı ildə Dumanın müsəlman fraksiyasının müraciətinə də baxılmamışdı. Çünki ermənilərin bölgədə törətdiyi bu cinayətlər hökumətin bölgədəki maraqlarını təmin edirdi.

Ermənilər tərəfindən törədilmiş bu cinayətlərlə bağlı arxiv materialları minlərlə azərbaycanlının vəhşicəsinə öldürülməsi faktına şahidlik edir. O zaman zorakılıqlardan yaxa qurtarmaq üçün on minlərlə azərbaycanlı yaşadığı əraziləri tərk etmək məcburiyyətində qalmışdı. Bu hadisələrdən sonra ermənilər bir müddət gözləmə mövqeyi tutaraq növbəti cinayətlərə hazırlıq görməyə başladılar. Birinci Dünya müharibəsinin başlanması ilə ermənilər yenə də öz cinayətlərini törətmək üçün məqamın yetişdiyini düşünərək hərəkətə keçdilər.

Nəhayət, XX əsrin əvvəllərində Rusiyanın davam edən imperialist siyasəti nəticəsində Qərbi Azərbaycan vilayətlərində 1918-ci ildə Ararat (Ermənistan) Respublikası elan edildi. Bu respublika elan edilən də heç onun paytaxtı da yox idi. Azərbaycan şəhəri İrəvan bu məqsədlə daşnaklara peşkəş edilmişdi. Bu lütfkarlığa baxmayaraq,1918–1920-ci illərdə ermənilər terror dəstələri yaradaraq Azərbaycan türklərinə qarşı kütləvi cinaytlər törətmişdilər.



Bu illər ərzində yüz minlərlə azərbaycanlı ermənilərin yaratdığı terror dəstələri tərəfindən qətlə yetirilmişdi, yüz minlərlə soydaşımız bölgəni tərk etmək məcburiyyətində qalmışdı. Azərbaycan Respublikası Dövlət Tarix Arxivində olan sənədlərdən aydın olur ki, təkcə Zəngəzur ərazisində 10 min 68 nəfər qətlə yetirilmiş, 50 mindən çox əhali isə canlarını qurtarmaq üçün doğma yurdunu tərk edərək qaçqın kimi ayrı-ayrı bölgələrə getmişlər.

1920-ci ildə regionda bolşeviklərin hakimiyyətə gəlməsi ilə bu prosesslər başqa bir istiqamətdə cərəyan etməyə başladı. Bolşevik-daşnak birləşmələri minlərlə milli düşüncəli qabaqcıl ziyalını məhv etdi. Cənubi Qafqazda Azərbaycan türklərinə qarşı bolşevik hökumətinin yeritdiyi bu siyasət sonradan dövlət səviyyəsində Azərbaycan türklərinin bu bölgədən etnik təmizlənməsinə yönəldildi. II Dünya müharibəsindən sonra sovet hökumətinin Türkiyə ilə münasibətlərinin gərginləşməsindən istifadə edən ermənilər yenə də hərəkətə keçərək Azərbaycan türklərinin bölgədən tamamilə köçürülməsinə nail olmağa çalışırdılar.

1947-ci ildə SSRİ Nazirlər Soveti Azərbaycan türklərinin Qərbi Azərbaycandan köçürülməsi ilə bağlı qərar qəbul etdi və 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə isə 50 min nəfərin köçürülməsi nəzərdə tutuldu. Bu qərar nəticəsində on minlərlə Azərbaycan türkü bölgədən köçürüldü, minlərlə soydaşımız yollarda, çöllərdə məhv oldu. Ancaq bu basqılara baxmayaraq, xeyli Azərbaycan türkü öz ata-baba yurdunu tərk etməkdən imtina etdi.

Azərbaycan türklərinin Qərbi Azərbaycanda etnik təmizləməyə məruz qaldığı son faciəli hadisələr sovet imperiyasının çökməsi zamanı baş verdi. Erməni millətçiləri regionda yaranmış dağıdıcı vəziyyətdən və başıpozuqluqdan istifadə edərək sonuncu etnik təmizləmə siyasətini tam həyata keçirə bildilər. 1988-ci ildə başlayan bu deportasiya nəticəsində 1991-ci ildə sonuncu Azərbaycan türkü də bugünkü Ermənistan (Qərbi Azərbaycan) ərazisindən zor gücünə çıxarıldı.

Qərbi Azərbaycan ərazisindən 53 mindən artıq ailə məcburi qaydada bu əraziləri tərk etməli oldu. 1988-ci ildə Ermənistan SSR ərazisinin 261 kəndindən 200 mindən çox azərbaycanlı qovuldu, onlara məxsus 31 mindən artıq ev içindəki əşyalarla birlikdə ermənilər tərəfindən ələ keçirildi.

Bu gün dünyanın nadir ölkələrindən biri kimi Ermənistan monoetnik bir respublikadır. Ermənilərin Azərbaycan türklərinə qarşı törətdiyi davamlı, sistemli vəhşiliklər isə tarixə insanlığın qara ləkəsi, erməniliyin bəşəri cinayətləri kimi yazılıb.

***Bəxtiyar HƏSƏNOV,***
***AMEA Tarix İnstitutunun Qərbi Azərbaycan tarixi şöbəsinin aparıcı elmi işçisi, fəlsəfə doktoru***

# Formula 1 Bakı yarışı yaddaşlarda dərin iz buraxdı

## Serxio Peres yenidən Bakı trekini fəth etdi

**Paytaxt Bakı yeddinci dəfə nüfuzlu Formula 1 Azərbaycan Qran-Prisinə yüksək səviyyədə evsahibliyi etdi. Formula 1 tarixində təqvimin ən dramatik yarışı kimi xatırlanan, qısa müddətdə azarkeşlərin ən sevimli yarışına çevrilərək dünyanın hər yerindən minlərlə ziyarətçini özünə cəlb edən Bakı yürüşü bu dəfə də yaddaşlarda unudulmaz iz qoydu. Bu dəfə də yürüş iştirakçıları və tamaşaçılar toqquşmalarla dolu gərgin trek mübarizələrinə, ən sürətli şəhər trasında yaşanan həyəcan dolu anlara, yarış liderlərinin qəzalarına – mövsümün sürprizlərlə dolu Bakı yarışına şahidlik etdilər.**



**Formula 1 Azərbaycan Qran-Prisinin üçüncü günü – əsas yarış gününə Formula 2 üzrə sprint yarışı ilə start verilib.** Əvvəlki yarışlar kimi, bu yürüşdə də gərgin mübarizə gedib. “Hitech”dən İsak Hacar uzun müddət lider olsa da, bunu sonadək davam etdirə bilməyib. “PHM Racing” pilotu Bred Benavides isə qəza nəticəsində təhlükəsizlik maneəsinə çırpıldığı üçün yarışı dayandırıb. “Prema Racing”in



pilotu Oliver Bearman isə əzmkarlığı nəticəsində 29 dövrənin tamamında hamıdan güclü olduğunu təsdiqləyib. “Rodin Carlin”dən Enzo Fittipaldi ikinci, “Art Grand Prix”in sürücüsü Teo Purşer üçüncü yeri tutublar. Onlar sıralama turunda da müvafiq yerlərdə qərarlaşmışdılar.

**Formula 2-nin əsas sprint yarışından sonra Azərbaycan Avtomobil Federasiyasının təşkilatçılığı ilə klassik avtomobillərin yürüşü təşkil edilib.** Bir dövrədən ibarət olan yürüşdə müxtəlif illərə aid 30-a yaxın klassik avtomobil nümayiş etdirilib. Klassik avtomobillər yürüşü izləmək üçün gələn azarkeşlərin böyük marağına səbəb olub.

Sonra Qran-Prinin açılış mərasimi keçirilib.

Açılış mərasimində Azərbaycan Respublikasının Dövlət Himnini “Eurovision-2018” müsabiqəsində Azərbaycanı təmsil edən Aysel Məmmədova səsləndirib.

**Formula 1 Azərbaycan Qran-Prisinin əsas yarışı başlayıb.**

Formula 1 yarışında hər biri iki pilotdan ibarət 10 komanda mübarizə aparıb. Pilotlar 2 saat ərzində Bakı şəhər trekində 51 dövrə vurublar. Sürət ustaları arasında gedən gərgin rəqabət zamanı bolidində problemlər yarandığı üçün “Alpha Tauri” komandasının pilotu Nik de Vris mübarizəni dayandırıb. “Alfa Romeo”nun pilotu Cou Quanju da bolidindəki texniki problemlərə görə yarışdan kənar qalıb.

Beləliklə, hamıdan güclü olduğunu sübut edən “Red Bull Racing” komandasının pilotu Serxio Peres Bakı Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsi – Azərbaycan Qran-Prisinin qalibi olub. Onun komanda yoldaşı Maks Ferstappen ikinci, “Ferrari”nin sürücüsü Şarl Lakler isə üçüncü pillələrdə yer alıblar.

Bununla da Serxio Peres ikinci dəfə Formula 1 Azərbaycan Qran-Prisinin qalibi olub. Meksikalı pilot cari mövsüm və Bakı şəhər halqasında ikinci, karyerasında isə altıncı qələbəsini qazanıb. Azərbaycan Qran-Prisi tarixində ilk dəfə bir pilot iki dəfə podiumun ən yüksək pilləsinə qalxıb. Belə ki, S.Peres 2021-ci ildə Bakı mərhələsində birinci olub. Bu, Serxio Peresin cari mövsüm



ikinci uğurudur. O, Səudiyyə Ərəbistanı Qran-prisində də birinci olub.

Yarışdan sonra fikirlərini bölüşən Serxio Peres çətin keçən yürüşdə Maks Ferstappenin təzyiqinə dözdüyünü bildirib: “Bakıda iki qələbə? Əslində, iki yarım. Təhlükəsizlik maşını çıxanda liderliyi ələ keçirə bildik. Bu gün ikimiz də yaxşı sürət yığdıq, hətta bir-iki dəfə divara toxunduq. M.Ferstappen mənə həqiqətən də çətin anlar yaşatdı. Ancaq hər şeyi nəzarətdə saxlamağı bacardım”.

**Sonra Formula 1 Azərbaycan Qran-Prisinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.** Əvvəlcə qalib idmançının və komandanın şərəfinə müvafiq olaraq Meksika və Avstriyanın dövlət himnləri səsləndirilib. İlk üç yerin sahiblərinə mükafatlar təqdim edilib.

**Beləliklə, nüfuzlu Formula 1-in “Gözlənilməzə hazır ol” şüarı ilə keçirilən Bakı yarışı əvvəlki illərdə olduğu kimi, bu dəfə də sürət həvəskarlarına yüksək rəqabət, gərgin mübarizələrlə zəngin olan yürüş bəxş etdi.** Bakı trasında keçirilən yarışdan danışarkən istər pilotlar, istərsə də azarkeşlər ilk növbədə sürəti qeyd edirlər. Elə doğma trekimizdə Serxio Peresin ikinci dəfə qalib olmasına münasibət bildirən “Red Bull Racing” komandasının rəhbəri Kristian Horner də Peresin həlledici məqamda sürətli olmasını xüsusi vurğulayır: “S.Peres həmişə Bakı şəhər halqasında möhtəşəm çıxış edir. Düzü bunun hansı səbəbdən qaynaqlandığını bilmirəm. O, Azərbaycan Qran-Prisində uğurlu mübarizəsi ilə yadda qalır. O, bu gün çox sürətli idi. Rəqibləri arasında vaxt fərqini artırmağı bacarmışdı. Həqiqətən o, Azərbaycan Qran-Prisində inanılmaz idi”.

Qeyd edək ki, “Aston Martin” komandasının pilotu Fernando Alonso cari mövsüm ilk dəfədir ilk üçlükdə yer almayıb. Belə ki, pilot Bəhreyn, Səudiyyə Ərəbistanı və Avstraliya Qran-prilərində üçüncü yeri tutub. Hazırda aktivində 60 xal olan F.Alonso pilotların sıralamasındda üçüncü pillədə yer alıb.

“Red Bull Racing” komandasının pilotu Maks Ferstappen Formula 1 Azərbaycan Qran-Prisində ikinci olsa da, pilotların sıralamasında liderliyini davam etdirir. Niderlandlı pilotun aktivində 93 xal var və sıralamada birincidir. Serxio Peres isə 87 xalla ikinci pillədə yer alıb. İlk üçlüyü “Aston Martin”in ispaniyalı sürücüsü Fernando Alonso tamamlayıb. Formula 1-in Bakı mərhələsində üçüncü olan “Ferrari”nin pilotu Şarl Lekler xallarının sayını 28-ə çatdırıb və altıncı yerə yüksəlib.

Konstruktorlar kubokuna isə 180 xalla “Red Bull Racing” komandası rəhbərlik edir. “Aston Martin” 87 xalla ikinci, “Mercedes” isə 76 xalla üçüncü pillədə qərarlaşıblar.

Xatırladaq ki, Azərbaycanda Formula 1 yarışları 2016-cı ildən keçirilir. Avropa Qran-Prisi adlandırılan ilk yarışda “Mercedes” komandasının pilotu Niko Rosberq birinci yeri tutub. Növbəti ildən Azərbaycan Qran-Prisi adını alan yarışlarda Daniel Rikkardo (“Red Bull Racing” – 2017), Luis Hamilton (“Mercedes” – 2018), Valtteri Bottas (“Mercedes” – 2019), Serxio Peres (“Red Bull Racing” – 2021), Maks Ferastappen (Red Bull Racing” – 2022) qalib adına layiq görülüblər. Koronavirus pandemiyası səbəbindən 2020-ci ildə Formula 1 Azərbaycan Qran-Prisi keçirilməyib.



*Leyla QURBANOVA, “Xalq qəzeti”*

# Ermənilərin arzuları gözlərində qaldı

## “Kral yarışları” daha 3 il Azərbaycanda keçiriləcək!

**İdman siyasətdən uzaqdır. Bu tezis dillər əzbəridir. Amma belə görünür ki, ermənilər bunun əksini düşünürlər. Belə olmasa idi, Ermənistan təhsil, elm, mədəniyyət və idman nazirliyi “Formula 1 Qran-Prisi 2023” təşkilatçılarına “120 min erməninin blokadada qalmasına” münasibət göstərməyə çağırmazdı. Əslində, təəccübləndirici hadisə baş vermədi. Ermənilər Azərbaycanın hər sahədə yüksəlişini həzm edə bilmədiklərinə görə, fürsət düşən kimi, belə anormal çağırışlar edirlər. Amma həmişə olduğu kimi, bu dəfə də ermənilərin arzuları ürəklərində qaldı. Siyasəti idmandan uzaq tutan “Formula 1 Qran-Prisi 2023” təşkilatçıları daha üç il Azərbaycanda qalıb “kral yarışı” həvəskarlarını sevindirməyə qərar verdilər.**

Formula 1 “kral yarışı”, “böyük sirk”, “avtoidmanın ali zirvəsi” də adlandırılır. Onun bir çox adı var, lakin həmin adların arxasındakı mahiyyət həmişə eynidir. Bu, Formula 1-in dünyanın ən prestijli yarış seriyası və əksər yarış sürücülərinin karyerasının zirvəsi hesab edilməsi ilə bağlıdır. Azərbaycan da 2016-cı ildən bu möhtəşəm yarışın keçirildiyi məkana çevrilib. Artıq yeddi ildir ki, dünyanın hər yerindən minlərlə azarkeş öz sevimli komandalarını və pilotlarını izləmək və dəstəkləmək üçün Bakıya gəlirlər. Sürətin həyəcana qarışdığı bir mühitdə pilotların şüşə kimi hamar asfaltda şütüməleri hamıda böyük maraqla qarşılanır. Şərqlə Qərb



üslübunu özünəməxsus şəkildə sintez edən Bakının gözəllikləri fonunda da “kral yarışları”nın yüksək səviyyədə keçirilməsi artıq xoş ənənəyə çevrilib.

27–30 aprel tarixlərində də bütün dünyanın idman nəbzi Bakıda döyündü. Yarım milyard auditoriyaya malik Formula 1-in Bakıda keçirilməsi ölkəmizin beynəlxalq idman arenasında əldə etdiyi uğurları bir daha əks etdirdi, Azərbaycanın idman dövləti olduğunu təsdiqlədi. Bütün bunlar, təbii ki, Azərbaycanın dünyada getdikcə artan nüfuzu, siyasi və iqtisadi sahədə böyük uğurları ilə bağlıdır. Üç gün ərzində beynəlxalq idman ictimaiyyəti müstəqillik yolu ilə uğurla gedən Azərbaycanı bir daha tanıdı. Qədim tarixə, zəngin mədəniyyətə, milli-mənəvi dəyərlərə, canlı idman ənənələrinə malik ölkəmizin qüdrətli potensialı bir daha dünyaya nümayiş etdirildi. Onun dinamik inkişafının nümunəsi olan Azərbaycanda istənilən məqsədin, niyyətin necə uğurla həyata keçirildiyinin şahidi oldu.

Amma bütün bu uğurlar Ermənistanı qıçıqlandırır. Hayların indiyədək Azərbaycanın evsahibliyi etdiyi yarışlara belə yaxın düşmək şansı olmayıb. Əksinə, ermənilər fürsət düşən kimi, Azərbaycana qara yaxmağa çalışıblar. Hələ Birinci Avropa Oyunlarının keçirildiyi ərəfədə erməni lobbisinin sifarişi ilə Azərbaycana qarşı beynəlxalq mediada aparılan “qara piar”ı unutmamışıq. Amma bütün qara yaxmalara, aparılan böhtan kampaniyalarına baxmayaraq, Azərbaycan qitəmiqyaslı, bütün dünyanın maraqla izlədiyi möhtəşəm tədbirləri yüksək səviyyədə keçirməyə müvəffəq oldu. Təsadüfi deyil ki, son illər Azərbaycan Birinci Avropa Oyunlarından başqa, Dünya Şahmat Olimpiadası, 17 yaşadək futbolçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə Dünya Kuboku, Formula 1 kimi beynəlxalq yarışlara uğurla ev sahibliyi edib. “Odlar yurdu” artıq dünyada idman gücü kimi tanınır.

Ermənilər isə uzun yalvarışlardan sonra ağır atletika üzrə Avropa çempionatına evsahibliyi etmək şansı qazandılar. Amma onu da Azərbaycan bayrağını yandırmaqla idman tarixində görünməmiş barbarlığa imza atdılar. Bütün bunlar azmış kimi, ermənilər Formula 1-in təşkilatçılarına müraciət ediblər. Ermənistan təhsil, elm, mədəniyyət və idman nazirliyi Formula 1 Avropa Qran-Prisi 2023 turnirinin təşkilatçılarına və beynəlxalq idman yarışlarına müraciət edərək, “Azərbaycan hakimiyyətinin Dağlıq Qarabağda apardığı etnik təmizləmə siyasəti” ilə bağlı etiraz notası verməyə çağırıb. Ermənilər burada da səs-küy salaraq, “etnik təmizləmə” mahnısını yenidən dilə gətiriblər. Halbuki 30 il ərzində azərbaycanlılara qarşı soyqırımı, etnik təmizləmə siyasətini məhz haylar aparıblar.

Əlbəttə ki, ermənilərin nağıllarına qulaq asan yoxdur. Formula 1 kimi yarışların təşkilatçıları da idman prinsiplərini rəhbər tuturlar. Həmin prinsiplər arasında da ədalətli mübarizə, şəffaf şərait və bərabər imkanlar yer alıb. “Etnik təmizləmə” və ya “120 min ermənin blokadada qalması” kimi sərsəmləmələr “kral yarışları”nın kodeksində yoxdur.

*S.ELAY, “Xalq qəzeti”*

# Beynəlxalq turnirdə bədii gimnastlarımızdan bürünc medal

**Bədii gimnastika üzrə Azərbaycan yığma komandasının üzvləri fərdi gimnastlar Alina Məmmədova, Kamilla Seyidzadə (böyüklər), Şəms Ağahüseynova, Nuray Əhmədzadə (gənclər), eləcə də Gövhər İbrahimova, Səkinəxanım İsmayılzadə, Mədinə Aslanova, İlahə Bahadırova, Ayan Sadıqova, Zəhra Cəfərovanın yer aldığı gənclərdən ibarət qrup komandası Portuqaliyanın Portimao şəhərində beynəlxalq turnirdə iştirak edir. Komandamız artıq ilk medalını qazanıb.**



Yığma komandamızın üzvləri Şəms Ağahüseynova və Nuray Əhmədzadə gənclər arasında komanda hesabında bürünc medala sahib olublar.

Beynəlxalq turnir davam edir.

*L.SABİRQIZI, “Xalq qəzeti”*

Azərbaycan Respublikası Prezidentinin
2023-cü il 1 may tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin NİZAMNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (bundan sonra – TƏBİB) tabeliyinə verilən dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrinin (bundan sonra – tibb müəssisələri) idarə edilməsini və fəaliyyətinə nəzarəti həyata keçirən publik hüquqi şəxsdir.

1.2. TƏBİB öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. TƏBİB öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. TƏBİB ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. TƏBİB bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.5. TƏBİB-in müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı və "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, həmçinin Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.6. Qanuna uyğun olaraq, TƏBİB-in əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. TƏBİB məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.7. TƏBİB Bakı şəhərində yerləşir.

### 2. TƏBİB-in fəaliyyət istiqamətləri

2.1. TƏBİB-in fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. tibb müəssisələrinin idarə edilməsini və fəaliyyətinə nəzarəti həyata keçirmək;

2.1.2. tibb müəssisələrində göstərilən tibbi xidmətlərin keyfiyyətini və əlçatanlığını təmin etmək;

2.1.3. tibb müəssisələrinin fəaliyyətinin əlaqələndirilməsini təmin etmək;

2.1.4. tibb müəssisələrində göstərilən tibbi xidmətlərin keyfiyyətinin artırılmasını və bu xidmətlərin müasir tələblərə uyğunlaşdırılmasını təmin etmək.

### 3. TƏBİB-in vəzifələri və hüquqları

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, TƏBİB-in vəzifələri aşağıdakılardır:

3.1.1. əhalinin sağlamlığının qorunması sahəsində normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla, tibb müəssisələrinə münasibətdə "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində qeyd edilən publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərini həyata keçirmək;

3.1.3. tibb müəssisələri vasitəsilə əhaliyə tibbi yardım göstərilməsini təmin etmək, xəstəliklərin erkən aşkarlanması və qarşısının alınması məqsədilə tədbirlər görmək;

3.1.4. tibb müəssisələrini fəaliyyətinin təşkili üçün zəruri olan iş, xidmət, mal-material və digər ləvazimatla "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada təmin etmək;

3.1.5. tibb müəssisələrində mütərəqqi korporativ idarəetmə standartlarının tətbiqi ilə bağlı məsələlərə nəzarət etmək;

3.1.6. tibb müəssisələri şəbəkəsinin optimallaşdırılmasını təmin etmək;

3.1.7. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq xidmətlər zərfinə daxil olmayan və tibb müəssisələri tərəfindən əhaliyə ödənişli əsaslarla göstərilən tibbi xidmətlərin tariflərini, habelə həmin Qanuna əsasən sığortaolunan hesab edilməyən şəxslərə göstərilən tibbi xidmətlərin tariflərini müəyyən etmək;

3.1.8. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və TƏBİB-in səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.9. tibb müəssisələrinə münasibətdə əhalinin sağlamlığının qorunması sahəsində inzibati xəta əlamətləri aşkar etdikdə, normativ hüquqi aktlarla müəyyən edilmiş hallarda Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görmək, cinayət əlamətləri olduqda isə aidiyyəti üzrə məlumat vermək;

3.1.10. elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.11. TƏBİB-in və tibb müəssisələrinin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.12. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək;

3.1.13. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.14. TƏBİB-ə ayrılan dövlət büdcəsi vəsaitindən, icbari tibbi sığorta fondunun vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.15. dövlət, həkim və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.16. TƏBİB-in informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.17. tibb müəssisələri əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.18. icbari tibbi sığorta fondunun təsdiq edilmiş büdcəsinə uyğun olaraq, TƏBİB-in və tibb müəssisələrinin büdcələrini təsdiq etmək;

3.1.19. strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.20. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, əhalinin sağlamlığının qorunması sahəsində elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.21. tibb mütəxəssislərinin hazırlanması və tədris proqramlarının tərtib olunması ilə bağlı təkliflər vermək;

3.1.22. əlilliyin qiymətləndirilməsi üçün həkim-məsləhət və hərbi-həkim komissiyalarının rəsmiləşdirdikləri tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin vahid mərkəzləşdirilmiş reyestrinin operatoru funksiyalarını həyata keçirmək və Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə bu reyestrə real vaxt rejimində aidiyyəti dövlət orqanlarının (qurumlarının) çıxışını təmin etmək;

3.1.23. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün TƏBİB-in aşağıdakı hüquqları vardır:

3.2.1. əhalinin sağlamlığının qorunması sahəsində normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişikliklər edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təkliflər vermək;

3.2.2. tibb müəssisələrinin idarə edilməsinin təkmilləşdirilməsi, fəaliyyətinin optimallaşdırılması, habelə daha səmərəli idarəetmə üsullarının tətbiq edilməsi ilə bağlı təkliflər vermək;

3.2.3. əhalinin sağlamlıq vəziyyətini öyrənmək, əhali arasında infeksion və qeyri-infeksion xəstəliklərin dinamikası və xəstələnmə halları barədə məlumatların toplanılmasını və aidiyyəti üzrə təqdim olunmasını təşkil etmək;

3.2.4. tibb müəssisələrinin kadr təminatı ilə bağlı ehtiyaclarını öyrənmək və bu istiqamətdə müvafiq təkliflər vermək;

3.2.5. əhalinin sağlamlığının qorunması sahəsində beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.2.6. fəaliyyət istiqamətlərinə uyğun olaraq, əhalinin sağlamlığının qorunması sahəsində beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək və xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.7. tibb müəssisələrinin fəaliyyəti ilə bağlı icrası məcburi olan göstərişlər vermək və bundan irəli gələn digər tədbirlər görmək;

3.2.8. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.9. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.10. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.11. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.12. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.13. öz əməkdaşlarını və tibb müəssisələrində çalışan işçiləri dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.14. fəaliyyət istiqamətlərinə uyğun olaraq müqavilə əsasında ödənişli və ödənişsiz təlimlər təşkil etmək;

3.2.15. bu Nizamnamənin 3.2.14-cü yarımbəndinə uyğun olaraq, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq;

3.2.16. təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.17. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.18. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 4. TƏBİB-in idarə olunması

4.1. TƏBİB öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. TƏBİB-in idarəetmə orqanları Müşahidə Şurası (bundan sonra – Şura) və İcraçı direktordur.

4.3. Şura TƏBİB-ə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

4.4. Şura sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarətdir. Şuranın tərkibinə Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi İdarə Heyətinin sədri (sədr olmaqla), Azərbaycan Respublikası səhiyyə nazirinin müavini, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini, Səhiyyə İşçiləri Həmkarlar İttifaqının sədri daxildir.

4.5. Şura ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir.

4.6. Şura qərar qəbul etməkdə müstəqildir.

4.7. Şuranın vəzifələri aşağıdakılardır:

4.7.1. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək və sənədlər (o cümlədən TƏBİB-in maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.7.2. TƏBİB-in inkişaf istiqamətlərini, strateji məqsəd və planlarını müəyyən etmək;

4.7.3. TƏBİB-in fəaliyyətinə nəzarət etmək;

4.7.4. TƏBİB-in strukturunu, əməyin ödənişi fondunu, işçilərin say həddini və onların əməkhaqlarının məbləğini (vəzifə maaşını, vəzifə maaşına əlavələri, mükafatları və digər ödənişləri) təsdiq etmək, o cümlədən, TƏBİB-in əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;

4.7.5. TƏBİB-in təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin TƏBİB-in idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.7.6. icbari tibbi sığorta fondunun təsdiq edilmiş büdcəsinə uyğun olaraq, TƏBİB-in maliyyə planlaşdırmasını və büdcəsini, habelə tabeliyindəki tibb müəssisələrinin büdcələrini təsdiq etmək;

4.7.7. TƏBİB-in fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini təsdiq etmək;

4.7.8. İcraçı direktorun fəaliyyətinə nəzarət etmək və onun fəaliyyətini yoxlamaq;

4.7.9. Şura üzvlərinin və İcraçı direktorun müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.7.10. TƏBİB-in fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.7.11. TƏBİB-in kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.7.12. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.7.13. TƏBİB-də daxili audit bölməsinin fəaliyyətinə nəzarət etmək və fəaliyyətinə dair hesabatlar almaq, habelə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.7.14. TƏBİB-in xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri TƏBİB-in aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

4.7.15. tibb müəssisələrinin rəhbərlərini və onların müalicə işləri üzrə müavinlərini (tibb müəssisəsinin icra orqanı təkbaşçı olduqda), habelə kollegial icra orqanının bütün üzvlərini İcraçı direktorun təqdimatı əsasında vəzifəyə təyin və vəzifədən azad etmək;

4.7.16. bu Nizamnamənin 3.1.7-ci yarımbəndində nəzərdə tutulmuş tarifləri təsdiq etmək;

4.7.17. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

4.8. Şuranın sədri 3 (üç) ayda bir dəfədən az olmayaraq Şuranın iclaslarını çağırır və iclaslara sədrlik edir. Şuranın iclaslarının keçirilməsi təşəbbüsü ilə Şuranın üzvü və ya İcraçı direktor çıxış edir. Şuranın iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın iclasında, hər üzvün bir səsi olmaqla, qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

4.9. Şuranın üzvlərinə, habelə İcraçı direktora və Şuranın iclaslarına dəvət olunan şəxslərə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.10. Şuranın iclasında İcraçı direktor da iştirak edə bilər.

4.11. İclasın gündəliyinə Şuranın hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.12. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan əvvəl təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.13. Şuranın iclasının nəticəsi Şura üzvlərinin və katibinin imzaladıqları protokolda əks olunmaqla rəsmiləşdirilir. Şuranın katibi Şuranın iclasında iştirak edə bilmədikdə, Şuranın sədri onu əvəz edəcək şəxsi təyin edir. Şura protokolu təsdiq edərək İcraçı direktora göndərir.

4.14. Şuranın katibini Şuranın üzvü olmayan əməkdaşlar sırasından Şuranın sədri təyin edir və Şuranın katibi Şuranın sədrinə hesabat verir.

4.15. Şuranın katibi:

4.15.1. Şuranın iclaslarını təşkil edir;

4.15.2. bu Nizamnamənin 4.9-cu bəndində nəzərdə tutulmuş vəzifəni icra edir;

4.15.3. Şuranın iclaslarının protokollarını tərtib edir və imzalanmaq üçün Şuranın üzvlərinə təqdim edir;

4.15.4. Şuranın qərarlarının layihələrini hazırlayır, baxılmaq və imzalanmaq üçün Şuranın sədrinə təqdim edir;

4.15.5. Şuranın qəbul etdiyi qərarların aidiyyəti üzrə göndərilməsini təmin edir.

4.16. Şuranın sədri:

4.16.1. Şuranın işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir, habelə özünün və TƏBİB-in İcraçı direktorunun qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.16.2. Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclaslar çağırır və iclaslara sədrlik edir;

4.16.3. öz təşəbbüsü ilə, habelə Şuranın hər hansı digər üzvünün və ya İcraçı direktorun xahişi əsasında digər şəxsləri Şuranın iclasında iştirak etməyə dəvət edir;

4.16.4. Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

4.17. Şura sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərini müvafiq əmrlə Şuranın üzvləri arasından sədrin müəyyən etdiyi şəxs icra edir.

4.18. Şuranın üzvləri:

4.18.1. Şuranın səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

4.18.2. Şuranın iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulan materiallarla əvvəlcədən tanış olurlar;

4.18.3. Şurada qəbul ediləcək qərarlara dair fikir bildirirlər;

4.18.4. Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxmaq barədə təklif verirlər;

4.18.5. Şuranın qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.19. Şura üzvləri Şuranın iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, Şura üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

4.20. TƏBİB-in fəaliyyətinə cari rəhbərliyi Şuranın vəzifəyə təyin və vəzifədən azad etdiyi İcraçı direktor həyata keçirir. İcraçı direktorun Şura tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən 3 (üç) müavini vardır.

4.21. İcraçı direktor müvəqqəti olmadıqda, onun səlahiyyətlərini müvafiq əmrlə müavinlərindən biri icra edir.

4.22. İcraçı direktorun vəzifələri aşağıdakılardır:

4.22.1. TƏBİB-in fəaliyyətini təşkil edir;

4.22.2. TƏBİB-in cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.22.3. TƏBİB-in Nizamnaməsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi üçün Şuraya təkliflər verir və sənədlər təqdim edir;

4.22.4. Şuranın qərarlarını icra edir;

4.22.5. aidiyyəti şəxslə dəyəri TƏBİB-in aktivlərinin 5 (beş) faizədək hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul edir;

4.22.6. TƏBİB-in strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət edir;

4.22.7. bu Nizamnamənin 3.1.14-cü yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;

4.22.8. cari və operativ məsələlər barədə Şuranı məlumatlandırır;

4.22.9. bu Nizamnamənin 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görür;

4.22.10. TƏBİB-in fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.22.11. TƏBİB-in fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.22.12. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində TƏBİB-in Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edir;

4.22.13. TƏBİB-in işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

4.22.14. TƏBİB-in, o cümlədən, onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində yalnız rəhbərlərinin, bu Nizamnamənin 4.7.15-ci yarımbəndi nəzərə alınmaqla tibb müəssisələrinə münasibətdə (tibb müəssisəsinin icra orqanı təkbaşçı olduqda) isə müalicə işləri üzrə müavinlər istisna olmaqla digər istiqamətlər üzrə müavinlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul edir;

4.22.15. TƏBİB-in əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.22.16. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində TƏBİB-in adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.22.17. TƏBİB-in fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.22.18. TƏBİB-in fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.22.19. TƏBİB-də kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.22.20. TƏBİB-də müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir;

4.22.21. özünün, tibb müəssisələrinin və TƏBİB-in struktur bölmələrinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.22.22. Şuranın səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar verir.

4.23. İcraçı direktor və onun müavinləri adlarına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

### 5. TƏBİB-in nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları

5.1. TƏBİB-in nizamnamə fondunun məbləği 100 000 (bir yüz min) manatdır.

5.2. TƏBİB-in əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən və icbari tibbi sığorta fondundan ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. TƏBİB öz əmlakından yalnız bu Nizamnamədə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. TƏBİB balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. TƏBİB qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra TƏBİB-in, onun idarə, filial, nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların (tibb müəssisələri istisna olmaqla) fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5. TƏBİB-in mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Azərbaycan Respublikası Prezidentinin qərarı ilə dövlət büdcəsinə köçürülə bilər.

5.6. TƏBİB-in işlərinin və xidmətlərinin qiymətləri tənzimlənən qiymətlərə (tariflərə) aid deyildir.

### 6. TƏBİB-in fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

6.1. TƏBİB-in fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Prezidenti, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada Şura və İcraçı direktor həyata keçirirlər.

6.2. TƏBİB-in fəaliyyətinə dair illik hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

### 7. TƏBİB-də uçot və hesabat

7.1. TƏBİB "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. TƏBİB "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. TƏBİB idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. TƏBİB öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

### 8. TƏBİB-in ləğvi və yenidən təşkili

TƏBİB-in ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

# "Kızılelma" havada, "Altay" və "Togg" quruda, "Anadolu" dənizdə…

## "TEKNOFEST" qardaş Türkiyəni sürətli texnoloji yüksəlişə yönləndirib



**Dövlətimizin başçısı İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə İstanbula işgüzar səfəri bir daha göstərdi ki, iki qardaş ölkə arasında dostluq və qardaşlıq münasibətləri tarixinin ən güclü mərhələsindədir. Türkiyə–Azərbaycan münasibətləri prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın hakimiyyətləri zamanı daha da inkişaf edib və strateji müttəfiqlik səviyyəsinə yüksəlib.**

Hər iki ölkənin dövlət və hökumət başçılarının, eləcə də siyasi, iqtisadi, ticarət, elm, təhsil, mədəniyyət və digər sahələr üzrə aidiyyəti qurumların rəhbərlərinin qarşılıqlı səfərlərinin isə əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynayıb.

Prezident İlham Əliyev səfər çərçivəsində İstanbulda keçirilən "TEKNOFEST" aerokosmik və texnologiya festivalındakı çıxışında bütün bunlar barədə ətraflı bəhs edib. Dövlətimizin başçısı nitqində Türkiyənin son 20 il ərzində böyük və şərəfli yol keçdiyini, Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə qardaş ölkənin dünya çapında söz sahibinə çevrildiyini, bölgəmizdə sülhün, sabitliyin, təhlükəsizliyin qarantı olduğunu diqqətə çatdırıb: "Türkiyə böyük Türk dünyasının birləşməsi işində çox böyük rol oynadı. Ötən ay türk dövlətlərinin Ankarada keçirilmiş Zirvə toplantısında da bütün türk dövlətləri əziz qardaşıma öz dəstəyini, öz hörmətini və bizim ümumi həmrəyliyimizi bildirmişdir. Türk dünyasının böyük coğrafiyası, böyük potensialı, böyük təbii qaynaqları, böyük hərbi gücü var. Türk dünyasının birləşməsində Rəcəb Tayyib Ərdoğanın Türk dünyası qarşısında tarixi xidmətləri vardır".

Azərbaycan lideri çıxışında daha sonra Türkiyənin artıq Avrasiyanın ticarət, enerji, nəqliyyat və siyasi mərkəzi kimi tanındığını, bu dövlətin önəminin, rolunun getdikcə artdığını, dinamik inkişafda olan sənayesinin isə həm özünü, həm də müttəfiqlərini gücləndirdiyini vurğulayıb.

"TEKNOFEST" festivalına gəldikdə isə qeyd edək ki, bu tədbir çərçivəsində keçirilən texnoloji yarışlar öz arzularını reallığa çevirmək istəyən gənclərin layihələrinin təqdimatı üçün ideal platformadır. Məhz bunun nəticəsidir ki, belə bir möhtəşəm festivalın iştirakçılarının sayı ildən-ilə sürətlə artır. Belə ki, "TEKNOFEST"in ilk dəfə təşkil olunduğu 2018-ci ildə tədbirə 4 min 333 komanda və 20 min iştirakçı qatılmışdısa, bu il komandaların sayı 333 mindən, iştirakçıların sayı isə 1 milyondan çoxdur.

Dünyanın bir nömrəli aviasiya, kosmik və texnoloji festivalı kimi nüfuz qazanan "TEKNOFEST" artıq öz sahəsində bir markaya çevrilib. Texnologiyaya, müdafiə sənayesinə, elmə marağı olan gənclərin bir araya gəldikləri bu tədbir keçən il Bakıda keçirilib.

"TEKNOFEST Azərbaycan" festivalını 300 minə yaxın insan ziyarət edib. Festival çərçivəsində üç beynəlxalq tədbir və səkkiz texnoloji müsabiqə təşkil olunub. Həmin müsabiqələrdə 5 mindən çox gəncin formalaşdırdığı 1000-dən çox komanda yarışıb.

Cəmi 4 milyon mükafat və dəstək məbləği ilə başlayan proses artıq 44 milyon lirəyə çatıb. Rekordların və ilklərin festivalı olan "TEKNOFEST"in qarşıdakı dövrdə uğur səviyyəsinin daha da yüksələcəyinə böyük əminlik yaranıb.

Yeri gəlmişkən, "TEKNOFEST"in qurucusu Selçuk Bayraktar Azərbaycanda, o cümlədən, azad edilmiş torpaqlarda, Şuşada dəfələrlə olub. Son gəlişi–aprelin 3-də respublikamıza səfəri zamanı isə ölkəmizdə "Bayraktar" mərkəzinin yaradılması haqqında razılığa gəlinib. Yaxın gələcəkdə bu mərkəzin nəzdində təhsil, xidmət, istehsal sahələrinin qurulacağı da qərara alınıb.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan festivalda çıxış edərək Azərbaycanla qardaşlıq münasibətlərinə də bir daha toxunub. Kahramanmaraşda təməli qoyulan evlərə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən Cümhurbaşqanı deyib: "Kahramanmaraşda təməlini bir az əvvəl birlikdə qoyduğumuz evlər üçün İlham qardaşıma da çox təşəkkür edirəm. Azərbaycan dövləti və xalqı bu müddətdə dostluğun və qardaşlığın nə demək olduğunu göstərdi".

Yeri gəlmişkən, Türkiyə Prezidenti çıxışında Qara dənizdə çıxarılan təbii qazın istismarına başlanılmasını, milli döyüş təyyarəsinin, "Gökbey" helikopterinin, "Hürjet" və "ATAK-2" qırıcılarının, "Altay" tankının istifadəyə verilməsini Türkiyənin son illərdə böyük uğurlarının göstəricisi kimi dəyərləndirərək, "TEKNOFEST"in bütün bu nailiyyətlərin rəmzi olduğunu qeyd edib.

Türkiyənin son illərdə kosmik sahədə də böyük uğurlar qazandığını diqqətə çatdıran Cümhurbaşqanı İMECE peykinin kosmosa göndərilməsinin əhəmiyyətini xatırladaraq, Beynəlxalq Kosmik Stansiyaya yola düşəcək türk pilotlar Alper Gezeravcıya və Tuva Cihangir Ataseverə uğurlar arzulayıb.

**V.BAYRAMOV,**
**"Xalq qəzeti"**

# Əhali Sudanı kütləvi surətdə tərk edir

**Dünən paytaxt Xartumda və olkənin bir çox şəhərlərində hökumət ordusu ilə üsyançı Çevik Reaksiya Qüvvələri arasında ağır zorakılıqlarla müşayiət olunan silahlı toqquşmalar davam edib. Onlarca ölən və yaralının olduğu bildirilir. Qorxu və təşviş içində olan əhali kütləvi şəkildə münaqişə ocaqlarını tərk etməyə çalışır.**

BBC müxbiri hadisə yerindən xəbər verir ki, hazırda təkcə "Sudan" dəniz limanında beş mindən çox sakin toplanıb. Onların çoxu əcnəbi ölkələrdən tələbələrdir. Artıq bir çox xarici ölkələr öz vətəndaşlarını Sudandan təcili surətdə təxliyə edibdir.

toqquşmalarda zərərçəkənlərə ilkin tibbi yardım göstərən Sudan Qızıl Aypara Cəmiyyətinə göndəriləcəyi gözlənilir. Daha əvvəl BQXK-nın informasiya direktoru "Al Arabiya" telekanalına bildirib ki, təşkilat Sudanın paytaxtındakı ofisindən işçilərini



ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Metyu Miller dünən özünün "Twitter" səhifəsində bildirib ki, ABŞ hökuməti münaqişə başlayandan bəri minə yaxın vətəndaşın Sudandan çıxmasına şərait yaradıb. M.Miller əlavə edib ki, təxliyənin həyata keçirilməsi zamanı ABŞ müttəfiq dövlətlərlə sıx koordinasiya saxlayıb. Onun sözlərinə görə, ABŞ hökumətinin təşkil etdiyi ikinci karvan "Sudan" dəniz limanına çatıb.

Bu arada Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Sudan bölməsi məlumat yayıb ki, bu ölkədəki münaqişə qurbanları üçün humanitar yük daşıyan ilk təyyarə paytaxt aeroportuna enib. Yükün 8 ton zəruri tibbi ləvazimatdan ibarət olduğu bildirilir. Humanitar yardımın Xartumdakı xəstəxanalara, eləcə də evakuasiya etmək qərarına gəlib.

Sudan Çevik Reaksiya Qüvvələri bazar günü gecə yarısı başa çatmalı olan humanitar atəşkəsin daha 72 saat uzadıldığını elan edib. Lakin döyüş etdiyi barədə xəbərlər yayılır.

BMT-nin Baş katibi Antonio Quterreş Sudanda vəziyyətin sürətlə pisləşməsi ilə əlaqədar humanitar və fövqəladə yardım koordinatorunun müavini Martin Qriffitsi regiona göndərib. Bununla bağlı Baş katibin sözçüsü Stefan Düjarrik bildirib ki, BMT Sudanda münaqişənin bütün tərəflərini mülki əhalini və infrastrukturu qorumağa, mülki şəxslər üçün təhlükəsiz təxliyəni təmin etməyə, humanitar personalı və əmlakı qorumağa və yardım əməliyyatlarını asanlaşdırmağa çağırıb.

**M.HACIXANLI, "Xalq qəzeti"**

# Ukrayna hər dəqiqə əks-hücuma başlaya bilər

## Roma papası tərəfləri müharibəni dayandırmağa və danışıqlara başlamağa çağırıb

**Ukraynada vəziyyət kifayət qədər gərgindir. Bir tərəfdən, ölkə açıq döyüşlər aparır, digər yandan, son günlərdə hücum üçün bütün hazırlıqları başa çatdıraraq, hər dəqiqə hərəkətə keçə biləcəyini bəyan edir. Bu barədə şəxsən Prezident Volodimir Zelenski bildirib. O deyib ki, tezliklə böyük döyüşlər olacaq, ölkə torpağını və xalqını rus əsarətindən azad etməlidir. Məlumatı UNİAN verib.**



Zelenski Baxmut, Avdeyevka, Marinka və Donbasın digər şəhər və kəndlərini ən şiddətli döyüşlərdə müdafiə etdiyinə görə hərbçilərə təşəkkür edərək bildirib: "Tezliklə əsas döyüş olacaq. Biz öz torpağımızı, xalqımızı rus əsarətindən azad etməliyik. Dövlət sərhədimizin bütün xəttini - həm quruda, həm də dənizdə bərpa etməliyik. Əminəm ki, sərhəd qoşunlarımızın qəhrəmanlığı, etibarlılığı, möhkəmliliyi bu mühüm tarixi yolda Ukraynaya güclü kömək edəcək".

Sözügedən istiqamətlərdə rus ordusunun müəyyən uğurlar əldə etməsinə baxmayaraq, sonradan Ukrayna hərbçilərinin onları geri oturtduğunu müdafiə nazirinin müavini Anna Malyar da təsdiq edib.

Ukrayna hərbçiləri dünən bir sıra cəbhələrdə, o cümlədən, Liman istiqamətində düşmənin bütün hücumlarını dəf edib. Bəzi məlumatlara görə, 10 rus döyüşçü girov götürülüb.

Ukrayna Silahlı Qüvvələri Quru Qoşunlarının komandanı general-polkovnik Aleksandr Sırski isə bildirib ki, ordu Baxmutda da əks-hücuma keçərək rəqibi bəzi mövqeləri tərk etməyə məcbur edib: "İrəli getmək üçün düşmən maksimum səy göstərir. Əhəmiyyətli itkilərə baxmayaraq, "Vaqner"in yeni hücum qrupları, digər özəl şirkətlərin döyüşçüləri daim döyüşə atılır, lakin Baxmutu ala bilmirlər. Buna baxmayaraq, vəziyyət kifayət qədər mürəkkəbdir".

Rusiya Müdafiə Nazirliyi də bəzi uğurları haqqında məlumat yayıb. Bildirilib ki, Kramatorsk rayonunda Ukrayna ordusu üçün sursat daşıyan qatar vurulub, nəticədə 200 ton sursat məhv edilib. Bəzi başqa istiqamətlərdə də Ukrayna ordusuna zərbələr vurulduğu qeyd edilir.

Ukrayna ordusunun baş komandanı Valeri Zalujnı da Rusiya hərbçilərinin ölkə ərazisini raket atəşinə tutduğunu qeyd edib. Onun sözlərinə görə, mayın 1-nə keçən gecə ərzində Ukraynaya 18 qanadlı raket atılıb. Ukraynanın hava hücumundan müdafiə qüvvələri onlardan 15-ni məhv edib: "Rusiya qüvvələri Olenegorsk vilayətindən (Murmansk) 9 Tu-95 və Xəzər dənizi regionundan 2 Tu-160 strateji bombardmançı təyyarələri ilə Ukraynaya hücum ediblər". O, Ukraynaya X-101/X-555 qanadlı raketlərinin atıldığını da bildirib.

Ukrayna Silahlı Qüvvələri Cənub Müdafiə Qüvvələrinin mətbuat mərkəzinin nümayəndəsi Natalya Qumenyuk isə ölkə ordusunun Krıma hücumu haqqında danışıb. Onun dediyinə görə, aprelin 29-da Krımdakı neft bazasına hücum Silahlı Qüvvələrin əks-hücuma hazırlığının bir hissəsi olub: "Bu, hamının gözlədiyi geniş tammiqyaslı hücuma hazırlığın bir nümunəsidir".

Amma tərəfləri müharibəni dayandırmağa və danışıqlar masası arxasına oturmağa çağıranlar da var. Şübhə yoxdur ki, dünyada qarşıdakı hərbi gərginliklə bağlı narahatlıqlar da çoxdur. Dünən Roma papası Fransisk də müharibənin şiddətlənəcəyindən narahatlığını ifadə edib. O, Ukrayna və Rusiyanı hücum əməliyyatlarından əl çəkməyə çağırıb və danışıqların təşkili üçün öz nümayəndələrini Moskvaya və Kiyevə göndərməyə hazır olduğunu bildirib.

Dünya Möminlər Birliyinin sədri Leonid Sevastyanov bununla bağlı bəyanatında qeyd edib ki, papa Fransisk Ukrayna münaqişəsinin tərəflərini hücum cəhdlərindən əl çəkməyə və danışıqlar masası arxasına oturmağa çağırıb: "Onlar istəklərinə ancaq danışıqlar masası arxasında nail olacaq, döyüş meydanında isə bu, mümkün deyil. Danışıqlar hər iki tərəf üçün irəliləyişə səbəb olacaq. Əgər müharibə tərəfləri istəsə, papa danışıqlar prosesinin başlanmasına kömək edəcək. Roma papası danışıqlar üçün nümayəndələrini istənilən vaxt Kiyevə və Moskvaya göndərməyə hazırdır".

**Paşa ƏMİRCANOV,**
**"Xalq qəzeti"**

### Ekspert rəyi

**Tural İSMAYILOV, politoloq**



Artıq uzun müddətdir ki, Ukraynanın əks-hücum əməliyyatına başlayacağı ilə bağlı fikirlər dolaşmaqdadır. Nəzərə almaq lazımdır ki, bu məlumat ilk dəfə Qərbin kəşfiyyat mənbələrində yayılmışdı. Daha sonra Britaniya kəşfiyyatı bu məsələdə gücləndirilmiş mövqe ifadə etdi və əldə olunan kəşfiyyat məlumatlarına görə, yaz aylarında Ukraynanın əks-hücuma keçəcəyini açıqladı. Artıq mart-aprel ayları arxada qalıb və hesab edirəm ki, may ayının ortalarından etibarən biz Ukraynanın Rusiyaya qarşı əks-hücum və əks-həmlə əməliyyatlarına şahidlik edə biləcəyik.

Baxmut ətrafında baş verən hadisələr də göstərdi ki, artıq Rusiya ordusunda həm mənəvi-psixoloji durum kifayət qədər aşağı vəziyyətdədir, həm də beynəlxalq təcrübədə təsdiqini tapmış faktdır ki, işğalçı heç zaman sona qədər uğura nail ola bilmir. Bundan əlavə, Ukraynaya edilən beynəlxalq hərbi və siyasi yardımların həcmi də kifayət qədər artıb.

Önəmli məsələlərdən biri də budur ki, əks-hücumla bağlı söhbətlər təkcə kəşfiyyat məlumatları və media proqnozları deyil. Artıq Ukraynanın hərbi-siyasi rəhbərliyi də birmənalı şəkildə etiraf edir ki, Rusiyaya qarşı əks-hücum əməliyyatlarına hazırlıqlar başa çatıb. Bu hazırlıq uzun müddətdir ki, davam edir. Burda NATO komandanlarının, alyansın yüksək biliklərə malik zabitlərinin Ukrayna ordusunun təlim proseslərində və əks-hücum əməliyyatlarına hazırlanmasında fəal iştirak etdiyini də nəzərdən qaçıra bilmərik.

# İŞİD lideri öldürüldü

**Suriyada Türkiyə kəşfiyyatının xüsusi əməliyyatı zamanı İŞİD qruplaşmasının lideri Əbu Hüseyn əl-Qureyşi öldürülüb.**



Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan TRT Turk telekanalının efirində deyib. Onun sözlərinə görə, Türkiyə terrorçular arasında fərq qoymadan belə təşkilatlara qarşı mübarizəni davam etdirəcək.




Xatırladaq ki, İŞİD qruplaşmasının öncəki lideri Əbu Həsən əl-Haşimi əl-Qureyşi 2022-ci il noyabrın 30-da Türkiyənin dəstəklədiyi Azad Suriya Ordusu tərəfindən öldürülmüşdü. Bəzi məlumatlara görə, Əbu Həsən əl-Haşimi əl-Qureyşi 2019-cu ildə qruplaşmanın Suriyada öldürülən liderlərindən biri olan Əbu Bəkr əl-Bağdadinin qardaşıdır.

**"Xalq qəzeti"**

*Zərifə Əliyeva – 100*

# İşıqlı xatirələrlə yadda qalan insan



**Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr olunmuş "Oftalmologiyanın aktual problemləri" mövzusunda Bakıda beynəlxalq elmi-praktiki konfrans keçirilib. Öncə Milli Oftalmologiya Mərkəzində başlanan elmi hissədə yerli və beynəlxalq mütəxəssislər görmə orqanının xəstəliklərinə, oftalmologiyanın aktual problemlərinə dair təqdimatlarla çıxış edib, mövzular ətrafında müzakirələr aparıblar. Elmi hissənin davamı Heydər Əliyev Mərkəzində keçirilib.**

Öncə Səhiyyə Nazirliyinin rəhbərliyi və konfrans iştirakçıları Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin məzarı önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər. Sonra akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı önünə əklil və tər çiçəklər qoyulub. Görkəmli dövlət və ictimai xadim Əziz Əliyevin, istedadlı həkim Tamerlan Əliyevin məzarları üzərinə də tər çiçəklər düzülüb.

Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Səhiyyə Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) və dövlət orqanların rəhbər şəxsləri, Milli Məclisin deputatları və tanınmış ictimaiyyət nümayəndələri, həmçinin Türkiyə, Rusiya, İsrail, Ukrayna, Gürcüstan, Avstriya, Qazaxıstan və Özbəkistandan gəlmiş görkəmli oftalmoloqlar iştirak ediblər.

Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra ümummilli lider Heydər Əliyevin, akademik Zərifə Əliyevanın və Azərbaycanın ərazi bütövlüyü uğrunda canını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Giriş sözü ilə çıxış edən səhiyyə naziri Teymur Musayev vurğulayıb ki, sıravi həkimlikdən akademik zirvəsinə ucalan Zərifə xanımın elmi araşdırmaları, alim kimi qazandığı böyük uğurlar Azərbaycanın tibb elmi tarixində xüsusi yer tutur. O, akademik Zərifə Əliyevanın oftalmologiya elminin inkişafında rolundan, əldə etdiyi uğurlardan söz açıb: "Oftalmologiya elminin fədaisi olan Zərifə xanım Əliyeva elmdə heç vaxt asan yol axtarmayıb, həmişə keçilməmiş yollarla gedib, elmi araşdırmaları üçün praktik əhəmiyyət daşıyan aktual mövzular seçib. Azərbaycan səhiyyəsinin inkişafında akademik Zərifə Əliyevanın bir xidməti də onun pedaqoji fəaliyyəti, həkimlərin peşəkar bacarıqlarının artırılması, yüksək ixtisaslı həkim kadrlarının formalaşması üzrə gördüyü işlərdir. Görkəmli alimin keçdiyi şərəfli ömür yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir".

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurların Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ olduğunu diqqətə çatdırıb.

Milli Oftalmologiya Mərkəzinin direktoru Elmar Qasımov Zərifə xanımın oftalmologiya sahəsində yüksək ixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük töhfələr verdiyindən danışıb və həmin peşəkar kadrların bugünkü uğurlu fəaliyyətini vurğulayıb. O, Zərifə Əliyevanın traxomanın kökünün kəsilməsində böyük əmək sərf etməsindən, monoqrafiya, dərslik, ixtirası, elmi əsərlərindən, "peşə oftalmologiyası"nın və Azərbaycan lakrimologiyasının əsasını qoymuş alimin etika və tibbi deontologiya haqqında fikirləri və məqalələrindən söz açıb. Oftalmologiyada peşə xəstəlikləri probleminin öyrənilməsinin Zərifə Əliyevanın adı ilə bağlı olduğunu qeyd edib və oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi fundamental tədqiqatlarının alimə böyük şöhrət gətirməsindən və onu dünya oftalmologiyası məkanında məşhurlaşdırmasından bəhs edib.

Türkdilli Ölkələrin Oftalmoloji Cəmiyyətinin (TCOD) təsisçisi və sədri Sunay Duman çıxışında tibb elminin yeni istiqamətlərinin işlənib hazırlanmasında Zərifə xanımın xidmətlərini xatırladıb. Zərifə xanımla uzun illər çalışmış həmkarları – Rusiya Tibb Elmləri Akademiyasının akademikləri Alevtina Brovkina və Larisa Maşetova alim haqqında xatirələrini bölüşüblər.

Rusiyanın Diplomdan Sonrakı Təhsil üzrə Tibb Akademiyasının rektoru, Rusiya Federasiyasının Əməkdar həkimi, akademik Larisa Moşetova Zərifə Əliyeva ilə ilk görüşündən bəhs edib. O, deyib: "Onunla gənc oftalmoloq olduğum zaman tanış olmuşam, həmin vaxt yenicə namizədlik dissertasiyası müdafiə etmişdim. Biz birlikdə – Moskva Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrası və Bakı Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrası oftalmoloqlarının birgə kadr hazırlığını aparırdıq. İki dost kafedra, onların bir-biri ilə ünsiyyətdə olan və birlikdə dissertasiya hazırlayan iki rəhbəri – professor Nina Şulpina və Zərifə xanım".

Zərifə xanımın həmkarı onun elmi tədqiqatlarından söz açaraq bildirib ki, o, həqiqətən, istedadlı alim idi. Bunu onun yaratdığı laboratoriya və traxoma ilə bağlı tədqiqatları əsasında söyləmək olar. Zərifə xanım Azərbaycanda bu problemi kökündən həll etdi və namizədlik dissertasiyası müdafiə edərək son nöqtəni qoydu.

L. Moşetova qeyd edib ki, Zərifə Əliyeva pasiyentlərə böyük sevgi və hörmətlə yanaşırdı: "Mən Zərifə xanımın bütün danışıqlarına məmnunluqla qulaq asır, onun ağır xəstəliyi pasiyentə çatdırmaq bacarığını, xəstələrə münasibətini görürdüm. O, mənim üçün çox şey edib. Mənim yetkin elmə gəlişim onun sayəsində olub. "Oftalmologiyanın nə olduğu", "bu işlə necə məşğul olmaq və onu sevmək" məfhumlarını ondan öyrəndim... Zərifə xanım hələ çox işlər görə bilərdi. Lakin o, elə bir bünövrə qoyub gedib ki, ondan hələ bir çox gələcək nəsillər istifadə edəcəklər. Zərifə xanım bir çoxlarına həyata vəsiqə verən insandır və özündən sonra işıqlı xatirə qoyub".

Konfransın gedişində Zərifə xanım Əliyevanın həyatına və elmi fəaliyyətinə həsr edilmiş sənədli film nümayiş etdirilib. İki gün davam edən konfransda "Xorioid melanomalarının diaqnostik və proqnostik markerləri", "Qlaukomanın müalicəsində kannabisin tətbiqinə dair", "Dünyanın aparıcı ölkələrində oftalmoloji təhsilin artırılmasında rəqəmsal texnologiyaların tətbiqi və onun Azərbaycan modeli", "Müasir neft sənayesində çalışan işçilər arasında oftalmopatologiyaların öyrənilməsi və onların yaranma riskinin qiymətləndirilməsi", "Refraktiv cərrahiyyədən əvvəl retinanın qiymətləndirilməsinin əhəmiyyəti", "Kapsul kisəsi olmadıqda İOL implantasiyası" və digər mövzularda məruzələr dinlənilib.

***Zərifə HÜSEYNOVA,***
***"Xalq qəzeti"***

# Bir həftədə ikinci mina faciəsi

**Son 1 həftədə Qarabağda ikinci tank əleyhinə mina partlayışı baş verib. Bu dəfə faciə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində minalardan təmizlənməmiş ərazidə qeydə alınıb.**

Bu barədə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) və Daxili İşlər Nazirliyinin mətbuat xidmətləri birgə məlumatında bildirilir ki, Cəbrayılda maldarlıq fəaliyyəti ilə məşğul olan Füzuli rayon Qazaxlar kənd sakini 1964-cü il təvəllüdlü Alışov Oktay Bayram oğlu at ilə hərəkətdə olarkən minalardan təmizlənməmiş əraziyə keçid edib və tank əleyhinə mina partlayışı nəticəsində həlak olub.



Xatırladaq ki, 2020-ci ilin 10 noyabr razılaşması ilə döyüş əməliyyatları dayandırılandan bu günədək Ermənistan silahlı qüvvələrinin basdırdıqları minaların partlaması nəticəsində hərbi qulluqçu və mülki şəxs olmaqla, ümumilikdə, 299 nəfər mina qurbanlarından 55-i həlak olub, 244-ü isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) son günlər baş verən ardıcıl mina hadisələrinin sayının artması ilə əlaqədar olaraq vətəndaşlara bir daha müraciət edərək bildirib: "İşğaldan azad olunmuş ərazilərdə səfərdə olarkən qaydalara riayət etməmək, təhlükəsiz ərazilərdən kənara çıxmaq, xəbərdaredici nişanların tələblərinə riayət etməmək, məsuliyyətsiz və təkəbbürlü addım atmaq - sizi və yaxınlarınızı böyük faciə ilə üzüzə qoya bilər".

**"Xalq qəzeti"**

# "Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalı keçiriləcək

**Heydər Əliyev Fondunun təşəbbüsü ilə iyunun 18–25-də "Muğam aləmi" ("Space of Mugam") 6-cı Beynəlxalq Musiqi Festivalı keçiriləcək.**

Festival Bakı və Şuşa şəhərlərində təşkil olunacaq. Festivalda ifaçıların qeydiyyatı mayın 1-dən 20-dək aparılacaq. Azərbaycanı bu festivalda aprelin 24–27-də keçirilən Milli Muğam Müsabiqəsinin qalibləri – xanəndə və instrumental ifa kateqoriyası üzrə birinci yerin mükafatçıları Mirəli Sarızadə və Vaqif Təhməzov təmsil edəcəklər.

"Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalının açılışı iyunun 18-də Heydər Əliyev Sarayında olacaq. İyunun 25-dək davam edəcək festival çərçivəsində Bakının müxtəlif mədəniyyət ocaqlarında, həmçinin iyunun 23-də Şuşanın tarixi məkanlarında müxtəlif tədbirlər – müsabiqə, mühazirə və təqdimatlar, konsertlər, sərgi və simpoziumlar təşkil ediləcək. Festivalın sonuncu günündə 24 saat ərzində eyni məkanda bir-birini əvəz edən canlı muğam marafonu olacaq.

"Muğam aləmi" Festivalında 1-ci, 2-ci və 3-cü yerlərin sahiblərini və Qran-Pri mükafatçısını beynəlxalq münsiflər heyəti qiymətləndirəcək. İyunun 25-də qaliblərin mükafatlandırılması və konsert keçiriləcək.

Festival günlərində Bakıda keçiriləcək konsertlərə biletləri "iTicket.az" saytı və satış məntəqələrindən əldə etmək mümkün olacaq.

Xatırladaq ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2009-cu ildən beynəlxalq muğam festivalları təşkil olunur. Layihə muğamı dünya mədəniyyəti kontekstində bir daha nümayiş etdirmək və yaşatmaq məqsədi daşıyır.

*2 May Ümumdünya Körpələr Günüdür*

# Siz güləndə dünya gülür

**"Dünyanın ən möhtəşəm himni körpə qığıltısıdır". Bunu dünyanın böyük yazıçısı Cek London deyib. Alimlər onu da müəyyən ediblər ki, dünyaya yenicə göz açmış körpə anasının intonasiyası ilə ağlayır. Bu gün həm də muradına çatmış gənc ailələrin, nəvəsinin ilk qədəmlərinə sevinən babaların, kötücə saçı hörən nənələrin bayramıdır. Körpələr Günündə onlara aid maraqlı faktları diqqətinizə çatdırırıq:**

- Çağanın başının çəkisi onun ümumi çəkisinin dörddəbiri qədərdir.
- Böyük baş və kiçik bədən – körpələrə aid olan əlamətdir.
- Yeni doğulan körpənin beyni 14 milyard hüceyrədən ibarət olur, amma yaşa dolduqca onların sayı artmır, əksinə, azalır.
- Körpənin göz ölçüsü ömür boyu eyni qalır.
- Çağa diz qapağı olmadan doğulur.
- Körpələr ilk günlərdə qırmızı və yaşıl rəngləri ayıra bilmir, mavi rəngi heç görmürlər.
- Onlar qıdıqlanmanı 6 aydan etibarən hiss edirlər.
- Üç yaşınadək körpə özünü yuxuda görmür.
- Həyatının ilk iki ilində körpə 150 kilometr məsafə qət edir.



- Körpələr 9 ayına qədər həm nəfəs ala, həm də udquna bilirlər.

***Hazırladı:***
***İ.HƏSƏNQALA, "Xalq qəzeti"***

# Tərtərdə və Goranboyda selin fəsadları aradan qaldırılır

**Aprelin 30-da axşam saatlarından başlayaraq yağan güclü yağışın yaratdığı sel nəticəsində Tərtərin Dəmirçilər və Ağkənd kəndlərinə və Goranboyun qonşu ərazilərində dəymiş ziyan aradan qaldırılır.**



Baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması məqsədilə hər iki rayonda gecə saatlarından zəruri və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinə başlanılıb. Evlərin zirzəmilərinə və həyətyanı sahələrə dolmuş sel suları nasoslar vasitəsilə çəkilir, yollardan və həyətyanı sahələrdən lil qatı təmizlənir, xüsusi texnikalar vasitəsilə suötürücü arxlar işlənərək genişləndirilir. Hazırda ərazidə bərpa və təhlükəsizlik işləri davam etdirilir.

Əhaliyə və təsərrüfatlara dəymiş ziyan dəqiqləşdirilir.

**"Xalq qəzeti"**

# Şəhid jurnalist ehtiramla anıldı

**Dünən AZƏRTAC-ın kollektivi şəhid iş yoldaşları Məhərrəm İbrahimovun doğum gününü yenidən onsuz qeyd etdilər.**



Anım mərasimində bildirildi ki, Məhərrəm doğulduğu Göyçənin Ardanış kəndindən cəmi 50 kilometr məsafədə yerləşən Kəlbəcər rayonunun Susuzluq kəndində şəhidlik zirvəsinə ucaldı. 2021-ci il iyunun 4-də çəkiliş qrupunun olduğu nəqliyyat vasitəsinin hərəkət olan yolda tank əleyhinə minaya düşməsi nəticəsində AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov, AZTV-nin operatoru Sirac Abışov və Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısının Susuzluq kənd inzibati dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev həlak oldular.

Məhərrəm İbrahimov AZƏRTAC-da müxbir kimi əmək fəaliyyətinə 22 yaşında başlamış, 17 il agentlikdə çalışmışdı. Azərbaycan Ordusunun və hüquq-mühafizə orqanlarının fəaliyyəti, eləcə də ən qaynar nöqtələrdən xəbərlər hazırlanmaq ona həvalə olunmuşdu. O, bu çətin işin öhdəsindən bacarıqla gəlirdi.

O, daim qaynar nöqtələrə üz tutur, hadisələrin mərkəzində olmağa can atırdı. Sorağı Ağdam, Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan, Qubadlı və işğaldan azad edilmiş digər bölgələrdən gəlirdi. Cəbhə müxbiri kimi üzərinə düşən işi vicdanla, məsuliyyətlə və ürəklə yerinə yetirirdi. Dəfələrlə AZƏRTAC-da ilin ən yaxşı əməkdaşı adına layiq görülmüşdü. Eləcə də "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi", Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən "Hərbi vətənpərvərlik tərbiyəsində xidmətlərə görə" medalları ilə təltif olunmuşdu.

**T.RÜSTƏMLİ, "Xalq qəzeti"**


# "Hədiyyələr" ASC səhmdarlarının nəzərinə!

15 iyun 2023-cü il saat 11.00-da "Hədiyyələr" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** 2022-ci ilin yekunları üzrə cəmiyyətin icra orqanının hesabatının dinlənilməsi və balansın təsdiqi.

**2.** Digər məsələlər.

Səhmdarların ümumi yığıncağının gündəliyinin materialları ilə 2023-cü il iyunun 12-də cəmiyyətin inzibati binasında tanış olmaq mümkündür.

Telefon- 012-560-09-71.

Ünvan- Bakı şəhəri, Nəsimi rayonu, A. Salamzadə küçəsi 31.

# B İ L D İ R İ Ş

"Xalq Həyat" Sığorta Şirkəti ASC 2023-cü il aprelin 17-dən etibarən öz fəaliyyətini Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti 106 A nömrəli ünvanda (poçt indeksi AZ-1029) davam etdirir. Əlaqə telefonu – (012) 310 -05- 25.

*İdman xəbərləri*

## “Şuşa” komandası beynəlxalq futvoley turnirinin qalibi olub

**Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay şəhərində futvoley üzrə beynəlxalq turnir təşkil edilib.**



Beynəlxalq Futvoley Federasiyasının prezidenti, həmyerlimiz Vüsal Xəlilov turnirin açılış mərasimində çıxış edərək, ulu öndər Heydər Əliyevin fəaliyyəti və Azərbaycan xalqı qarşısındakı xidmətləri barədə məlumat verib.

Sonra yarışa start verilib. Ölkəmizi turnirdə “Şuşa” komandası təmsil edib. Millimiz qrup oyunlarında Danimarka, Braziliya və BƏƏ komandalarını məğlub edərək birinci yerdə qərarlaşıb. Dörddəbir finalda Türkmənistan, yarımfinalda İsrail komandasını məğlub edən millimiz həlledici mərhələdə çox güclü İtaliya yığması ilə üz-üzə gəlib. Gərgin mübarizə şəraitində keçən final oyununda “Şuşa” 2:0 hesablı qələbə qazanaraq birinci yerə sahib olub.



## Stolüstü tennisçilərimiz Xorvatiyada 4 medal qazanıblar

**Stolüstü tennisçilərimiz Avropa Stolüstü Tennis İttifaqının “Europe youth series” turnirinin son günündə daha 3 medal qazanıblar.**

Xorvatiyanın Osiyek şəhərində keçirilən yarışın şəxsi turnirində Xorvatiya, Sloveniya, Serbiya və Yunanıstan idmançılarına qalib gələn U-13 millimizin üzvü Onur Quluzadə yarımfinalda almaniyalı rəqibinə 2-3 hesabı ilə uduzaraq bürünc medalla kifayətlənib. Yağmur Məmmədli - Xədicə Eylazova, Onur Quluzadə - Tunar Bağırov tandemi də qoşa yarışlarda 3-cü yeri tutub. Xatırladaq ki, yarışın ilk günlərində mübarizə aparan U-13 seçməmiz komanda turnirində gümüş mükafata sahib çıxmışdı.

# Kürdəmirdə Anarın yubileyi qeyd olundu

**Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran regional filialı Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anarın 85 illiyi münasibətilə Kürdəmirdə yubilyarın iştirakı ilə təntənəli mərasim təşkil edib.**

Bu barədə Yazıçılar Birliyindən qəzetimizə verilən məlumatda bildirilir ki, Kürdəmir şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən toplantını giriş sözü ilə muzeyin Aran regional filialının müdiri, filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadurqızı açaraq yazıçının həyatı və yaradıcılığı haqqında ətraflı məlumat verib.

Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Elxan İbrahimov Anarın Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişafına verdiyi sanballı töhfədən, yazıçıya ümumxalq sevgisindən söz açıb. Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli yazıçı, esseist, kino xadimi kimi Anarın yaradıcılığında müasir sənətin üstün xüsusiyyətlərini birləşdirdiyini vurğulayıb. Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid Xalq yazıçısının əsərlərində dövrünün ən aktual problemlərini qaldırdığını bildirib.

AMEA Əlyazmalar İnstitutunun baş direktoru akademik Teymur Kərimli, Xalq artisti Fəxrəddin Manafov, “Qobustan” jurnalının baş redaktoru Pərvin Nurəliyeva yazıçının ədəbiyyat, publisistika və kino sahəsindəki zəngin yaradıcılığından bəhs ediblər.

Mərasimdə yazıçının əsərləri əsasında çəkilmiş “Evləri köndələn yar” tamaşasından, “Təhminə və Zaur”, “Dədə Qorqud”, “Üzeyir ömrü” filmlərindən qısa epizodlar nümayiş etdirilib.

Sonda Xalq yazıçısı Anar çıxış edərək tədbirin təşkilatçılarına və çıxış edənlərə təşəkkürünü bildirib.





**R.TAHİR, “Xalq qəzeti”**





## Paralimpiyaçılarımız dünya kubokunu 12 medalla başa vurublar

**Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin para-pauerliftinq üzrə milli komandasının daha bir üzvü Talıb Zeynalov Gürcüstanın Tbilisi şəhərində keçirilən dünya kubokunda uğurla çıxış edib.**

İdmançımız +107 kiloqram çəki dərəcəsində “gənc idmançılar” kateqoriyasında 146 kiloqram nəticə göstərərək fərdi çəkidə qızıl medal qazanıb. Bu nəticə ilə idmançımız ümumi çəkidə də daha bir qızıl medalın sahibi olub. Talıb Zeynalov böyüklər arasında 146 kiloqram nəticə ilə yarışı 5-ci pillədə tamamlayıb.

Komandamızın digər üzvü Şamo Aslanov +107 kiloqram çəki dərəcəsində 3 cəhdin cəmində 595 kiloqram nəticə ilə gümuş medala sahib olub.

Qeyd edək ki, idmançımız fərdi kateqoriyada 205 kiloqram nəticə göstərərək yarışı 4-cü pillədə tamamlayıb.

Millimiz komanda yarışında isə gümüş medal qazanıb.

Beləliklə, 8 idmançı ilə təmsil olunduğumuz dünya kubokunu para-pauerliftinqçilərimiz 7-si qızıl, 4-ü gümüş, 1-i bürünc olmaqla, toplam 12 medalla başa vurublar.

## Ağırlıqqaldıranlarımız Afrika çempionatında

**Beynəlxalq Ağır Atletika Federasiyasının (IWF) qərarına əsasən, ağırlıqqaldırma üzrə Azərbaycan millisi Tunisdə mayın 11-20-də keçiriləcək Afrika çempionatında iştirak edəcək.**

Azərbaycan Ağır Atletika Federasiyasının (AAAF) mətbuat katibi Kənan Məstəliyev “Xalq qəzeti”nə açıqlamasında bildirdi ki, Ermənistanda keçirilən Avropa çempionatında Azərbaycan yığması iştirak edə bilmədiyinə görə, IWF-in alternativ olaraq göndərdiyi təklifə AAAF rəhbərliyi müsbət cavab verib. Hazırda yarışda iştirakla bağlı sənədlər və digər məsələlər müzakirə edilir. Qitə çempionatının kifayət qədər önəmli yarış olduğunu vurğulayan federasiya rəsmisi qeyd etdi ki, bu komandamız üçün yaradılmış imkandır və ondan istifadə etmək lazımdır: “Qitə çempionatı “Paris-2024” Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyır. Komandamız onun üçün yaradılmış şəraitdən maksimum faydalanmağa çalışacaq. Hazırda idmançılarımız yaxşı formadadırlar. Ağırlıqqaldıranlarımız Afrika çempionatında uğurla çıxış etməyə çalışacaqlar”.

Xatırladaq ki, Ermənistanda bu ilin aprelin ortalarında keçirilən Avropa çempionatının açılış mərasimində Azərbaycan Bayrağının turnirin təşkilatçılarından olan, rəsmi akkreditasiyadan keçmiş şəxs tərəfindən nümayişkaranə şəkildə yandırılmasına etiraz olaraq komandamız yarışda iştirakdan imtina etmişdi.

***L.QURBANOVA, “Xalq qəzeti”***

## Özbəkistanda Ümumxalq səsverməsi-referendum keçirilib





**Aprelin 30-da Özbəkistan Konstitusiyasına əlavə və dəyişikliklər edilməsi ilə bağlı Ümumxalq səsverməsi-referendum keçirilib.**

Referendumda dünyanın 50-dən artıq ölkəsini və 14 beynəlxalq təşkilatı təmsil edən 400-dən çox beynəlxalq müşahidəçi iştirak edib.

Azərbaycan Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun rəhbərliyi ilə nümayəndə heyəti və Azərbaycan Milli Məclisinin deputatları Ağalar Vəliyev, Cavanşir Paşazadə və Malik Həsənov referendumu Daşkənd şəhərində və bölgələrdə izləyiblər. Azərbaycan Mərkəzi Seçki Komissiyasının nümayəndələri beynəlxalq müşahidəçi qismində Türk Dövlətləri Təşkilatı və Müstəqil Dövlətlər Birliyinin tərkibində də referendumu müşahidə ediblər.

Özbəkistan Mərkəzi Seçki Komissiyasının sədri Zayniddin Nizamxocayev mayın 1-də Daşkənddə keçirilən brifinqdə bildirib ki, səsverməyə 16 milyon 673 min 189 seçici qatılıb ki, bu da səsvermədə iştirak edən əhalinin 84.54 faizi deməkdir.

Beləliklə, referendum baş tutmuş hesab olunub.

Referendumda Konstitusiyada maddələrin sayı 128-dən 155-ə qaldırılıb, bu da əsas qanunun 65 faizinin yenilənməsi deməkdir.

Konstitusiyaya edilən əsas düzəlişlər Özbəkistan Prezidentinin səlahiyyət müddətinin 5 ildən 7 ilə qaldırılması, Ali Məclis Senatındakı senatorların sayının 100-dən 65-ə endirilməsi və digər maddələrdir.

Səfər çərçivəsində Məzahir Pənahov Zayniddin Nizamxocayev və digər rəsmi şəxslərlə görüşlər keçirib.

**Qulu KƏNGƏRLİ**
**Daşkənd**

*Texnologiya*

## “Samsung” “Play Store” ilə vidalaşırmı?

**“Google” şirkəti uzun illərdir ki, “Play Store” ilə müzakirələrin mərkəzindədir. “Android” istifadəçilərini monopoliya altına aldığı deyilən şirkətə yeni rəqib hazırlanır. “Samsung” tərəfindən dəstəklənən Hindistanın rəqəmsal ödənişlər şirkəti “Play Store”un yeni rəqib layihəsi üzərində işləyir. Bu barədə xəbəri “cnbc” saytı verib.**





Rəqəmsal ödənişlər və maliyyə xidmətləri şirkəti “PhonePe”, “Google Play Store” dominantlığına meydan oxumaq üçün yeni alternativ proqramlar hazırlayır. Yeni layihə hindistanlı istifadəçiləri vahid platformada bir araya gətirməyi hədəfləyir. Rəqib proqram “IndusOS” əməliyyat sisteminə əsaslanacaq. “Samsung” tərəfindən dəstəklənən proqramda “yüksək səviyyəli lokallaşdırılmış” tətbiq və xidmətlər yer alacaq.

Tətbiq proqramı hələ inkişaf mərhələsində olsa da, xüsusilə “Galaxy” planşetləri və telefonları üçün maraqlı olacaq. 12 fərqli dil və 24 saat canlı söhbət dəstəyi təqdim edəcək yeni mağaza əlçatanlıq baxımından istifadəçiyə daha faydalı olacaq. Yeni tətbiq bütün Android modelləri üçün mövcud olsa da, “Samsung”un dəstəyi olduqca əhəmiyyətlidir.

Qeyd edək ki, “Google Play”də istifadəçi təhlükəsizliyi ilə bağlı son zamanlar geniş mübahisələr mövcuddur.

***Əfsanə ƏHƏDLİ, “Xalq qəzeti”***

## HAVA PROQNOZU

✓ *Mayın 2-də*

✓ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Gün ərzində bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 9-14°, gündüz 15-20° isti olacaq. Atmosfer təzyiqi 760 mm civə sütunundan 765 mm civə sütununa yüksələcək, nisbi rütubət 70-80 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdə, axşam əksər rayonlarda arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Gecə 7-12°, gündüz 20-25° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Gecə 1-6°, gündüz 6-11°, bəzi yerlərdə 14° isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Gecə 0-5°, gündüz 5-10° isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüzdən başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 6-11°, gündüz 17-22° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Mingəçevir, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Gecə 5-10°, gündüz 15-20°, dağlarda gecə və gündüz 2-6° isti olacaq.

✓ **Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında** bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Gecə 9-14°, gündüz 18-23° isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarında** bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şimal-şərq küləyi əsəcək. Gecə 9-12°, gündüz 15-20°, dağlarda gecə 7-10°, gündüz 12-14° isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN

“Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlıya atası

**BABA MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin kollektivi Azərbaycan Tibb Universitetinin II uşaq xəstəlikləri kafedrasının professoru, Əməkdar elm xadimi

**SURXAY MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev və universitetin kollektivi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlıya atası

**BABA MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti qaz-neft-mədən fakültəsinin əməkdaşları universitetin rektoru Mustafa Babanlıya atası

**BABA MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5051
SİFARİŞ 1073
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır
00:00